# PEYĞƏMBƏRİMİZİN (S.Ə.S.) MÖCÜZƏLƏRİ

**Harun YƏHYA (ADNAN OKTAR)**

**Bu tərcüməmizdə istifadə edilən ayələr, əsasən, Vasim Məmmədəliyevin və Ziya Bünyadovun birlikdə hazırladığı Quranın Azərbaycan dilindəki tərcüməsindən götürülmüşdür**

Müəllif: Harun YƏHYA

Tərcümə edən: Elşad MİRİ

Redaktor: Yaşar ƏLİZADƏ

Korrektor: Şəlalə ARİFQIZI

Səhifələyən: Aygün AĞAYEVA

Yəhya H. «Peyğəmbərimizin (s.a.v.) möcüzələri» - Bakı, «Əbilov, Zeynalov və _oğulları», 2007. 156 səh.

Bu kitab tarix boyunca Allah tərəfindən göndərilən peyğəmbərlərin sonuncusu olan Həzrəti Muhəmmədin (s.a.v.) göstərdiyi möcüzələrindən bəhs edir. Burada Qurani-Kərimin Peyğəmbərimizə verilən ən böyük möcüzə olduğu ayələrlə izah olunur. Kitabda Allah Rəsulunun (s.a.v.) dualarının qəbul olunması, şəxsi məziyyətləri, qeyb xəbərləri, qorunması kimi möcüzələr qeyd edilmişdir. Sadə üslubda yazılan və tərcümə edilən əlinizdəki əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Elşad MİRİ

# İÇİNDƏKİLƏR

GİRİŞ ........................................................................ 9

RƏBBİMİZİN PEYĞƏMBƏRLƏRƏ BƏXŞ ETDİYİ MÖCÜZƏLƏR ........................................ 11

Hz.İsanın öz xalqına göstərdiyi möcüzələr ........................................ 11

Hz.Musanın əsasının əjdahaya çevrilməsi ........................................ 11

Hz.Musanın əlinin ağappaq olması ........................................ 12

Hz.Musanın əsası ilə vuraraq dənizdə yol açması ........................................ 12

Hz.İbrahimin parçaladığı quşların ona diri qayıtmaları ........................................ 12

Hz.Məryəmin yanında həmişə hazır yeməyin olması ........................................ 12

Hz.Yunusun möcüzəvi şəkildə xilas olması ........................................ 12

Hz.Zəkəriyyənin yaşlı olduğu halda uşaqla müjdələnməsi ........................................ 12

ALLAHIN PEYĞƏMBƏRİMİZƏ (S) BƏXŞ ETDİYİ MÖCÜZƏLƏR15

Peyğəmbərimizin (s) ürəyinə edilən vəhy ........................................ 15

Peyğəmbərimizə (s) vəhy gələn zaman şahid olunanlar ........................................ 18

PEYĞƏMBƏRİMİZİN (S) ƏN BÖYÜK MÖCÜZƏSİ: QURANİ-KƏRİM ........................................ 19

Quran bütün insanlar üçün bir nəsihətdir ........................................ 20

Quranda hər şey açıqlanmışdır ........................................ 20

Quranın ədəbi baxımdan üstünlüyü Allahın bir möcüzəsidir ........................................ 22

PEYĞƏMBƏRİMİZİN (S) ALİ ŞƏXSİYYƏTİ MÖCÜZƏDİR ........................................ 25

Peyğəmbərimizin (s) ümmi olmasındakı möcüzələr ....................................................27

Yəhudi alimlərinin Peyğəmbərimizi (s) tanımaları ....................................................29

PEYĞƏMBƏRİMİZİN (S) HƏYATINDAKI BƏZİ MÖCÜZƏLƏR ....................................................... 31

Merac möcüzəsi....................................................................................................31

Peyğəmbərimizin (s) Ayı iki yerə bölməsi ..............................................................33

PEYĞƏMBƏRİMİZİN (S) DUALARININ QƏBUL OLUNMASI.......................................................... 35

Peyğəmbərimizin (s) yağış dualarının qəbul edilməsi .............................................35

Peyğəmbərimizin (s) duasını qazanıb cavan qalan səhabələr..................................36

Peyğəmbərimizin (s) bərəkət üçün etdiyi duaların qəbul olunması.........................36

ALLAHIN PEYĞƏMBƏRİMİZİ (S) QORUMASI ................. 38

İman gətirməyənlərin Peyğəmbərimizi (s) öldürə bilməməsi ...............................40

Allahın mağarada hazırladığı möcüzələr...................................................................43

Rəbbimizin Peyğəmbərimizi (s) mələklərlə qoruyub dəstəkləməsi......................45

İnkarçıların az görünən orduları...............................................................................48

PEYĞƏMBƏRİMİZƏ (S) VERİLƏN QEYB XƏBƏRLƏRİ.... 51

Peyğəmbərimizin (s) möcüzəsi: Qeyb bilgisi ..........................................................52

Bizansın qələbəsi.......................................................................................................53

Məkkənin fəthi ..........................................................................................................54

Peyğəmbərimizin (s) verdiyi başqa qeyb xəbərləri..................................................55

Peyğəmbərimizin (s) İran Kisrasının ölümünü xəbər verməsi .................................56

Peyğəmbərimizin (s) heç kimin bilmədiyi hadisələri bilməsi.................................57

Peyğəmbərimizin (s) sual verilməmişdən əvvəl cavablandırması ...........................58

Peyğəmbərimiz (s) vəfatını səhabələrə xəbər vermişdi..........................................60

Peyğəmbərimiz (s)  səhabələrin şəhid olacaqlarını xəbər vermişdir ......................61

NƏTİCƏ ........................................................................................ 66

# OXUCUYA

Bu kitabda və digər çalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adıçəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.

Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.

Nəzərə çatdırılması lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.

Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.

Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.

Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.

Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.

# MÜƏLLİF VƏ ONUN ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, bolqar, yapon, Çin, Azərbaycan kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi daha əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa, bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

# GİRİŞ

Bəşər tarixi boyunca Allah bütün cəmiyyətlərə seçib-bəyəndiyi bir elçi göndərmiş, insanlara dünyada və axirətdə gözəl həyat yaşamağın yollarını göstərmişdir. Bunun iman gətirən insanlar üçün böyük mərhəmət və lütf olması Quranda belə bildirilir:

> **"Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə Onun ayələrini oxuyan, onları pis əməllərdən təmizləyən, onlara Kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər" *("Ali-İmran" surəsi, 164).***

> **"Biz səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik" *("Ənbiya" surəsi, 107).***

Göndərildikləri cəmiyyətlər və xalqlar üçün bir lütf olan elçilər insanlara doğru yolu göstərmiş, onların qaranlıqlardan aydınlığa çıxmalarına vasitəçi olmuş, bütün kainatı yoxdan yaradan Rəbbimizin əmrlərini insanlara çatdırmışlar. Onlar xoşbəxtlik, əmin-amanlıq, sülh və ədalətlə dolu həyatın yalnız din əxlaqının qüsursuz yaşanması ilə mümkün ola biləcəyini insanlara başa salmışlar. Ancaq Quranda bildirilən **"...Lakin insanların əksəriyyəti inanmaz"** ***("Rəd" surəsi, 1)*** ayəsində qeyd edildiyi kimi, tarix boyunca elçilərin göndərildikləri insanlar üçün nə qədər böyük nemət olduğunu dərk edərək onlara iman gətirənlərin sayı az olmuşdur.

Allahın seçdiyi elçilər, Quranda Hz.Muhəmməd (s) üçün işlədilən **"Sən çox istəsən də, insanların əksəriyyəti iman gətirən deyildir"** ***("Yusuf" surəsi, 103)*** ayəsində də bildirildiyi kimi, insanların iman gətirmələrini ürəkdən arzu etmişlər. Dünyada və axirətdə nemətə qovuşmaları, ən gözəl və ən xoşbəxt bir həyat yaşamaları üçün onları düz yola çağırmışlar. Bunun əvəzində insanlardan heç bir ödənc tələb etməmiş, onların yalnız iman gətirmələrini və gözəl əxlaqlı olmalarını istəmişlər. Elçilər Allahdan səmimi şəkildə qorxmalarına və üstün əxlaqlarına görə həyatlarını bunun naminə şərəflə yaşamışlar. Heç bir mənfəətləri olmadığı halda insanlara imanı və gözəl əxlaqı sevdirə bilmək üçün çox əziyyətlərə qatlaşmış, müxtəlif sınaq və işgəncələrə məruz qalmışlar. Ancaq çətinlik kimi görünən bütün bu hadisələr onların imanlarını və həvəsini daha da artırmışdır. Elçilər Allahın köməyi və dəstəyi ilə böyük cəsarət nümunələri göstərmiş və nəticədə Allahın yardımı və izni ilə qalib gələn də həmişə onlar olmuşlar. Rəbbimiz Quranda belə buyurmuşdur:

> **"Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən Allah yenilməz qüdrət, qüvvət sahibidir!" *("Mucadələ" surəsi, 21).***

Allah səmimiyyətlərinə, sədaqətlərinə, səbirlərinə və təvəkküllə hərəkət etmələrinə görə bu müqəddəs şəxslərin ürəklərinə əmin-amanlıq və səadət hissi verərək onları maddi və mənəvi cəhətdən güclü etmiş, inkarçıların onların əleyhinə qurduqları tələləri puça çıxarmışdır. Allahın öz peyğəmbərlərinə olan köməyi və onları qoruması Quranda belə bildirilir:

> **"Şübhəsiz ki, Biz Öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə yardım edəcəyik!" *("Mumin" surəsi, 51).***

> **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər etməsən, Onun elçiliyini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!" *("Maidə" surəsi, 67).***

İnkarçıların Peyğəmbərimiz Hz.Muhəmmədin (s) həyatına son qoymaq məqsədilə hazırladıqları tələnin qarşısında isə Allah Peyğəmbərimizə (s) olan köməyini belə xəbər verir:

**“Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da yurdundan çıxardıb qovmaq üçün sənə qarşı hiylə qururdular. Allah da onların bu hiyləsinə qarşı tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!”** ***(“Ənfal” surəsi, 30).***

Quranın bir çox ayələrində də bildirildiyi kimi, Allah elçilərini məruz qaldıqları hər cür çətinlikdən, hiylədən, sıxıntılardan qorumuş, bu müqəddəs şəxslərin üzərindəki nemət və bərəkətini artırmış, hər çətinlikdən sonra bir çıxış yolu göstərməklə düşdükləri çətin şəraitlərdə onların cəsarətini və güclərini artırmış, çiyinlərinə düşən yükü yüngülləşdirmiş və mərhəmətini xatırladaraq ürəklərini gücləndirmişdir.

Rəbbimiz bəzi elçilərinə də möcüzələr bəxş edərək onlara yardımçı olmuşdur. Rəbbimizin böyük neməti olan bu möcüzələr insanlara çox böyük təsir göstərmişdir. Həmin möcüzələr inananların hidayətini və həvəsini artırmaqla bərabər bir çox insanların da iman gətirməsinə səbəb olmuşdur.

# RƏBBİMİZİN PEYĞƏMBƏRLƏRƏ BƏXŞ ETDİYİ MÖCÜZƏLƏR

Rəbbimiz bəzən elçilərini inkarçıların və müşriklərin hiylələrindən qorumaq, bəzən də insanların iman gətirməsinə vasitəçi olması üçün bəzi peyğəmbərlərinə möcüzələr bəxş etmişdir. Qurani-Kərimdə Uca Allahın möcüzələrlə dəstəklədiyi peyğəmbərlərin təbliği, həyatları və inkarçılara qarşı apardıqları mübarizə müfəssəl şəkildə bildirilmişdir. Sevimli Peyğəmbərimiz Hz.Muhəmməd (s), Hz.Musa (ə), Hz.İbrahim (ə) və Hz.İsa (ə) Rəbbimizin möcüzələr bəxş etdiyi mübarək elçilərdəndir.

Məsələn, Hz.İbrahimi oda atmaq istəyən inkarçıların hiylələri Rəbbimizin möcüzəsi ilə puça çıxmışdır. Allah: **“Biz də: "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!" - deyə buyurduq”** ***(“Ənbiya” surəsi, 69)*** ayəsində də xəbər verdiyi kimi, atəşə Hz.İbrahimə sərin olmasını əmr edib. Beləliklə, Rəbbimizin möcüzəsi ilə inkarçıların Hz.İbrahimə qarşı qurduqları tələ alt-üst olmuşdur. Allahın elçilərindən bəzilərinə bəxş etdiyi digər möcüzələr Quranda belə xəbər verilir:

## Hz.İsanın öz xalqına göstərdiyi möcüzələr

**“Xatırla ki, o gün Allah belə buyuracaq: "Ey Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq möcüzələrlə gəldiyin zaman Mən səndən dəf etmişdim. Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!"“** ***(“Maidə” surəsi, 110).***

**“Onu İsrail övladlarına peyğəmbər göndərəcək. O, onlara deyəcək: "Mən həqiqətən Rəbbiniz tərəfindən möcüzə ilə sizə gəlmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri diriləldərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda bir dəlil vardır”** ***(“Ali-İmran” surəsi, 49).***

## Hz.Musanın əsasının əjdahaya çevrilməsi və qarşısındakıların hiylələrini udması

**“Firon dedi: "Əgər möcüzə ilə gəlmisənsə və doğru deyirsənsə, onu gətir göstər!" Musa əsasını atdı və o, dərhal aşkar görünən bir əjdaha oldu”** ***(“Əraf” surəsi, 106-107).***

**“Sağ əlindəki əsanı yerə tulla, onların düzüb qoşduqlarını udsun. Onların düzəltdikləri sehrbaz hiyləsindən başqa bir şey deyildir. Sehrbaz isə, hara gedirsə getsin, mətləbinə çatmaz!”** ***(“Taha” surəsi, 69).***

## Hz.Musanın əlinin ağappaq olması

**“Əlini qoltuğunun altına qoy ki, əlin başqa bir möcüzə olaraq eyibsiz-qüsursuz, ağappaq çıxsın. Biz də sənə ən böyük möcüzələrimizdən bir neçəsini göstərək” *(“Taha” surəsi, 22-23).***

## Hz.Musanın əsası ilə vuraraq dənizdə yol açması

**“İki dəstə bir-biri ilə qarşılaşdığı zaman Musanın camaatı dedi: "Artıq yaxalandıq!" Musa dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir!" Onda Musaya belə vəhy etdik: "Əsanla dənizə vur!" Vurdu və dəniz dərhal yarıldı və hər hissə böyük bir dağ kimi oldu. O biriləri də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O biriləri isə suya qərq etdik” *(“Şuəra” surəsi, 61-66).***

## Hz.İbrahimin parçaladığı quşların ona diri qayıtmaları

**“Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" - dedikdə Allah ona: "Məgər inanmırsan?" -buyurdu. İbrahim: "Bəli, inanıram, lakin ürəyim sakit olmaq üçün soruşdum", - deyə cavab vermişdi. Bu zaman Allah ona buyurdu: "Dörd quş götürüb onları özünə öyrəşdir, sonra parçalayaraq hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!"“ *(“Bəqərə” surəsi, 260).***

## Hz.Məryəmin yanında həmişə hazır yeməyin olması

**“....Zəkəriyyə hər dəfə Məryəmin ibadət etdiyi mehraba girdikdə onun yanında bir ruzi olduğunu görərdi: "Ey Məryəm, bunlar sənin üçün haradandır?"- dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!” *(“Ali-İmran” surəsi, 37).***

## Hz.Yunusun balıq tərəfindən udulandan sonra möcüzəvi şəkildə xilas olması

**“Həqiqətən, Yunus da göndərilmiş peyğəmbərlərdəndir! Yadına sal ki, bir zaman o, dolu bir gəmiyə qaçmışdı. Gəmidə olanlar püşk atmış və püşk ona düşdüyü üçün məğlub edilənlərdən olmuşdu. Özünü qınayarkən balıq onu udmuşdu. Əgər o, Allahı çox təqdis edənlərdən olmasaydı, yəqin ki, balığın qarnında qiyamət gününə qədər qalardı. Nəhayət, o, xəstə olduğu halda onu boş bir yerə (sahilə) atdıq” *(“Saffat” surəsi, 139-145).***

## Hz.Zəkəriyyənin yaşlı olduğu halda uşaqla müjdələnməsi

**“Zəkəriyyə Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!" Zəkəriyyə mehrabda ayaq üstə durub namaz qılarkən mələklər ona dedilər: "Allah sənə Özü tərəfindən gələn kəlməni təsdiq edən, alicənab, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın dünyaya gələcəyi xəbərini müjdə verir". Zəkəriyyə: "Ey**

**Rəbbim, üzərimə qocalıq çökdüyü və zövcəm qısır olduğu halda mənim necə oğlum ola bilər?" - söylədi. Allah isə: "Dediyin kimidir, lakin Allah nə istəsə, onu da edər", - deyə buyurdu" *("Ali-İmran" surəsi, 38-40).***

Quran ayələrində yuxarıda qeyd edilənlərdən başqa bir çox möcüzələr haqqında da xəbər verilir. Rəbbimizin bizə xəbər verdiyi bu möcüzələr bütün kainatın yiyəsi, sonsuz güc və qüdrət sahibi olan Rəbbimizin istəyi ilə baş verir. Hər möcüzə Allahın "Ol!" əmri ilə və Allahın istəyi ilə həyata keçir. Allah bir Quran ayəsində belə buyurur:

**"Biz səndən əvvəl də peyğəmbərlər göndərdik, onlara zövcələr, övladlar verdik. <u>Allahın izni olmadıqca heç bir peyğəmbər heç bir möcüzə gətirə bilməz.</u> Hər əcəl üçün bir kitab (yazı, hökm, son) var" *("Rəd" surəsi, 38).***

"Maidə" surəsində də Hz.İsanın öz möcüzələrini "Allahın icazəsi ilə" həyata keçirdiyi xəbər verilir:

**"O gün Allah belə buyuracaq: "Ey Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı, hikməti, Tövratı və İncili öyrətdim. O zaman sən <u>Mənim iznimlə</u> palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da <u>Mənim iznimlə</u> quş olurdu. Sən <u>Mənim iznimlə</u> anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir və <u>Mənim iznimlə</u> ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq aşkar möcüzələrlə gəldiyin zaman Mən onların bəlasını səndən dəf etmişdim. Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!"" *("Maidə" surəsi, 110).***

Peyğəmbərlərin hamısı Rəbbimizə təslim olmuş, yüksək əxlaqlı, aləmlərdən üstün hesab edilən və onlara nümunə olan müqəddəs insanlardır. Bütün insanlar kimi onlar da Rəbbimizin qarşısında aciz və möhtacdırlar. Allah bütün kainatı yoxdan yaradan, bütün varlıqların üzərində mütləq güc və hakimiyyət sahibidir. Canlı-cansız hər şeyin nəzarəti Allaha məxsusdur. Bütün kainat, göylərdə və yerdə olan canlı-cansız hər şey: bütün insanlar, bitkilər, əşyalar Allaha məxsusdur. Hamısını yaradan aləmlərin Rəbbi olan Allahdır. Hər şey Onun əmriylə hərəkət edir, O, istədiyi vaxta kimi, öz varlıqlarını davam etdirə bilirlər.

Bütün canlı varlıqları bəsləyən, onlara göydən və yerdən ruzi verən, yeri yaşıllaşdıran, gecəni qaraldan, Günəşi parlaq bir işıq edən, mövsümləri yaradan qüvvə Uca Allahdır. Dünyanın xəlq edilməsindən bu günə qədər yer üzərində yaşamış və hazırda da yaşamaqda olan bütün insanları yaradan Allahdır. Canlı-cansız hər şey öz mövcudluğuna görə Allaha borcludur və bütün varlığı ilə Ona möhtacdır. Rəbbimizin insanlar arasından seçib elçilik vəzifəsi ilə şərəfləndirdiyi peyğəmbərlər də Allahın yaratdığı və Onun əmriylə hərəkət edən Allaha möhtac insanlardır. Onların göstərdikləri möcüzələr də ancaq Allahın istəyi ilə meydana gəlmişdir.

Rəbbimizin sonsuz gücü "Ənbiya" surəsində belə xəbər verilir:

**"Göylərdə və yerdə olan butün məxluqat Onundur. Onun dərgahında olanlar Ona ibadət etməyə təkəbbür göstərməz və yorulmaq bilməzlər. Onlar gecə-gündüz, yorulub-usanmadan Rəbbini təqdis edib şəninə təriflər deyərlər. Yoxsa yerdən tanrılar qəbul etdilər ki, onlar ölüləri dirildəcəklər? Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı. Ərşin sahibi olan Allah müşriklərin Ona aid etdikləri sifətlərdən tamamilə uzaqdır! Gördüyü işlər barəsində sorğu-sual olunmaz; onlar isə sorğu-sual ediləcəklər. Yoxsa Ondan başqa tanrılar qəbul etdilər? De: "Dəlilinizi gətirin. Bu mənimlə olanların Kitabı, bu da məndən əvvəlkilərin zikri! Xeyr, onların əksəriyyəti haqqı bilmir və buna görə də ondan üz döndərirlər!"" *("Ənbiya" surəsi, 19-24).***

Bizim bu kitabdakı məqsədimiz də Allahın öz üstün əxlaqı, dərin imanı, hər bir davranışı və sözü ilə insanlara nümunə kimi göndərdiyi Peyğəmbərimiz Hz.Muhəmmədin (s) möcüzələrindən bəzilərini xatırlatmaqdır. Peyğəmbərimiz (s) Allahın izni ilə, həyatı boyunca insanlara bir çox möcüzələr göstərmişdir. Bu möcüzələrdən bəzilərinə ancaq səhabələr şahid olmuş, digər bir qismi isə inkarçıların çoxu tərəfindən müşahidə edilmişdir.

Peyğəmbərimizin (s) möcüzələrinin bir qismi bizə Quran ayələrində, digər bir hissəsi də hədislərdə çatdırılıb. Məqsədimiz aləmlərə mərhəmət kimi göndərilən bu müqəddəs insanın möcüzəvi yönlərini insanlara göstərmək və onları Qurani-Kərimi və Peyğəmbərimizin (s) sünnəsini özlərinə rəhbər saymağa dəvət etməkdir.

# ALLAHIN PEYĞƏMBƏRİMİZƏ (S.A.V.) BƏXŞ ETDİYİ MÖCÜZƏLƏR

Peyğəmbərimiz (s) Allahın **"...Lakin o, Allahın Rəsulu və peyğəmbərlərin sonuncusudur..."** ***("Əhzab" surəsi, 40)*** ayəsində bildirdiyi kimi, insanlar üçün axırıncı peyğəmbər olaraq göndərilən, Allahın ən son haqq kitabının vəhy edildiyi, gözəl əxlaqı, təqvası, Allaha olan yaxınlığı ilə insanlara nümunə olan mübarək bir insandır. O, Allahın dostu, möminlərin də dostu və vəlisidir. Allahın **"Həqiqətən Biz sənə ağır bir kəlam vəhy edəcəyik"** ***("Muzzəmmil" surəsi, 5)*** ayəsi ilə də bildirdiyi kimi, Peyğəmbərimizin (s) üzərinə çox ağır məsuliyyət qoyub. Peyğəmbərimiz (s) isə Allaha olan güclü imanı ilə ona verilən bu məsuliyyətli vəzifəni ən gözəl şəkildə yerinə yetirmiş, insanları Allahın yoluna dəvət etmiş və bütün inananların rəhbəri olmuşdur.

Kitabın girişində də bildirdiyimiz kimi, Rəbbimiz bir çox elçilərinə möcüzələr bəxş etmişdir. Uca Allah qiymətli Peyğəmbərimiz Hz.Muhəmmədi (s) də Öz dərgahından müxtəlif möcüzələrlə dəstəkləmişdir. Bu möcüzələrdən ən böyüyü isə heç şübhəsiz ki, Rəbbimizin insanlara bir hidayət rəhbəri olaraq göndərdiyi Qurani-Kərimdir. Rəbbimiz Quranı Peyğəmbərimizə (s) vəhy etmişdir.

## Peyğəmbərimizin (s) ürəyinə edilən vəhy

Həm İslami, həm də tarixi mənbələrə görə, sevimli Peyğəmbərimiz Hz.Muhəmməd (s) 40 yaşında peyğəmbərlik vəzifəsi ilə şərəfləndirilib. Ancaq Peyğəmbərimiz (s) vəhy almağa başlamamışdan əvvəl də bir çox möcüzəvi hadisə baş vermişdi. Bu möcüzələrdən biri Peyğəmbərimizin (s) gecələr gördüyü yuxuların tam dəqiqliyi ilə çin olub gerçəkləşməsidir. Hədislərdə bildirildiyinə görə, bu cür "saleh yuxular" 6 ay davam etmişdir. Böyük İslam alimi İmam Suyuti "Fövqəladə cəhətləri ilə Peyğəmbərimiz" adlı əsərində həmin yuxuları bu cür bildirir: *"Allah Rəsuluna (s) göndərilən vəhyin başlanğıcı yuxuda gördüyü saleh yuxu şəklində olub. Gördüyü hər yuxu səhərin aydınlığı kimi gerçək çıxırdı..."*"[1]

Hədislərdə bildirildiyinə görə, Peyğəmbərimiz (s) 40 yaşına çatanda tez-tez Məkkədən 12 kilometr aralıda yerləşən Nur dağındakı Hira mağarasına gedər, orada tək qalardı. Hira mağarasında təkliyə çəkilməsinin üçüncü ilinin Ramazan ayında Uca Rəbbimiz Hz.Muhəmmədə (s) peyğəmbərlik verdi. Cəbrail Allahın izni ilə Peyğəmbərimizə (s) göründü və ona Qurani-Kərimdən bəzi ayələr nazil etdi. İlk vəhy günü miladi tarixlə 610-cu il avqust ayının 10-na, ramazan ayının 21-ci günü bazar ertəsi gecəsinə təsadüf edir.

Allah Cəbrailin vasitəçiliyi ilə mübarək elçisinə İslam dinini vəhy etmişdir. Əlbəttə ki, bu, Rəbbimizin çox böyük nemətidir. Peyğəmbərimiz (s) də özünün dərin imanı, Allah qorxusu, təqvası, üstün əxlaqı ilə buna layiq olan bir insandır. Uca Allah bir ayədə belə buyurmuşdur:

> **"Lakin vəhyi sənə bəxş etməyimiz Rəbbinin yalnız sənə qarşı bir mərhəmətidir. Həqiqətən, Onun sənə olan neməti böyükdür!"** ***("İsra" surəsi, 87).***

Allah başqa bir ayədə isə belə bildirmişdir:

> **"Kitabın sənə nazil olacağına ümid etmirdin. Ancaq o, Rəbbindən bir mərhəmət olaraq sənə göndərildi..."** ***("Qəsəs" surəsi, 86).***

Peyğəmbərlik məqamı ilə şərəfləndirilməmişdən əvvəlki altı ay ərzində gördüyü yuxuların tam dəqiqliyi ilə gerçəyə çevrilməsi sevimli Peyğəmbərimizin (s) Allahın dərgahında seçilmiş olmasının dəlillərindən biridir. İslam

alimləri bu məsələni Allahın insanlara göndərdiyi son peyğəmbərini bu böyük vəzifəyə "yuxuda hazırladığı" şəklində izah edirlər. Bu "saleh yuxular"dan sonra Peyğəmbərimiz (s) Allahdan aldığı ilk vəhylə bütün insanlara bir hidayət rəhbəri edilmişdir. Sonralar O, çox böyük qətiyyətlə ta vəfat edənə kimi insanları Allaha və Onun yoluna dəvət etdi. Peyğəmbərimizə (s) ilk vəhyin gəlməsindən əvvəlki möcüzəvi hadisələr hədislərdə belə xəbər verilir:

Hz.Aişənin dediklərindən: *"Rəsulullah aləyhissalatu vəssalama vəhy şəklində ilk başlayan şey yuxuda gördüyü saleh yuxular idi. Yuxuda nə görsəydi, səhərin aydınlığı kimi eyni ilə həqiqət olardı. Bu əsnada ona təklik sevdirilmişdi. Hira mağarasına çəkilib orada ailəsinin yanına qayıtmadan bir neçə gün tək qalıb ibadətlə məşğul olardı. Bu məqsədlə yanına müəyyən qədər azuqə aparırdı. Azuqəsi qurtaranda Hz.Xədicənin (r.anhə) yanına dönər, yenə eyni qaydada azacıq miqdarda azuqə götürüb təkrar mağaraya qayıdardı. Bu vəziyyət Hira mağarasında ona haqq gələnə kimi davam etmişdi. Bir gün mələk onun yanına gəlib:*

- *"Oxu!" dedi. Aleyhissalatu vəssalam:*

- *"Mən oxumağı bilmirəm!" cavabını verdi. Aleyhissalatu vəssalam hadisənin davamını özü belə danışır:*

- *"Mən oxumağı bilmirəm" deyəndə mələk məni tutub qucaqladı, taqətim kəsilənə kimi sıxdı. Sonra buraxdı. Yenə:*

- *"Oxu!" dedi. Mən bu dəfə də:*

- *"Oxumağı bilmirəm!"* - dedim. *Məni ikinci dəfə qucaqlayıb taqətim kəsilənə kimi sıxdı. Sonra yenə buraxdı və: "Oxu!" dedi. Mən yenə: "Oxumağı bilmirəm" dedim. Məni üçüncü dəfə də qucaqlayıb taqətim kəsilənə kimi sıxdı. Sonra buraxdı və:*

***- "Yoxdan yaradan Rəbbinin adı ilə oxu! O, insanı "ələq"dən yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə yazmağı öyrətdi. İnsana bilmədiklərini öyrətdi" ("Ələq" surəsi, 1-5),*** *- dedi.*

*Rəsulullah aləyhissalatu vəssalam bu vəhyləri öyrənərək geri qayıtdı..."*[2]

Quranda Peyğəmbərimizin (s) Cəbraillə görüşməsi və Quran ayələrinin ona bildirilməsi ayələrdə də xəbər verilir. Peyğəmbərimizə (s) Quranı öyrədənin Cəbrail olduğu "Nəcm" surəsində belə bildirilir:

**"Sizin yoldaşınız nə haqq yoldan sapmış, nə də azmışdır!**

**O, kefi istəyəni (havadan) danışmır.**

**Bu, ancaq nazil olan bir vəhydir.**

**Ona bu Quranı çox qüvvətli olan (Cəbrail) öyrətdi"** ***("Nəcm" surəsi, 2-5).***

Bu ayələrdən sonrakı ayələrdə də Cəbrailin Qurani-Kərimi Peyğəmbərimizə (s) öyrətməsi əsnasında baş verən fövqəladə hadisələr belə xəbər verilir:

**"O qüvvət gözəllik sahibi göründü.**

**O, ən uca üfüqdə idi.**

**Sonra yaxınlaşdı və aşağı endi.**

**Onların arasındakı məsafə iki yay uzunluğunda, bəlkə ondan da yaxın oldu.**

**Sonra bəndəsinə vəhy buyurduğunu vəhy etdi.**

**Qəlb gördüyünü yalan saymadı.**

**Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz?"** ***("Nəcm" surəsi, 6-11).***

Bir çox başqa ayələrdə də Quranı göydən yerə endirənin Cəbrail olduğu xəbər verilir. Bu ayələrdə Cəbrail haqqında "Ruhul qüds" və "Ruhul əmin" şəklində buyurulur:

> **"Heç bir bəşər övladına Allahla danışmaq müyəssər olmaz. Allah bəşər övladı ilə ancaq vəhylə, yaxud pərdə arxasından danışar və ya bir elçi göndərər ki, o da Allahın izni ilə Onun istədiyini vəhy edər. Həqiqətən, O, ucadır, hikmət sahibidir!"** ***("Şura" surəsi, 51).***

> **"Cəbrailə düşmən olan kimsəyə de ki, onu (Kitabı) özündən əvvəlkiləri təsdiqləyici, möminlər üçün isə hidayət və müjdəçi olaraq Allahın izni ilə sənin qəlbinə O nazil etmişdir"** ***("Bəqərə" surəsi, 97).***

> **"De: "Ruhül Qüds onu sənin Rəbbindən iman gətirənlərə səbat verməк, müsəlmanları isə doğru yola yönəltmək və müjdə vermək üçün haqq olaraq nazil etmişdir!""** ***("Nəhl" surəsi, 102).***

> **"Şübhəsiz ki, bu Quran aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir! Onu Ruhul əmin endirdi. Xəbərdar edən peyğəmbərlərdən olasan deyə sənin qəlbinə nazil etdi"** ***("Şuəra" surəsi, 192-194).***

Cəbrail tərəfindən ona vəhy edilən ilk ayələrdən sonra Peyğəmbərimizə (s) gələn vəhyin ardının müəyyən bir müddət kəsildiyi rəvayət edilir. Hədislərdə vəhyin kəsilməsindən sonra ilk olaraq "Muddəssir" surəsinin ilk ayələrinin Peyğəmbərimizə (s) vəhy edildiyi və onun da öz təbliğ vəzifəsinə bu ayələrin vəhyindən sonra başladığı xəbər verilir.[3] Bundan sonra Allahın verdiyi əmrlə Peyğəmbərimiz (s) insanlara ancaq Allaha iman gətirməyi, Ona qətiyyən şərik qoşmamağı tövsiyə etdi. "Muddəssir" surəsindəki ayələrdə belə buyurulur:

> **"Ey örtünüb bürünmüş! Qalx qorxut! Öz Rəbbini uca tut!"** ***("Muddəssir" surəsi, 1-3).***

"Şuəra" surəsinin 194-cü ayəsində vəhyin Peyğəmbərimizin (s) qəlbinə göndərildiyi xəbər verilir. "Əla" surəsinin 6-cı ayəsində isə Allah **"Biz Quranı sənə oxudacağıq və sən onu unutmayacaqsan"** buyuraraq Peyğəmbərimizə (s) Qurani-Kərimi əzbərlədəcəyini bildirir. Quranın bütün ayələrini bu şəkildə öyrənməsi Rəbbimizin Peyğəmbərimizə (s) bəxş etdiyi möcüzələrdən biridir.

Quran ayələri Peyğəmbərimizin (s) qəlbinə yerləşdirilmiş, özü bütün həyatı boyunca Quran ayələrini təbliğ etmişdi. Allah "Əla" surəsinin 8-ci ayəsində **"Biz sənə ən asan olanı müyəssər edərik"** buyuraraq Peyğəmbərimizə (s) kömək etdiyini və Öz dərgahından bir nemət şəklində onu müvəffəq edəcəyini müjdələyib.

Rəbbimiz **"...Möminlərə kömək etmək Bizə vacibdir!"** ***("Rum" surəsi, 47)*** ayəsində də bildirdiyi kimi, müqəddəs elçisinə həmişə yardımçı olmuş, qəlbini fərəhləndirmiş, onun ağlında, elmində, hafizəsində xariqüladəliklər yaratmışdır.

Allah "Qiyamət" surəsində də Quran ayələrini Peyğəmbərimizə (s) oxudanın və onları unutmağın qarşısını alanın Özü olduğunu bildirib:

> **"Onu tələm-tələsik əzbərləmək üçün dilini tərpətmə! Çünki onu sənin qəlbində cəm etmək, oxutmaq Bizə aiddir. Biz onu oxutduğumuz zaman oxunmasını diqqətlə dinlə. Sonra onu bəyan etmək də Bizə aiddir!"** ***("Qiyamət" surəsi, 16-19).***

Ayələrdən də gördüyümüz kimi, Allah xüsusi olaraq Quran ayələrini Peyğəmbərimizin (s) hafizəsinə yerləşdirmişdir. Allah başqa bir ayədə Peyğəmbərimizə (s) belə buyurmuşdur:

> **"Həqiqi hökmdar olan Allah ucadır! Sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Mənim elmimi artır!" - de"** ***("Taha" surəsi, 114).***

Peyğəmbərimiz (s) Allaha olan coşğulu imanı, dərin sevgisi ilə Rəbbimizin bütün əmrlərinə könüldən boyun əyib. Allah da onu güclü və müvəffəq edib, ona çoxlu nemətlər bəxş edib, onu dünyada və axirətdə seçilənlərdən edib.

# Peyğəmbərimizə (s) vəhy gələn zaman şahid olunanlar

Allah "Muzzəmmil" surəsində Peyğəmbərimizə (s) gecə durub vəhy üçün hazırlaşmasını buyurmuş, vəhyin nə qədər ağır bir söz olduğunu xəbər vermişdir:

**"Ey libasına bürünmüş!**

**Gecəni - az bir hissəsi istisna olmaqla - qalxıb namaz qıl!**

**Gecənin yarısına qədər, yaxud bir qədər ondan az.**

**Və ya bir qədər ondan çox! Həm də aramla Quran oxu!**

**Həqiqətən, Biz sənə ağır bir kəlam vəhy edəcəyik.**

**Şübhəsiz ki, gecə (ibadətə) qalxmaq daha əlverişli və söz demək daha münasibdir!**

**Çünki gündüz sənin uzun-uzadı davam edən işlərin vardır.**

**Rəbbinin adını zikr et və Ona tərəf yönəl"** ***("Muzzəmmil" surəsi, 1-8).***

Hədislərdə də Peyğəmbərimiz (s) Allahdan vəhy almaq kimi fövqəladə bir hadisəni yaşayarkən onun olduğu otaqda xariqüladə mənəvi hadisələrin baş verdiyi bildirilir. Bəzi hədislərdə Peyğəmbərimizə (s) vəhy gələndə ətrafındakıların arı uğultusuna bənzər bir səs eşitdikləri bildirilir. Bəzi mənbələrdə isə Peyğəmbərimizin (s) sifətinin yanında arı uğultusu kimi səs eşidildiyi xəbər verilir.[4] Buxari və Müslim Hz.Aişədən (r.a.) bu hədisi rəvayət ediblər:

*"əl-Haris ibn Hişam Rəsulullahdan (s): "Vəhy necə gəlir?", - deyə soruşdu. Belə cavab verdi: "Bəzən zəng səsi kimi mənə çox ağır şəkildə gəlib dediklərini qavrayanda məndən ayrılır. Bəzən insan surətində gəlir, mənimlə danışır və mən də onun dediklərini əzbərləyib qavrayıram".*[5]

Buxari və Tirmizi Peyğəmbərimizin (s) xanımından bunu da nəql edirlər:

*"And olsun ki, Onu belə görmüşdüm: Çox soyuq bir gündə vəhy gəlmişdi. Mələk yanından ayrılanda alnından sel kimi tər axırdı".*[6]

Tabərani isə Zeyd ibn Sabitdən (r.a.) bunu bildirir:

*"Mən Allah Rəsuluna gələn vəhyləri yazırdım. Ona vəhy gələndə ağır yorğunluq hiss edər və bədənindən inci dənəsi kimi tərlər çıxardı. Vəhy vəziyyəti qurtaranda O oxuyar, mən də yazardım".*[7]

Əbu Nuaym isə əl-Fəltan ibn Asımdan bunu nəql edir:

*"Allah Rəsuluna (s) vəhy gələndə gözləri açıq, qulağı və qəlbi Allah tərəfindən gələn (ayələrdə) olardı".*[8]

Əbu Nuaym Əbu Hureyrədən (r.a.) bunu nəql edir:

*"Allah Rəsuluna (s) vəhy gələndə o, özündən keçən adam kimi olurdu".*[9]

# PEYĞƏMBƏRİMİZİN (S.A.V.) ƏN BÖYÜK MÖCÜZƏSİ: QURANİ-KƏRİM

Peyğəmbərimizin (s) ən böyük möcüzəsi Qurani-Kərimdir. Allah 14 əsr bundan əvvəl insanlara yolgöstərən bir kitab olan Qurani-Kərimi göndərmiş və bütün bəşəri ona tabe olaraq xilas olmağa dəvət etmişdir. Rəbbimiz Quran haqqında: **"Halbuki bu Quran aləmlərə ancaq bir öyüd-nəsihətdir!"** ***("Qələm" surəsi, 52)***, - deyə buyurmuşdur.

Quran göndərildiyi gündən bu günə kimi hər dövrdə yaşayan hər bir insan qrupunun başa düşə biləcəyi asan və anlaşıqlı bir dilə malikdir. Allah Quranın bu üslubunu **"And olsun ki, Biz Quranı ibrət almaq üçün belə asanlaşdırdıq..."** ***("Qəmər" surəsi, 22)*** ayəsi ilə xəbər vermişdir. Həmçinin Quranın ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslub xüsusiyyətləri və özündə ehtiva etdiyi üstün hikmət də onun Allahın sözü olmasının dəlillərindəndir.

Quranın bu xüsusiyyətləri ilə yanaşı, onun Allahın sözü olduğunu təsdiq edən çoxsaylı möcüzəvi tərəfləri də var. Bu xüsusiyyətlərdən biri bizim ancaq XX və XXI əsrlərin texnologiyası ilə çatdığımız bəzi elmi həqiqətlərin təxminən 1400 il əvvəl Quranda bildirilməsidir. Quranın müxtəlif ayələrində çox aydın və hikmətli üslubla qeyd edilən bəzi elmi həqiqətlər ancaq son dövrlərin texnologiyası ilə kəşf edilmişdir. Quranın göndərildiyi dövrdə elmi şəkildə əldə edilməsi mümkün olmayan bu bilgilər Quranın Allahın sözü olduğunu bir daha təsdiq edir.

Quranın nazil edildiyi VII əsrdə ərəb cəmiyyəti elmi məsələlər barədə saysız xurafata və batil etiqada malik idi. Kainatı və təbiəti tədqiq edəcək texnologiyaya malik olmayan ərəblər nəsildən-nəslə ötürülən əfsanələrə inanırdılar. Məsələn, onlar göyün dağların sayəsində dayandığını güman edirdilər. Bu inanca görə, dünya düzdür və hər iki tərəfdəki hündür dağlar sütun kimi göy qübbəsini saxlayır. Ancaq ərəb cəmiyyətinin bütün bu batil inancları Quranın gücü ilə aradan qaldırıldı. Məsələn, **"Göyləri, gördüyünüz kimi, dayaqsız olaraq yüksəldən məhz Allahdır..."** ***("Rəd" surəsi, 2)*** ayəsi göyün dağların sayəsində yüksəldiyi inancını alt-üst etdi. Bunun kimi daha bir çox məsələdə həmin dövrdə bilinməyən mühüm məlumatlar Quranda insanlara xəbər verildi. İnsanların astronomiya, fizika, biologiya və s. elmlər haqqında çox az məlumatlarının olduğu bir dövrdə göndərilən Quran özündə kainatın yaradılışından insanın yaradılmasına, atmosferin quruluşundan yer üzündəki sistemlərə qədər bir çox məsələlər barədə çox vacib məlumatları ehtiva edir.

Quran bütün kainatı yoxdan yaradan, hər şeyin ən doğrusunu bilən Allahın sözüdür. O, hər bir insanın başa düşəcəyi, sadə və anlaşıqlı bir üsluba və bənzərsiz hikmətə malikdir. Allah Quranı insanların oxuyub başa düşmələri, orada yazılanları öyrənmələri, bütün kainatı yoxdan yaradan Rəbbimizi tanımaları, Ona necə qulluq edəcəklərini bilib çəkinmələri üçün göndərmiş, fərqli misallarla ayələrini bir-bir və müxtəlif şəkillərdə açıqlamışdır. Allahın **"...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq..."** ***("Ənam" surəsi, 38)*** ayəsində də bildirdiyi kimi, Quran qüsursuzdur. Həm dünya həyatı, həm də axirət həyatı ilə bağlı bir çox təfərrüatlar Quranda çox hikmətli şəkildə açıqlanmışdır. Allah **"Həqiqətən sizə elə bir kitab nazil etdik ki, o, sizdən ötrü bir şərəfdir. Məgər dərk etmirsinizmi?"** ***("Ənbiya" surəsi, 10)*** ayəsi ilə də bu həqiqəti bildirir.

Quranın ən mühüm xüsusiyyətlərindən biri də onun günümüzə qədər heç bir dəyişikliyə məruz qalmadan, Peyğəmbərimizə (s) vəhy edildiyi şəkildə bizə gəlib çatmasıdır. Allah bu həqiqəti Quranda **"Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq!"** ***("Hicr" surəsi, 9)*** ayəsi ilə xəbər vermişdir.

Məlum olduğu kimi, Qurandan əvvəlki haqq kitablar göndərildiyi vəziyyətdə qalmamış, qorunmamış və təhrif edilmişdir. Bu kitablara insanlar tərəfindən müxtəlif əlavələr edilmiş, bəzi yerləri ya dəyişdirilmiş, ya da tamamilə çıxarılmışdır. Peyğəmbərimizə (s) isə hər dəfə vəhy gələndə həmin vəhylər Rəbbimizin bir möcüzəsi şəklində ona

əzbərlədilmişdir. Peyğəmbərimiz (s) isə vəhydən dərhal sonra səhabələrin arasında "vəhy katibləri" deyilən şəxslərə Quranı yazdırmışdır. Beləliklə, Quran yazılı surətdə qorunub-saxlanmışdır. Hz.Əbu Bəkirin dövründə Quran tək bir nüsxə halına salınmış, Hz.Osmanın dövründə isə Quran nüsxələri çoxaldılaraq mühüm İslam şəhərlərinə göndərilmişdir.

# Quran bütün insanlar üçün bir nəsihətdir

Qurani-Kərim Allahın bütün aləmlərə bir nəsihət kimi göndərdiyi və hökmü qiyamətə qədər etibarlı olacaq axırıncı haqq kitabdır. Quranın hökmləri göndərildiyi gündən etibarən bütün dövrlər və bütün insanlar üçün etibarlıdır və bu hökmlərin təsiri, gücü və etibarı qiyamətədək davam edəcəkdir. Quran insanlara bir nəsihət olaraq verilən, sonsuz həyatları üçün onlara xəbərdarlıq edildiyi və yenə onlara doğru yolun göstərildiyi bir zikrdir. Allahın Quranda **"Şübhəsiz ki, Quran sənin üçün və sənin qövmün üçün şərəfdir. Siz mütləq sorğu-sual olunacaqsınız!"** ***("Zuxruf" surəsi, 44)*** ayəsində bildirdiyi kimi, insanlar axirətdə Quranda yazılmış bütün hökmlərlə bağlı qüsursuz şəkildə mühakimə ediləcəklər.

Quran özündə ehtiva etdiyi üstün hikməti ilə, keçmişdən və gələcəkdən verdiyi həqiqi məlumatlarla, qəfləti dağıdan, insanlardakı vərdiş pərdəsini qaldıran üslubu ilə bənzərsizdir. Quranın bu möcüzəvi təsiri onun vəhy edildiyi gündən qiyamətə kimi bütün insanlar üçün etibarlıdır.

Dünyadakı hər bir insanın məsuliyyəti onun Allah qarşısında olan qulluq vəzifəsini tam şəkildə yerinə yetirməkdir. Bu isə ancaq Allaha səmimi şəkildə iman gətirib Quranı və Peyğəmbərimizin (s) sünnəsini əldə rəhbər tutmaqla mümkündür. Hər bir insan bu məsuliyyətli vəzifəni yerinə yetirməli və qiyamətə kimi etibarlılığını qoruyacaq olan Qurana möhkəm sarılmalıdır. Allah "Həşr" surəsində Quranın nə qədər üstün bir Kitab olmasını və onu əldə rəhbər tutmağın böyük məsuliyyət olduğunu bu misalla bildirir:

> **"Əgər Biz bu Quranı bir dağa nazil etsəydik, sən onun Allahın qorxusundan parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə düşünələr"** ***("Həşr" surəsi, 21).***

# Quranda hər şey açıqlanmışdır

Allah Quranda doğru olanlarla səhvləri, haram və halalları çox açıq şəkildə bildirmişdir. Buna görə də vicdanlarının səsinə qulaq asıb, nəfslərinin eqoist arzularından uzaq dayanan, Allahın hökmlərini tətbiq etməkdə qətiyyət göstərən hidayət əhli olan adamlar üçün doğrunu tapmaq çox asandır. Quran hər yaşdan, hər təhsil səviyyəsindən olanlar tərəfindən asanlıqla başa düşülən, nəsihətləri dərk edilən hikmətlə dolu bir kitabdır. Quranın özündə ehtiva etdiyi hökmlər və ayələrdə tövsiyə edilən gözəl əxlaq çox aydın, başadüşülən və asandır. Allahın hidayət verdiyi, səmimi niyyətli hər bir adam Quranı asanlıqla başa düşə və başa düşdüklərini özünün bütün davranış və düşüncələrində ən gözəl şəkildə tətbiq edə bilər. Allah Quranın bu xüsusiyyətini "Bəqərə" surəsində **"...insanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran Quran..."** ***("Bəqərə" surəsi, 185)*** ayəsi ilə bildirir. Yalnız təkcə Allahdan qorxub çəkinənlər, Ona könüldən təslim olanlar, axirət həyatını dünya həyatından üstün tutanlar Qurandan nəsihət alıb düşünərlər. Allah başqa ayələrdə də belə buyurur:

> **"Biz Quranı sənə məşəqqət çəkməyin üçün nazil etmədik! Biz onu qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq göndərdik"** ***("Taha" surəsi, 2-3).***

Bu məsələ eyni zamanda Quranın mühüm bir sirridir. Quranı başa düşmək üçün üstün bir zəkaya, dərin bir mədəniyyətə və ya qabiliyyətə malik olmaq deyil, səmimi olmaq lazımdır. Çünki Allah səmimi bəndələrinə düz olanı

göstərir, onların xilas olmalarını təmin edir. Quran bütün insanlara göndərilən bir kitabdır, ancaq Allahdan qorxan və axirət gününə iman gətirən möminlər üçün bir hidayət vəsiləsidir. Bu məsələ ilə bağlı ayələrdən bəziləri belədir:

> **"Bunlar hikmətli kitabın ayələridir. Yaxşı əməllər edənlərə bir hidayət və rəhmətdir"** ***("Loğman" surəsi, 2-3).***

> **"Ey insanlar! Sizə Rəbbinizdən bir öyüd-nəsihət, ürəklərdə olana bir şəfa, möminlərə hidayət və mərhəmət gəldi"** ***("Yunus" surəsi, 57).***

Ayələrdə də bildirildiyi kimi, Quran bütün bəşəriyyət üçün bir öyüd-nəsihət, qorxub çəkinən və səmimi olan müsəlmanlar üçün də bir hidayət rəhbəridir. Böyük İslam mütəfəkkirlərindən biri *"Qurani-Hakim şüurlu insanlara imamdır, cin və insanlara yol göstərəndir, kamil insanlara rəhbərdir, düz yolda olanlara müəllimdir..."*[10] - sözləri ilə Quranın saleh bəndələr üçün bir dürüstlük rəhbəri olduğunu ifadə etmişdir. Allah bütün insanların qaranlıqlardan nura çıxmaları üçün vicdanlı şəkildə cavabını axtardıqları hər məsələnin izahını və həllini Quranda bildirmişdir. "Nəhl" surəsində Rəbbimiz Quran haqqında belə buyurmuşdur:

> **"...Biz Quranı sənə hər şeyi izah etmək üçün, müsəlmanlara da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!"** ***("Nəhl" surəsi, 89).***

"Ənam" surəsində isə bu həqiqət **"...Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna cəm ediləcəkdir"** ***("Ənam" surəsi, 38)*** şəklində bildirmişdir. Quranda hər şey ən mükəmməl, ən hikmətli və ən gözəl şəkildə açıqlanmışdır. Bu, Allahın bəndələrinə olan mərhəmətinin bir təcəssümüdür.

Həmçinin Allah Quran vasitəsilə bizə Özünü tanıdır, Özünü bütün kainatı yoxdan yaradan, aləmlərdən üstün olan, bütün qüsurlardan uzaq, hər şeydən xəbərdar olan, gizlinin gizlisini görən, eşidən olduğunu bildirir.

Bunlarla yanaşı, Quranda insanların nəyə görə və necə yaradıldıqları, necə bir həyat yaşayarlarsa, Allahın razılığını qazana biləcəkləri, qiyamət günü, cənnət, cəhənnəm, ibadət formaları, gözəl əxlaqın tərifi, bədən və ruh olaraq sağlam olmağın yolları, çətin anlarda və gözlənilməz vəziyyətlərdə görülməli olan tədbirlər, müxtəlif insan xarakterləri ətraflı şəkildə açıqlanmışdır. Quranda həmçinin elmi həqiqətlərə işarə edən ayələr, gündəlik həyata və ictimai məsələlərin həlli yollarına dair bilgilər və bir çox məsələlər haqqında məlumatlar verilmişdir. Yəni Quranda bir insanın həyatının hər anında ehtiyac hiss edəcəyi əsas məsələlərin hamısı mövcuddur. Ayələrdə belə bildirilir:

> **"Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri təkrar-təkrar izah etdik ki, bəlkə onlar pis əməllərdən çəkinsinlər, yaxud ibrət alsınlar!"** ***("Taha" surəsi, 113).***

> **"Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkib onlara izah etdik. Lakin onların əksəriyyəti küfrdən başqa bir şeyə razı olmadı"** ***("İsra" surəsi, 89).***

> **"Biz bu Quranda insanlar üçün cürbəcür məsəllər çəkdik..."** ***("Kəhf" surəsi, 54).***

Quranda insana Allahın hökmlərini qeyd-şərtsiz qəbul etməsi, yalnız Allahı özünə dost və vəkil tutması, həyatdakı yeganə məqsədinin Allahın razılığı, mərhəməti və cənnəti olmasının lazım olduğu bildirilir. Quran ayələrində bildirildiyi kimi, bir həyat yaşayan insan üçün əsas meyar Quran, gediləcək yol da Peyğəmbərimiz Hz.Muhəmmədin (s) yoludur.

Allah Ona qulluq edənlərə din kimi İslamı seçib bəyənmiş, müraciət edəcəkləri rəhbər olaraq Quranı göndərmiş, Peyğəmbərimizin (s) həyatını da nümunə olaraq göstərmişdir. Yeganə doğru və haqq yol Allahın yoludur. Allahın Quranda bildirdiyi yollardan başqa bütün digər yollar batildir, səhvdir. Belə yollar yalnız xurafatlara, bidətlərə (dinə sonradan əlavə edilən hökm və inanclara) və zənnlərə söykənir. Dolayısı ilə insan ancaq Quran ayələrini və Peyğəmbərimizin (s) sünnəsini özünə tək meyar olaraq götürdüyü, Allahın buyruqlarını həssaslıqla yerinə yetirdiyi, həmişə Onun razılığını qazandıracaq yaxşı əməllər etdiyi və özü üçün Peyğəmbərimizin (s) əxlaqını nümunə götürdüyü təqdirdə Allah dərgahından gözəl bir mükafat uma bilər.

Quranda bildirildiyi kimi, Allahın sözləri **“tamamlanmışdır”** və ancaq Quranı və Peyğəmbərimizin (s) sünnəsini özünə rəhbər seçən bir insanın ən doğru və ən həqiqi bilgilərə çatması mümkündür. Allahdan başqa heç bir “hakim“in olmadığı Quranda belə xəbər verilir:

> **“Allah sizə Kitabı müfəssəl surətdə nazil etdiyi halda mən Ondan başqasınımı özümə hakim istəməliyəm?! Kitab verilmiş şəxslər Quranın sənin Rəbbindən haqq olaraq nazil edildiyini bilirlər. Sən şübhəyə düşənlərdən olma! Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, eşidəndir, biləndir!”** ***(“Ənam” surəsi, 114-115).***

# Quranın ədəbi baxımdan üstünlüyü Allahın bir möcüzəsidir

Allah bir ayədə Quran haqqında belə buyurur:

> **“And olsun ki, Biz Quranı (ondan) ibrət almaq, öyüd-nəsihət qəbul etmək üçün belə asanlaşdırdıq...”** ***(“Qəmər” surəsi, 22).***

Bu qədər asan başa düşülən bir üsluba malik olmasına baxmayaraq Rəbbimizin böyük möcüzələrindən biri kimi Quranın təqlidi heç bir cəhətdən mümkün olmayıb. Açıq-aşkar dəlillərə baxmayaraq şübhəyə düşüb Peyğəmbərimizə (s) böhtan atanlara Allah *“əgər doğru deyirsinizsə, Peyğəmbərimizə (s) gələn ayələrin oxşarını gətirmələrini”* buyurmuşdur:

> **“Yoxsa: "Onu özündən uydurdu!" - deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da köməyə çağırın!"“** ***(“Yunus” surəsi, 38).***

Bu qətiyyən mümkün olmasa da, iman gətirməyənlər öz zəif ağılları ucbatından bunun asan olduğunu fikirləşə bilərdilər. Çünki Ərəbistanda şeir və ədəbiyyat çox inkişaf etmişdi. Xalqın arasında şairlər və ərəb dilini çox gözəl bilib ondan yaxşı istifadə edən fasih (yaxşı söz demək qabiliyyəti olan, natiq) və bəliğ (öz məqsədini düzgün və məharətlə ifadə edən) insanlar vardı. İslam alimlərindən birinin də qeyd etdiyi kimi, qəbilənin ədibi (gözəl sənətli söz söyləyən) onların nəzərində ən böyük milli qəhrəman kimi qəbul edilirdi. Ədəbiyyata və bəlağətə (gözəl sözə) verdikləri əhəmiyyətə görə “Muallaqatı-Səba” (Yeddi asılan) adı ilə yeddi ədibin yeddi qəsidəsini qızıl hərflərlə yazıb Kəbənin divarına asırdılar.[11] Bəziləri də Ukazdakı yarmarka kimi böyük yığıncaqlarda camaat qarşısında çıxışlar edirdilər. “Bədəvi” adlandırılan kəndlilər də şəhərdəki şairlərin səviyyəsində şeirlər deyir və xütbələr söyləyirdilər. Qafiyəli, qafiyəsiz söylədikləri şeir və çıxışlar ilə insanlara təsir edə bilirdilər.[12]

Belə fəsahətin *(bir dilin doğru şəkildə, asan və düz söylənməsi və yazılması, əcnəbi və az işlədilən sözlərin olmaması)* və bəlağətin *(fikrin düzgün şəkildə və təmtəraqlı sözlərlə bəzədilərək söylənməsi)* inkişaf etdiyi bir dövrdə Allah Quranı Peyğəmbərin (s) qəlbinə göndərdi. Ədəbi cəhətdən inkişaf edən bu insanların Qurandakı ədəbi möcüzəni dərk etmələri -*daxillərindəki təkəbbür və əzəmətləri səbəbi ilə inkar etməkdə israr edənlər olsa da*- əlbəttə ki, çox qısa müddətdə baş verdi.

Quran insanlara hidayət vəsiləsi olacaq bütün hadisələri əhatə edən, onlara özlərini  və öz nəfslərini tanıdan, keçmişə və gələcəyə dair heç bir insanın və ya cinin bilə bilməyəcəyi məlumatları verən, içində qeyd edilən sayların, tarixlərin hamısının doğru olduğu Uca Allahın vəhyidir. Quran tayı-bərabəri olmayan ədəbi zənginliyə malikdir. Quranın möcüzəsi o qədər böyükdür ki, Allah Peyğəmbərimizə (s) Qurana qulaq asmayanlara və lovğalananlara belə deməsini əmr edib:

> **“De: "Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər. Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkib onlara izah etdik. Lakin onların əksəriyyəti küfrdən başqa bir şeyə razı olmadı”** ***(“İsra” surəsi, 88-89).***

**“Yoxsa; "Onu özündən uydurdu!" deyirlər. De: "Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin və Allahdan başqa kimi bacarırsınızsa, onu da köməyə çağırın. Yox, əgər sizə cavab verməsələr, bilin ki, o, ancaq Allahın elmi ilə nazil olmuşdur. Ondan başqa heç bir tanrı yoxdur! Bütün bunlardan sonra İslamı qəbul etməzmisiniz?"“ *(“Hud” surəsi, 13-14).***

**“Yoxsa: "Onu özündən uydurdu!" - deyirlər. De: "Əgər doğru deyirsinizsə, ona bənzər bir surə gətirin və Allahdan başqa kimə gücünüz çatırsa, onu da çağırın!" Xeyr, o kafirlər elmini qavraya bilmədikləri və hələ yozumu onlara gəlib çatmamış Quranı yalan hesab etdilər. Onlardan əvvəlkilər də təkzib etmişdilər. Bir gör zalımların axırı necə oldu!” *(“Yunus” surəsi, 38-39).***

İman gətirməyənlər Quranın mükəmməlliyi qarşısında həmişə aciz və çarəsiz qalmağa məhkumdurlar. Heç bir insan Quranın oxşarını gətirə bilməyib və qiyamətə kimi də bunun olması mümkün deyil. Peyğəmbərimizin (s) öz aləmlərində haqlı olmadığını göstərməyə çalışanların və Quranın təbliğ edilməsinin qarşısını almaq üçün hiylələrə əl atanların məkrli planları Rəbbimizin bir neməti kimi puça çıxarılmışdır.

Peyğəmbərimiz (s) ərəblərin ədəbi yöndən dili ən gözəl və dəbdəbəli şəkildə işlədən güclü natiqlərinə, ən məşhur şairlərinə, ən yaxşı danışanlarına Qurani-Kərimlə ən hikmətli cavablar vermişdir. Həm də təkbaşına çoxlu sayda ədibə, natiqə Rəbbimizin mərhəməti ilə üstün gəlmişdir. Heç şübhəsiz ki, bu, Rəbbimizin Qurani-Kərimdə təcəssüm etdirdiyi bənzərsiz ədəbi gözəllikdən, hikmətdən, təsirli olmaqdandır və Uca Allahın möminlərə bir köməyidir. Məkkəli müşriklər Peyğəmbərimizin (s) onlara oxuduğu Quran ayələri qarşısında böyük heyranlıq yaşayıblar, ancaq onların bəziləri vicdanları qəbul etdiyi halda qürurlarına üstün gələ bilməyərək, inkarçılıq yolunu seçiblər. “Bəqərə” surəsinin 23 və 24-cü ayələrində belə buyurulur:

**“Əgər bəndəmizə nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və əgər doğru deyirsinizsə, onda Allahdan savayı şahidlərinizi çağırın! Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı insanlardan və kibrit daşlarından ibarət olan oddan çəkinin!” *(“Bəqərə” surəsi, 23-24).***

İslam alimlərindən biri bu ayələri belə izah edir:

*“...O bəlağət və fəsahətin (gözəl söz söyləmək sənətinin) imamları olan ərəb ədibləri bir kəlmə də olsa çıxıb söz söyləyə bilmədilər. Halbuki təkəbbür və qürurlarının, özünəvurğunluq və lovğalıqlarının ucbatından gecə-gündüz çalışıb Qurana cavab verməliydilər ki, aləmdə rüsvay olmasınlar. Quranın bir oxşarını gətirməkdə aciz olduqları üçün susmağa məcbur oldular. Əgər mübarizə aparmaq mümkün olsaydı, bir-iki sətirlə Quranın mübarizəsini ləğv etmək kimi asan bir çarə olduğu halda, ən çətin və ən təhlükəli döyüş yolunu seçərdilərmi? Cahızın ifadəsi ilə desək, hərflə mübarizə aparmaq mümkün olmadığı üçün qılıncla mübarizə aparmağa məcbur oldular və qılınca sarıldılar. Digər insaflı qismi isə Quranın qarşısında hörmətlə əyilərək iman gətirdilər. Bəlağətlə məşğul olan bu insaflı ədiblər diz çöküb heyrət içində Qurana qulaq asdılar. Şair və natiqlər Qurana heyran qalıb qızıl xətlə yazılaraq Kəbənin divarlarına asılan şeirlərini oradan götürdülər. Quran qeybdən xəbər verdiklərini iddia edən kahinləri və sehrbazları da susdurdu. Onların qeyblə bağlı xəbərlərini onlara unutdurdu, cinlərini qovdu. Keçmiş tayfa və ümmətlərin xəbərlərini bilənləri xurafatlardan və yalanlardan xilas edib onlara həqiqi xəbər və hadisələri və dünyaya aid bilgiləri öyrətdi. Bu dörd təbəqə Quran qarşısında heyrət və hörmətlə diz çökərək ona tələbə oldular. Heç biri, heç vaxt bircə surə ilə mübahisəyə girişmədi”.*[13]

Özlərindən olan, illərlə birlikdə yaşadıqları Peyğəmbərimizə (s) möhtəşəm bir kitabın göndərilməsi təkəbbürlü inkarçıları heyrətə salmış, sonra da haqsız yerə nifrət bəsləmələrinə səbəb olmuşdu. Buna görə də onlar zalımcasına və ağılsızcasına Peyğəmbərimizə (s) maddi-mənəvi zərər vermək üçün mübarizəyə başlamışdılar. Peyğəmbərimizin (s) bütün həyatına, gözəl əxlaqına şahid olduqları halda, onun əleyhinə birləşmişdilər. Allah onların bu zalım davranışlarını Quranda belə xəbər vermişdir:

**“Onlar öz içərilərindən özlərinə qorxudan bir peyğəmbər gəlməsinə təəccüb etdilər və kafirlər belə dedilər: "Bu, yalançı bir sehrbazdır!”** ***(“Sad” surəsi, 4).***

**“İçərilərindən bir adama: "Insanları qorxut, iman gətirənləri Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" - deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, aşkar bir sehrbazdır!" - dedilər”** ***(“Yunus” surəsi, 2).***

Peyğəmbərimiz (s) kimi mübarək, Allahın yanında seçilən və gözəl əxlaqlı bir insana müxtəlif böhtanlar atanlar həqiqətdə onun üstün əxlaqına şəxsən şahid idilər. Hz.Muhəmmədin (s) verdiyi sözlərə sədaqəti, vəfası, dürüstlüyü, doğruculluğu, imkansıza və yetimlərə yaxşılıq etməsi, yardımsevər olması, qayğıkeşliyi, xeyirxahlığı, insanlara münasibəti həmişə bu böhtançıların gözlərinin qabağında olmuşdu. Onun şəxsiyyətinin üstün cəhətləri və əxlaqi gözəllikləri tayfasının diqqətini həmişə çəkmiş, hər kəsin ən etibar etdiyi, ən çox sevdiyi və çox hörmət göstərdiyi insan olmuşdu. İmam Qəzzali Peyğəmbərimizi (s) görənlərin onun əsil, saf və üstün əxlaqına, dərin imanına necə şahid olduqlarını belə bildirib:

*“Bil ki, Rəsulullahın (s) vəziyyətini görən, onun əxlaqını, davranışını, hal və hərəkətlərini bildirən xəbərlərə qulaq asan, adətlərini, xüsusiyyətini, bütün insanlara qarşı olan doğru siyasətini, insanların xeyrinə olan hidayətini, xalq təbəqələrini bir yerə yığmasını və nəhayət hamısını birdən öz itaətinə ram etməsini (təslim olmaq, itaət etmək) dinləyən bir şəxs, bəli, bunlarla birlikdə sualların məhdudluğuna baxmayaraq verdiyi heyrətamiz cavablara, xalqın məsləhətində işlədilmiş tədbir və üsullara, faqih (dərin və incə anlayış) və ağıllıların uzun yaşamalarına rağmən başlanğıcının incəlikləri qarşısında aciz qaldıqları, ilahi nizam-intizamın zahiri təfsirindəki (Allahın nizamında, xaricdən görünən mənalarını anladan) gözəl işarələrini hekayə edən dəlillərə baxan bir adamın zənni və şübhəsi qalmaz ki, bütün bunlar bəşəri qüvvənin gücü ilə meydana gəlmiş şeylər deyil. Bəlkə bunlar ancaq Ilahi bir güc və səmavi bir dəstəyin (Allahdan gələn dəstəyin) yardımı ilə təsəvvür ediləcək məsələlərdir.*

*Səhrada yaşayan və onu tanımayan ərəblər də onun ancaq üzündəki nura baxaraq onun şərəfli əxlaqına, onun doğruluğuna şahidlik edərdi. Madam ki, onu tanımayan və onunla görüşməyən bir adam ancaq onun zahiri görünüşünə baxaraq bu cür şahidlik edir, əcəba, özünü və mübarək əxlaqını görən, çıxış və girişlərində onun bütün vəziyyətlərini izləyən bir adamın ona qarşı halı necə ola bilər?”*[14]

Peyğəmbərimizin (s) gözəl əxlaqı heç bir insanın inkar edə bilməyəcəyi, görməzliyə vura bilməyəcəyi qədər üstündür. O, Quranda bildirilən və Allahın bəyəndiyi əxlaqa tam malikdir. Bütün alimlərə nümunə və rəhbərdir. İslami mənbələrə görə, Peyğəmbərimizə (s) öz aləmində dili ilə əziyyət verməyə çalışan insanlardan biri olan Nadr b. əl-Haris daha sonra müşriklərin tanınmış adamlarını bir gün bir yerə yığaraq Allahın bu mübarək elçisini onlara belə tanıtmışdı:

*“Ey Qureyş camaatı. And olsun ki, bu günə kimi başınıza gəlməyən bir işlə qarşılaşdınız.* ***Muhəmməd (s.ə.v) aranızda balaca bir uşaq olarkən də ən çox sevdiyiniz, ən düz danışanınız və əmanətə ən çox riayət edəniz idi.*** *Saçlarına ağ düşüb (Allahın) Kitabını gətirəndən sonra ona “sehrbaz” dediniz. And olsun ki, o, sehrbaz deyil. Biz çox sehrbazlar görmüşük. Onların düyünlərə necə üfürdüyünün də şahidi olmuşuq. Sonra ona “kahin” dediniz. And olsun ki, o, kahin də deyil. Çoxlu kahinlər görmüşük və onların vəziyyətlərinə də vaqif olub sözlərini eşitmişik. Sonra ona “şair” dediniz. And olsun ki, o, şair də deyildi. Neçə-neçə şeirlər əzbərlədik. Şeirin həzəcini (əruz vəznində bir ölçü), rəcəzini (əruz vəznində bir bölüm), qısası, hər cürünü də görmüşük.” “Məcnun” dediniz. And olsun ki, o, dəli də deyil. Onda heç ürəkgetmə, ağlına nə gəldi danışma və dəlilik etmək əlaməti varmı? Ey Qureyş camaatı, bunu yaxşı fikirləşin və belə qərar verin...”*[15]

# PEYĞƏMBƏRİMİZİN (S.A.V.) ALİ ŞƏXSİYYƏTİ ALLAHIN BİR MÖCÜZƏSİDİR

Peyğəmbərimiz Hz.Muhəmməd (s) Rəbbimizin yanında şərəfli və böyük məqamı olan mübarək bir insandır. Allahın aləmlərdən üstün tutaraq ona itaət edilməsi üçün göndərdiyi Peyğəmbərimiz (s) insanların ən etibarlısı, dürüstlük nümunəsi olub, çox üstün bir əxlaqın sahibidir. O, öz təqvası, üstün əxlaqı, gözəl xüsusiyyəti ilə Allahın bütün insanlara nümunə göstərdiyi müqəddəs elçisidir. İnsanların mürşidi və yolgöstərənidir. O, həyatı boyunca öz şəfqəti, nəzakəti, incə düşüncəsi, anlayışlı, təvəkküllü, qərarlı və səbirli davranışı ilə bütün müsəlmanlara yol göstərmişdir. Peyğəmbərimiz (s) özündən sonrakı bütün müsəlman aləminə nümunə olan çox xeyirli bir insandır.

Hz.Əlinin nəvələrindən İbrahim ibn Muhəmməd Peyğəmbərimiz (s) haqqında bunları söyləmişdir:

*"Babam Hz.Əli Peyğəmbərimizdən (s) bəhs edərkən Onu belə xarakterizə edərdi:*

*...O, insanların ən comərd könüllüsu, ən düzdanışanı, ən mülayim əxlaqlısı və ən dostcanlısı idi. Onu qəfildən görənlər heybəti qarşısında çox həyəcanlanırdılar, üstün xüsusiyyətlərini bilərək söhbət edənlər isə Onu hər şeydən çox sevirdilər. Onun üstün cəhətlərini və gözəlliklərini təsvir etməyə çalışan adam "Mən ondan əvvəl də, ondan sonra da onun kimi bir adam görmədim" deyərək Onu tanıtmaq məsələsində söz tapa bilmədiyini etiraf edərdi. Ona Allahın salah (Peyğəmbərimizə (s) edilən dua, istiğfar, rəhmət, namaz) və salamı olsun".*[16]

Peyğəmbərimiz (s) yaşadığı cəmiyyətin arasında *"əl-əmin"* (etibarlı, güvənilən) ləqəbi ilə məşhurlaşmışdı və onun dürüstlüyü və etibarlı olması məsələsində hamı həmfikir idi. Əslində Peyğəmbərimizin (s) üzü hər görən adamın onun dürüstlüyünə dair qəti qənaət yaradacağı qədər nurlu idi. Vicdanının səsinə qulaq asaraq onunla söhbət edən, onun söhbətlərində iştirak edən kim olursa olsun, ondakı xariqüladəliyi başa düşür, peyğəmbərliyi ilə bağlı çox aydın dəlil görürdü. Ağlı, fərasəti, malik olduğu yüksək xarakteri qövmündəki müşriklərin də öz aralarındakı məsələləri həll etmək üçün ona müraciət etmələrinə səbəb olurdu.

Səhabələrin həmişə şahidi olduqları Peyğəmbərimizin (s) üstün əxlaq və məziyyətləri haqqında İbni Sad İbni Əsakir Davud ibn Husayndan bu məlumatları nəql etmişdir:

*"Allah Rəsulu xalqı arasında dürüstlük baxımından ən üstün, əxlaq cəhətdən ən gözəl, sosiallıq yönündən ən mükəmməl, qonşuluq baxımından ən comərd, yumşaqlıq və əmanətə sədaqət yönündən ən qabaqcıl, ən doğru danışan, həyaya və tərbiyəyə ən çox əhəmiyyət verən insan kimi yetişmişdi. Hamı ilə çox yaxşı rəftar edirdi. Buna görə də ona "əl-Əmin = Çox doğru və etibarlı" demişdilər".*[17]

İbni Sad Rabi b. Hasyemdən də belə söyləmişdir:

*"İslamdan əvvəlki cahiliyyə dövründə hamı öz problemlərini həll etmək üçün Allah Rəsuluna müraciət edərdi".*[18]

Yaqub ibn Süfyan və Beyhaqi İbni Şihabdan bunları bildirmişlər:

*Qureyşlilər Kəbəni təkrar tikəndə Hacəri-Əsvədi yerinə qoymaq məsələsində ixtilaf yarandı. Hər qəbilə özü bu daşı yerinə qoymaq istəyirdi. Sonra belə qərara gəldilər ki, bu yoldan kim birinci keçsə, onu aramızda hakim təyin edək. Birinci gələn adam həmin vaxtlar hələ gənc olan Hz.Muhəmməd (s) oldu. Peyğəmbərimizin (s)*

*əxlaqından və həyatından bəhs edən mötəbər mənbələrə görə, onda onun 35 yaşı vardı. Onu hakim təyin etdilər. O da "Bir parça gətirin" dedi. Parça gətirildi. "İndi daşı birlikdə ora qoyun". Daş parçanın üzərinə qoyulanda "İndi hər qəbilənin böyüyü gəlsin və hərə parçanın bir tərəfindən tutsun", - dedi. Bundan sonra hər qəbilədən bir nəfər gəlib parçanın uclarından tutdular. Daşı bu şəkildə də yerinə qoydular. O da yuxarı çıxıb onlardan aldığı daşı yerinə yerləşdirdi. Böyüdükcə hər kəsin sevgisini və hörmətini qazandı. Dürüstlüyü ilə də tanındığı üçün ona "əl-Əmin = çox etibarlı şəxs" adını qoydular. Bunlar hələ ona vəhy gəlməmişdən əvvəl idi".*[19]

Peyğəmbərimiz (s) həyatı boyunca insanlara yolgöstərən olmuş, səhabələri maarifləndirmiş, müşriklərlə də davamlı danışaraq onları düz yola istiqamətləndirmək üçün çalışmışdır. Səhra şəraitində yaşayan cahil insanlar Peyğəmbərimizin (s) təlimi nəticəsində imanın nuru ilə parlayan, gözəl əxlaqlı insanlara çevrilmişdilər. Bu, böyük bir möcüzədir. Peyğəmbərimizin (s) yüksək əxlaqı ilə yanaşı, həyatında da bu cür bir çox möcüzəvi xüsusiyyətlər öz əksini tapmışdır. Bu möcüzələrə həm səhabələr, həm də iman gətirməyənlər arasından bir çox insanlar şahid olub. Peyğəmbərimizin (s) biri digərindən əhəmiyyətli olan möcüzələri vicdan sahibi olan bütün insanlar üçün haqq dəlil xüsusiyyətindədir, iman və hidayət vəsiləsidir.

23 il aktiv mübarizə aparmasına, çətin müharibələrdə iştirakına, qarşısında küfrün ən azğın, qəddar insanlarının durmasına və həmişə ön cərgələrdə mücadiləsinə baxmayaraq onun xətasız ötüşməsi və öldürülə bilməməsi də Peyğəmbərimizin (s) möcüzələrindəndir. Çox igid bir insan olan Peyğəmbərimizin (s) fövqəladə qətiyyəti də onunla birlikdə olan hər bir müsəlmanın şövqünü artırmışdır. Düşmənlərinin ürəklərinə Allahın qorxu salması və hər məsələdə onu iman gətirməyənlərə qarşı qalib etməsi də Peyğəmbərimizin (s) möcüzələrindəndir. Allahın döyüşlərdə mələkləri və görünməz orduları ilə ona köməkliyi nəticəsində Hz.Muhəmməd (s) onun ordusundan sayca daha çox və güclü olan düşmən ordularını darmadağın etmişdir. Bu möcüzəvi məsələ ayələrdə belə xəbər verilir:

**"Bəli, əgər səbir edib qorxsanız, onlar qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan qoyulmuş mələklə sizə yardım edər. Allah bunu sizin üçün məhz müjdə və qəlbləriniz rahat olsun deyə etdi. Kömək ancaq yenilməz qüdrət, hikmət sahibi olan Allahdandır"** ***("Ali-İmran" surəsi, 125-126).***

Peyğəmbərimiz (s) İslam dinini ən mükəmməl tərzdə təbliğ etmiş və bu məsələdə çox qətiyyətli olmuşdur. Böyük əziyyətlərə məruz qalmasına, din əxlaqını yaymaqdan əl çəkməsinin əvəzində ona çox gözəl imkanlar təklif edilməsinə baxmayaraq, bütün təklifləri rədd etmişdir. Allahın razılığını, İslamın və müsəlmanların mənfəətini həmişə qətiyyətlə üstün tutmuşdur. Ən çətin anlarda da Allahın köməyinə nail olacağına ümid etmiş, Allahın onu və möminləri həmişə qalib edəcəyinə inanmışdır. Hər zaman Allahın himayəsində olub, iman gətirməyənlərin azğınlıqlarına və təcavüzkarlığına baxmayaraq heç bir ziyana məruz qalmadan yaşamışdır. Allah Peyğəmbərimiz Hz.Muhəmmədin (s) fəzilətlərini Quranda insanlara belə bildirir:

**"Həqiqətən, səni tükənmək bilməyən mükafat gözləyir! Doğrudan da sən böyük bir əxlaq üzərindəsən!"** ***("Qələm" surəsi, 3-4).***

**"Bu Quran çox möhtərəm olan bir elçinin Allahdan gətirdiyi kəlamdır. Bu elçi çox qüvvətlidir; ərşin sahibi yanında çox hörmətlidir. İtaət ediləndir, həm də etibarlı müvəkkildir. Həqiqətən, sizin dostunuz divanə deyildir! And olsun ki, (peyğəmbər) onu açıq ən uca üfüqdə görmüşdü. O, qeyb xəbərləri barəsində xəsis deyildir"** ***("Təkvir" surəsi, 19-24).***

Böyük İslam alimi İmam Qəzzali Peyğəmbərimizin (s) yüksək əxlaqını Tirmizi, Təbərani, Buxari, Müslim, İmam Əhməd, Əbu Davud, İbni Macə kimi böyük hədis alimlərindən topladığı məlumatlarla belə təsvir etmişdir:

*"Rəsulullah insanların ən mülayim əxlaqlısı, ən igidi, ən ədalətlisi və namuslu olanı idi. O, insanların ən comərdi idi. Allahın ona verdiklərindən xurma, arpa, nə olursa-olsun yalnız illik ruzisini ayırırdı, yerdə qalanını isə Allah yolunda xərcləyərdi. Ondan bir şey istəyəndə verərdi.*

*O, həya baxımından da insanların ən mükəmməli idi. Rəbbi üçün hirslənər, özü üçün əsəbiləşməzdi. Özü və ya səhabələri bundan  zərər görsə də yalnız haqqı tətbiq edərdi.*

*Allah Rəsulu insanların ən təvazökarı, ən aydın, natiq, səlis və rəvan danışanı, ən gülərüzlüsü idi. Dünya işlərindən heç bir şey onu təşvişə salmazdı.*

*Mədinənin  o biri tərəfində də olsa, xəstələrə baş çəkər, gözəl ətirdən xoşu gələrdi. Kasıblarla oturub-durar, yoxsullarla yemək yeyərdi. Hamı ilə nəzakətlə danışardı. Ondan üzr istəyənin üzrünü qəbul edərdi. Yeri gələndə zarafat edər, amma haqqı danışardı.*

*Halal oyunları görəndə onları qadağan etməzdi, hətta həyat yoldaşları ilə yarışardı. İmkansızlara yoxsul olduqları üçün xor baxmaz, imkanlılara da varlı olduqları üçün hörmət etməzdi, onu da, bunu da bərabər tutardı. Uca Allah onda üstün əxlaqı və mükəmməl siyasəti birləşdirmişdi...*

*Allah-Təala əxlaqın bütün gözəlliklərini, yaxşı yolları, əvvəlkilərin və sonrakıların başlarına gəlmiş və gələcək hadisələrin xəbərlərini, axirətdə qurtuluşa və səadətə çatdıracaq məsələləri, dünyada qibtə edilib ardınca gediləcək və gedilməyəcək hər şeyi ona öyrətmişdi.*

*Allah-Təala bizləri Onun buyruqlarına itaətdə və hərəkətlərində onun yolu ilə getməyə müvəffəq etsin".*[20]

# Peyğəmbərimizin (s) ümmi olmasındakı möcüzələr

Peyğəmbərimiz Hz.Muhəmməd (s) Tövratda və İncildə də gələcəyi bildirilən ümmi peyğəmbərdir. Allah Peyğəmbərimizə (s) Quranı vəhy edəndə o, oxumağı və yazmağı bilmirdi, yəni ümmi idi. Hz.Muhəmmədin (s) bu xüsusiyyəti onun peyğəmbərliyinin ən mühüm dəlillərindən biridir.

İman gətirməyənlər Peyğəmbərimizin (s) ümmiliyini bildikləri halda ona göndərilən Quranı qəbul etməmiş və haqq kitabı onun yazdığını söyləyərək böhtan atmışdılar. Halbuki iman gətirməyənlər Peyğəmbərimizi (s) ona elçilik vəzifəsi verilməmişdən əvvəl də tanıyır və onun belə bir elmə malik olmadığını çox yaxşı bilirdilər. Həmçinin Allah: **"Sənə də beləcə əmrimizdən olan bir vəhy göndərdik. Sən kitab nədir, iman nədir bilməzdin. Lakin Biz onu bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik. Sən düz yola yönəldirsən"** ***("Şura" surəsi, 52)*** ayəsi ilə bu həqiqəti xəbər vermişdir. Başqa bir ayədə isə belə buyurulur:

> **"...Allah sənə Kitabı və hikməti nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür!"** ***("Nisa" surəsi, 113).***

Peyğəmbərimiz (s) Quran ayələrini insanlara **"Allahdan aldığı vəhylə"** bildirmişdir. O, təbliğlərində bu həqiqəti dilə gətirmiş və onlara peyğəmbərlikdən əvvəlki həyatına illərlə şahidlik etdiklərini xatırlatmışdır:

> **"De: "Əgər Allah istəsəydi, mən onu sizə oxumazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan qabaq sizin aranızda ömür sürmüşəm. Məgər dərk etmirsinizmi?""** ***("Yunus" surəsi, 16).***

Peyğəmbərimizin (s) ümmi olmasına baxmayaraq o, dini ən mükəmməl şəkildə təbliğ etmiş, Tövratın və İncilin elminə də vaqif olmuşdur. Uca Allahın Quranı vəhy etməsi ilə digər müqəddəs kitablardan və keçmiş xalqların vəziyyətlərindən də xəbər vermişdir.

Peyğəmbərimizin (s) həyatı boyunca xeyli möcüzəvi hadisələr olmuşdur. İmam Qəzzali onun ümmi olması ilə bağlı möcüzəvi dəlillərdən belə bəhs etmişdir:

*"Məktəb və mədrəsə təhsili almadığı, hər hansı bir elmə yiyələnmədiyi və elmlə heç bir əlaqəsinin olmadığı, kitab mütaliə etmədiyi, elm əldə etmək üçün heç bir səyahətə çıxmadığı, yetim, zəif sayıldığı və cahil ərəblərin arasında olduğu halda Uca Allah bütün bunları ona bəxş etdi. Onun vəziyyəti belə olarkən, onun üçün əxlaqların ən*

*gözəlləri, ədəblərin ən ucaları, məsələn, (əgər peyğəmbər olmasa...) təkcə fiqh elmi (İslam hüququ) ona necə verildi? Bəli, -başqa elmlər istisna olmaqla- təkcə fiqh elminin faydalarının bilinməsi mədrəsəsiz və məktəbsiz, elmlə məşğul olmadan və alimlərlə görüşmədən əldə edilə bilməz. Əgər ilahi bir yardım olmasa, bu, haradan gəlir?*

*Həmçinin Allahla bağlı məlumatları, Allahın mələkləri haqqındakı bilgiləri, kitabları və peyğəmbərliyin digər xüsusiyyətləri haqqında xəbərlər əgər vəhy olmasa, haradan öyrənə bilər? Bəşərin (insanın) qüdrəti bunları özbaşına necə əldə edə bilər? Hz.Muhəmmədin (s) əlamət və möcüzələrinin elələri meydana gəlib ki, heç bir alim həmin meydana gələn möcüzənin möcüzəliyinə şəkk-şübhə etməz".*[21]

Peyğəmbərimizin (s) ümmi olması onun peyğəmbərliyinin ən böyük dəlillərindəndir. Kitab əhlinin qəti olaraq bildiyi kimi, Tövratda və İncildə gələcəyi vəd edilən elçi oxumağı və yazmağı bilmirdi. Ancaq iman gətirməyənlər Peyğəmbərimizin (s) Quranı özünün yazdığı yalanını iddia edirdilər. Halbuki əsl yalan danışanın iman gətirməyənlər və müşriklər olduğu məlum məsələdir. Düz danışmayan bir adamın sözlərində əlbəttə ki, bir ziddiyyət olacaqdır. Bir-birinə uyğun gəlməyən tarixlər və izah formaları, danışığında əlbəttə ki, ortaya çıxacaqdı. Peyğəmbərimiz (s) isə yaşadığı cəmiyyətdə ən dürüst, ən gözəl danışan, ən hikmətli sözə malik olan, ən mədəni, ən mötədil, ən mülayim və ən bilikli insan idi. O, ağlı və fərasəti ilə hər insanın heyranlığını və etibarını qazanacaq qədər üstün bir insandır.

Peyğəmbərimiz (s) Tövratı və İncili oxumadığı halda, bu kitablardakı hökmləri, orada haqqında bəhs edilənləri bilirdi. Keçmiş xalqların tarixinə də vaqif idi. Əlbəttə, bu, Allahın vəhyinin xaricində qətiyyən mümkün ola bilməyəcək bir vəziyyət idi. Onu tanıyanların hamısı bunu bilirdilər. Peyğəmbərimizin (s) əvvəllər heç bir məktəbdə təhsil almamasına baxmayaraq onun malik olduğu elm və biliklər bu böyük insanın möcüzəvi xüsusiyyətlərindən ancaq biridir. Allah "Ənkəbut" surəsində belə buyurur:

**"Sən bundan əvvəl nə bir kitab oxumusan, nə də onu əlinlə yazmısan. Əgər belə olsaydı, onda batilə uyanlar şəkk-şübhəyə düşərdilər"** ***("Ənkəbut" surəsi, 48).***

Məşhur təfsirlərdən biri olan "Cəlaleyn" təfsirində bu ayə belə izah edilmişdir:

*"Sən bundan, yəni Qurandan əvvəl kitab oxuyan deyildin. Onu əlinlə də yazmadın. Belə olsaydı, yəni oxumağı-yazmağı bacarsaydın, batili müdafiə edənlər sənin haqqında şübhəyə düşər və zənnə qapılardılar. Və "Tövratda haqqında bizə bəhs edilən Peyğəmbər ümmi olmalıdır, oxumağı-yazmağı da bilməməlidir" deyərdilər".*[22]

Ancaq hər şey bu qədər açıq olduğu halda iman gətirməyənlər Peyğəmbərimizə (s) hücum etmək üçün ona hər cür böhtanlar atmışdılar. Peyğəmbərimizin (s) onlar kimi bir bəşər olduğunu iddia edərək onu düz danışmamaqda günahlandırmışdılar:

**"Qəlbləri qəflət içində olaraq ona qulaq asmasınlar. Zalımlar öz aralarında gizli pıçıldadılar: "Bu, sizin kimi ancaq adi bir insandır. Gözünüz görə-görə sehrəmi uyursunuz?" - dedilər. Belə dedi: "Rəbbim göydə və yerdə hər sözü bilir. O, eşidəndir, biləndir!" Onlar belə dedilər: "Xeyr, bunlar qarmaqarışıq yuxulardır; xeyr, onu özü uydurmuşdur; xeyr, o, bir şairdir..."“** ***("Ənbiya" surəsi, 3-5).***

Peyğəmbərimiz (s) Allahdan kömək diləyən, Ondan hidayət tələb edən, Ondan bağışlanmağını istəyən, Onun əmrini yerinə yetirən bir insandır. Həmçinin özü də bu həqiqəti təbliğlərində açıq-aşkar qeyd etmişdir. Allah Quranda belə buyurur:

**"Onlara ayələrimiz açıq-aydın oxunduğu zaman Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər: "Bundan ayrı bir Quran gətir və ya onu dəyişdir!" - deyərlər. Onlara de: "Mən onu özbaşına dəyişə bilmərəm. Mən ancaq mənə gələn vəhyə tabe oluram. Əgər Rəbbimə asi olsam, böyük günün əzabından qorxuram"“** ***("Yunus" surəsi, 15).***

“Sirət” ensiklopediyasında Allahın Hz.Muhəmmədə (s) verdiyi böyük elmin onun elçiliyinə necə dəlil olmasından belə bəhs edilir:

*“Hz.Muhəmməd (s) ümmi bir peyğəmbər idi. Oxumağı və yazmağı bacarmırdı. Aralarında doğulub böyüdüyü ailə üzvləri, yaxınları və məkkəlilər bütün həyatı boyunca nə bir kitaba əl uzatdığını, nə də əlinə qələm götürdüyünü görmüşdülər. Məsələ bu cür olduğu halda ona vəhy edilən Quran özlüyündə ayrı bir möcüzədir. Çünki bu kitabda keçmişdəki bütün ilahi kitabların əsas mövzuları, keçmiş peyğəmbərlərin hekayətləri, dinlər və bunların gətirdiyi inanclar, qədim tarix, mədəniyyət və kültür, iqtisadiyyat, siyasət və əxlaq məsələlərində bilik xəzinələri vardı. Halbuki Hz.Muhəmməd (s) bunlardan tamamilə xəbərsiz idi. Onun ümmi olmasına baxmayaraq belə bir Kitabla iman gətirməyənlərin qarşısına çıxması peyğəmbərliyinin ən böyük dəlili idi...”*[23]

# Yəhudi alimlərinin Peyğəmbərimizi (s) tanımaları

Quranda kitab əhli kimi təqdim edilən yəhudilər və xristianlar təhrif edilərək dəyişdirilmiş bəzi inanclara və əməllərə malik olmaqla yanaşı, Allah dərgahından göndərilən haqq dinə tabe olan insanlardır. Allah Quranın başqa ilahi kitabları təsdiq edən axırıncı haqq kitab kimi göndərildiyini bildirmişdir:

**“Sizin əlinizdəkini (Tövratı) təsdiqləyici kimi göndərdiyimə iman gətirin! Onu inkar edənlərin əvvəlincisi siz olmayın! Mənim ayələrimi ucuz qiymətə satmayın və ancaq Məndən qorxun!”** ***(“Bəqərə” surəsi, 41).***

Quranın başqa ayələrində isə İsrail oğullarından bəzi məlumatlı və elmli insanların Quranı bildikləri xəbər verilmişdir:

**“Həqiqətən, o Quran əvvəlkilərin kitablarında da mövcuddur. Məgər İsrail övladı alimlərinin bunu bilmələri onlar üçün bir dəlil deyilmi?”** ***(“Şuəra” surəsi, 196-197).***

Məşhur təfsirçi alimlərdən İmam Səid Həvva “əl-Əsas fit-Təfsiri”ndə “Şuəra” surəsinin bu ayələrini belə izah etmişdir:

*"Həqiqətən, o Qurani-Kərim əvvəlkilərin kitablarında mövcuddur". Yəni əvvəlki kitablarda ondan bəhs edilir və ya onun özündə ehtiva etdiyi mənalar əvvəlki xalqların peyğəmbərlərindən nəql etdiklərində və Uca Allahın əsas kitablarında da vardır. İlahi kitablarda olduğu kimi... Yaxud Uca Allahın mənalarını vəhy şəklində bildirib ilahi bir kitab kimi deyil, Allahdan gələn bir vəhy olaraq yazılan kitablarda da bu mənalara yer verilir.*

*...İsrail oğullarının insaflı və ədalətli alimləri bu Qurani-Kərimin içində Tövratın, Zəburun və İncilin yer aldığını, orada olan hər bir məsələnin Allahdan gələn bir haqq olduğunu, əvvəlki kitabların müjdələdiyi kitabın və son peyğəmbərin olduğunu bilirlər”.*[24]

Tövratda gələcəyi bildirilən ümmi peyğəmbərin xüsusiyyətlərini bilən yəhudi alimləri və onlarla yanaşı, xristianlar arasında bu açıq həqiqəti qəbul etməmək məsələsində israr edənlər nə qədər olsa da- Hz.Muhəmmədi (s) dərhal tanımışdılar. Quranda da kitab əhlinin Peyğəmbərimizi (s) uşaqlarını tanıdıqları kimi tanıyacaqları, aralarından bəzilərinin buna baxmayaraq inkar edəcəkləri və ona inanmayanların rəzil-rüsvay olacaqları bildirilir:

**“Kitab verdiyimiz şəxslər onu (Muhəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Buna baxmayaraq onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir”** ***(“Bəqərə” surəsi, 146).***

**“Kitab verilmiş şəxslər onu (Muhəmməd peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Özlərinə zərər edənlər, əlbəttə, iman gətirməzlər!”** ***(“Ənam” surəsi, 20).***

Allah “Bəqərə” surəsində İsrail oğullarına xəbərdarlıq edərək, onlara Qurana iman gətirmələrini, haqq olanı bildikləri halda bu həqiqəti gizlətməmələrini əmr etmişdir:

**“Ey İsrail oğulları! Sizə bəxş etdiyim nemətimi xatırlayın, buyurduğumu yerinə yetirin ki, Mən də sizinlə olan əhdə vəfa edim. Yalnız Məndən qorxun!**

**Sizin əlinizdəkini (Tövratı) təsdiqləyici kimi göndərdiyimə (Qurana) iman gətirin! Onu inkar edənlərin əvvəlincisi siz olmayın! Mənim ayələrimi ucuz qiymətə satmayın və ancaq Məndən qorxun! Siz bilə-bilə haqqa yalan donu geyindirib onu gizlətməyin!” *(“Bəqərə” surəsi, 40-42).***

İsrail oğullarına verilən nemətlərdən və onların Allaha verdikləri əhdlərdən ümmi olan Peyğəmbərimizin (s) xəbərinin olması şübhəsiz ki, Rəbbimizin ona bunları bildirməsi ilə mümkündür. Hz.Muhəmməd (s) bu ayələri onlara oxuyanda yəhudi alimləri də Peyğəmbərimizin (s) gələcəyi gözlənən müqəddəs elçi olduğunu görmüşdülər. Peyğəmbərimizin (s) Allahın peyğəmbəri olduğuna və düz danışdığına kitab əhli olanlar da şahid olmuşdular. O, hər xüsusiyyəti ilə, yaşantısı və əxlaqı ilə Allahın Tövrat və İncildə də gələcəyini xəbər verdiyi müqəddəs elçisidir. Qurani-Kərimin bir ayəsində belə buyurulur:

**“O kəslər ki, əllərindəki Tövratda və İncildə yazılmış gördükləri rəsula - ümmi peyğəmbərə tabe olurlar. O, onlara yaxşı işlər görməyi buyurar, pis işləri qadağan edər, təmiz nemətləri halal, murdar şeyləri haram edər, onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar. Ona iman gətirən, yardım göstərən və onunla endirilmiş nurun ardınca gedənlər - məhz onlar nicat tapanlardır!"“ *(“Əraf” surəsi, 157).***

Məşhur İslam alimlərindən biri olan Ömər Nasuhi Bilmən bu ayəni belə təfsir etmişdir:

*“Bu ayə dünyada və axirətdə də gözəlliklərə, savablara nail olacaq insanların ən gözəl xüsusiyyətlərə malik peyğəmbərlərin sonuncusu olan Peyğəmbərimizə tabe olan şəxslərdən ibarət olduğunu belə bildirir: “O kəslər ki, ilahi vəhylə kitab verilən, oxumağı-yazmağı bacarmadığı halda özündən əvvəlkilərin və sonra gələcəklərin elminə bələd olan Hz.Muhəmmədin (s) ümmətindən olmaq şərəfini əldə edirlər. Həmin peyğəmbəri yanlarında mövcud olan Tövratda və İncildə adları, xüsusiyyətləri ilə yazıldığını görürlər. Onun kitablarda yazılan şəxs olduğuna qətiyyən şübhə ilə yanaşmazlar. Əgər həmin kitablarda bunlar yazılmasaydı, Həzrəti Muhəmməd (s) bunu iddia edərək onun təkzib edilməsinə imkan verərdimi? O, elə bir Peyğəmbərdir (s) ki, imana dəvət etdiyi tayfalara, bütün bəşərə Allahın əmrlərinə hörmət edilməsini, gözəl etiqad və əxlaqa yiyələnməyi, məxluqata şəfqət göstərilməsini əmr və tövsiyə edərək onları mənfiliklərdən çəkindirir”.*[25]

Göründüyü kimi, Peyğəmbərimizin (s) gələcəyinin və xüsusiyyətlərinin kitab əhli olanların kitablarında bildirilməsi də aləmlərə üstün olan mübarək bir şəxsin başqa möcüzələridir. Gördüklərini vicdanları ilə dəyərləndirən vicdanlı, iman sahibi olan kitab əhli isə bu açıq həqiqəti təsdiq etmişdir.

# PEYĞƏMBƏRİMİZİN (S.A.V.) HƏYATINDAKI BƏZİ MÖCÜZƏLƏR

Peyğəmbərimiz Hz.Muhəmmədin (s) həyatında çox böyük möcüzələr vardır. Kitabın əvvəlki hissəsində də üzərində dayandığımız kimi, Quran bu möcüzələrin ən böyüyüdür. Peyğəmbərimizin (s) üstün əxlaqı, davranışları və sünnəsi də hər biri ayrılıqda bir möcüzədir. Onun insanlara bir hidayət rəhbəri olaraq təbliğ etdiyi Quran ayələri mədəniyyətdən uzaq olan bədəviləri ən yüksək mədəni səviyyəyə çıxarmışdır. Bu da Allahın möcüzələrindəndir. Peyğəmbərimiz (s) İslam əxlaqını ən hikmətli şəkildə təbliğ edərək övladlarını diri-diri basdıran bir tayfanın Allahın köməyi ilə hər kəsə qarşı mərhəmətli və şəfqətli olan insanlara çevrilməsinə, öz əlləri ilə düzəltdikləri bütlərə ibadət edən bir tayfanın tövhid inamına qovuşmasına vəsilə olmuşdur.

Müqəddəs Peyğəmbərimizin (s) Quran ayələrində və hədislərdə xəbər verilən bir çox möcüzəsi var. Bu möcüzələrdən bəziləri bunlardır:

## Merac möcüzəsi

Ərəb dilində "yuxarı çıxmaq, yüksəlmək" mənasını verən merac Peyğəmbərimizin (s) böyük möcüzələrindən biridir. Qurani-Kərimin "İsra" və "Nəcm" surələrində Peyğəmbərimizin (s) möcüzəvi şəkildə Məscidül əqsaya etdiyi gecə səyahəti və "Sidrətul müntəha"ya* yüksəlişi barədə xəbər verilmişdir.

"İsra" sözünün ərəb dilindəki lüğəti mənası "gecə səyahəti və ya gecə yürüşü"dür. Uca Allah Sevimli Peyğəmbərimizin (s) möcüzəvi səyahətini "İsra" surəsinin ilk ayəsində belə bildirmişdir:

> **"Bəzi ayələrimizi göstərmək üçün bəndəsini bir gecə Məscidül həramdan ətrafını mübarək etdiyimiz Məscidül əqsaya aparan Allah pak və müqəddəsdir. O, doğrudan da eşidəndir, görəndir!"** ***("İsra" surəsi, 1).***

"Əqsa" sözünün ərəb dilindəki mənası "uzaq, ən uzaq"dır. Məlum olduğu kimi, Məscidül-həram Məkkədə, Məscidül-əqsa isə Qüdsdədir. Bu iki yer arasındakı məsafə isə təxminən 1235 km.-dir. Sözügedən möcüzə baş verəndə Peyğəmbərimiz (s) Məkkədə idi. Allah Rəsulu (s) bu möcüzə ilə Məkkədən Qüdsdəki Məscidül-əqsaya aparılıb. Böyük İslam alimi İbni Kəsir merac hadisəsi ilə bağlı səhabələrdən ən azı iyirmi beş nəfərin Peyğəmbərimizdən (s) rəvayət etdiyini, bu sayının hətta 45-ə qədər çıxa biləcəyini ifadə etmişdir. Bunlardan ən etibarlı sayılanları Ənəs ibn Malik, Əbu Hureyrə, Əbu Səid əl-Xudri, Malik ibn Sasaa, Əbu Zərr əl-Ğifari, Şəddad ibn Əvs, Abdullah ibn Abbas, Abdullah ibn Məsud və Ümmü Haninin rəvayətləridir.[26] Hədislərdə verilən məlumatlara görə, Peyğəmbərimiz (s) əmisi qızı Ümmühan ibn Əbu Talibin evində yatarkən Cəbrail Peyğəmbərimizə (s) görünüb və onu "Buraq" adlı miniyə mindirərək Məscidül-əqsaya aparıb. Merac hadisəsi də burada baş verib. Hədislərdə Peyğəmbərimizin (s) merac əsnasında başqa peyğəmbərlərlə görüşdüyü, cənnəti və cəhənnəmi gördüyü rəvayət edilir və bir çox müfəssəl məlumatlar verilir.

İslam mənbələrində mövcud olan məlumatlara görə, merac möcüzəsi müşriklər və iman gətirməyənlər tərəfindən -*ağıllarının azlığına görə*- şübhə ilə qarşılanıb. İman gətirməyənlər Peyğəmbərimizin (s) düz danışdığına inanmayıb ona qarşı çıxdıqları üçün bu hadisənin düz olub-olmadığını araşdırmışdılar. Rəbbimiz inkarçıları və müşrikləri bu çirkin

davranışlarına görə bir daha pis vəziyyətə salıb və lağ etdikləri şey öz əleyhlərinə çevrilib. Bu hadisə hədisdə belə bildirilmişdir:

Onlar Peyğəmbərimizdən (s): *"Bizə Məscidül-əqsanın necə olduğunu danışa bilərsinizmi?"* Çünki onlardan bəziləri həmin bölgəyə gedib Məscidül-əqsanı görmüşdü.

Rəsulullah (s) danışır:

*"Məscid haqqında danışmağa başladım. Bəzi yerlərini qeyd edərkən şübhələndim. Bundan sonra Məscidül-əqsa gətirilərək Aqab ya da Ukeylin evinin qarşısına qoyuldu. Mən də ona baxaraq danışmağa başladım".*

Rəsulullahın (s) sözlərindən sonra oradakılar belə dedilər:

*"Allaha and olsun ki, Məscid haqqında düz danışdı".*[27]

Müslimdəki bir hədisdə isə Rəsulullah (s) belə buyurmuşdur: *"Özümü Kəbənin şimal tərəfində (Hicrdə) gördüm. Qureyşlilər səyahətim haqqında soruşurdular. Beytul-Maqdis (Məscidül-əqsa) haqqında yadımda qalmayan bəzi məqamları soruşdular... Bundan sonra Allah-Təala Məscidül-əqsanı mənim üçün qaldırdı (gözümün qarşısına gətirdi). Məndən soruşulanlara ona baxaraq cavab verirdim".*[28]

Məscidül-əqsanın olduğu bölgəyə əvvəlki həyatı boyunca heç vaxt getməyən Hz.Muhəmmədin (s) müşriklərin suallarına səhvsiz cavab verməsi Rəbbimizin böyük bir möcüzəsi və mərhəmətidir.

Bu möcüzə ilə iman gətirənlərin şövqü, həyəcanları və Peyğəmbərimizə (s) olan bağlılıqları daha da güclənmiş, iman gətirməyənlər və müşriklər isə öz inkarçılıqlarında ağılsız şəkildə İsrar etmişlər.

Hədis mənbələrində bildirilir ki, müşriklər Hz.Əbu Bəkirin yanına gələrək -merac hadisəsinə görə- Hz.Muhəmməd (s) haqqında əsassız böhtanlar uydururlar. Hz.Əbu Bəkir merac möcüzəsinə inanmayaraq hələ də Peyğəmbərimizə (s.ə.v) inanıb-inanmadığını soruşan müşriklərə: *"O deyirsə, əlbəttə ki, düzdür"* cavabını vermişdir. Bu hadisə qarşısındakı gözəl və sadiq davranışına görə Hz.Əbu Bəkir Peyğəmbərimiz (s) tərəfindən "Sıddıq" ləqəbi ilə şərəfləndirilmişdi. Hədislərdə müşriklərin Peyğəmbərimizdən (s) dəlil tələb etmələrindən sonra sevimli Peyğəmbərimizin (s) müşriklərə onlara inkar etmələri mümkün olmayan daha bir möcüzəvi dəlil təqdim etməsi belə bildirilmişdir:

Peyğəmbərimizə (s) dedilər ki, *"Dediyinin dəlili nədir?"*

Hz.Peyğəmbər (s) dedi ki, *"Qureyşlilərin bir karvanına rast gəldim. O, filan yerdə idi. Karvan bizdən hürkdü və istiqamətini dəyişdirdi. Karvandakı dəvələrdən birinin üzərində qara və ağ çuval vardı, dəvə böyürüb yıxıldı".*

*Karvan gəlib çatanda nə baş verdiyini soruşdular. Onlar da Hz.Peyğəmbərin (s) danışdığı kimi xəbər verdilər.*[29]

Göründüyü kimi, Peyğəmbərimiz (s) həm heç vaxt görmədiyi Məscidül-əqsanı ətraflı şəkildə təsvir edərək, həm də yoldakı karvanların vəziyyətini xəbər verərək Rəbbimizin rəhməti olan böyük möcüzələr göstərmişdir.

Merac hadisəsi ilə bağlı Quranda verilən məlumatlardan biri də Peyğəmbərimizin (s) Sidrətül-müntəhaya yüksəldilməsidir. "Nəcm" surəsində bu möcüzə belə bildirilir:

**"And olsun ki, başqa bir dəfə də görmüşdü; Sidrətül-müntəhanın yanında. Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə yayındı, nə də uzağa getdi. And olsun ki, o, öz Rəbbinin ən böyük qüdrət nişanələrindən bir qismini gördü"** ***("Nəcm" surəsi, 13-18).***

Merac hadisəsi Uca Allahın sevimli Peyğəmbərimiz Hz.Muhəmmədə (s) nəsib etdiyi çox böyük bir möcüzəsidir. Rəbbimizin Peyğəmbərimizə (s) iman gətirməyənlər qarşısında verdiyi üstün bir dəlilidir. Rəbbimizin Peyğəmbərimiz Hz.Muhəmmədə (s) göstərdiyi möcüzələrin hər biri yalnız Allahın istəyilə, Allahın istədiyi şəkildə və vaxtda, hansısa

səbəblərə bağlı olmadan yaradılmışdır. Bu möcüzələrin hər biri iman gətirənlərin imanını daha da gücləndirən çox böyük müjdələrdir.

# Peyğəmbərimizin (s) Ayı iki yerə bölməsi

Peyğəmbərimizin (s) möcüzələrindən biri də Ayın yarılması hadisəsidir. Allah bu möcüzəvi hadisəni Quranda bildirmiş və bu böyük möcüzə ilə bağlı çoxlu sayda hədislərdə qeyd edilmişdir. "Qəmər" surəsində belə bildirilir:

> **"Saat (qiyamət saatı) yaxınlaşdı və Ay parçalandı. Əgər müşriklər bir möcüzə görsələr, üz döndərib: "Bu, uzun müddət davam edən bir sehrdir!" - deyərlər. Onlar təkzib etdilər və öz nəfslərinin istəklərinə uydular. Halbuki hər bir iş qərarlaşdırılmışdır!"** ***("Qəmər" surəsi, 1-3).***

Ayədə qeyd edilən "inşiqaqı-qəmər" ifadəsi "inşiqaq" və "qəmər" sözlərindən meydana gələn bir ifadədir. "İnşiqaq"ın törətdiyi feilin ərəb dilindəki kökü "yarmaq, dişin əti, bitkinin torpağı yarıb çıxması" kimi mənaları verir. "İnşiqaq" sözü isə "yarılmaq, parçalanmaq, bölünmək" mənalarına gəlir. "Sirət" ensiklopediyasında Ayın yarılması möcüzəsi ilə bağlı bütün hədislərdən çıxarılan bu qısa xülasə belə izah edilmişdir:

> *"Mədinəyə hicrətdən beş il əvvəl, hicri təqvimindəki ayın 14-cü günü bir axşam vaxtı idi. Və həmin vaxt yeni çıxan Ay birdən-birə iki yerə bölündü. Bir hissəsi qarşıdakı təpənin bir tərəfinə, ikinci hissəsi də digər tərəfinə düşdü. Bu, bir saniyəlik hadisə idi. Sonra Ayın hər iki tərəfi birləşdi. Hz.Peyğəmbər (s) həmin əsnada Minada idi. Hz.Peyğəmbər (s) orada olanlara səslənərək "Baxın və şahid olun!" dedi. Kafirlər Hz.Muhəmmədin (s) onları sehrlədiyini iddia etdilər və buna görə də gözlərinin yaxşı görmədiyini söylədilər. Orada olanlar: "Muhəmməd (s) bizi sehrləyə bilər, amma burada olmayanları yox. Bir az da gözləyin, bu tərəfə gələnlərdən soruşaq. Görək, onlar bu hadisəni görüblərmi?" Uzaqdan gələnlər də bu hadisəyə şahid olduqlarını təsdiq etdilər".*[30]

Ayın yarılması möcüzəsi başda Buxari və Müslim olmaqla, Tirmizi, Əhməd ibn Hənbəl, Əbu Davud ət-Təyalisi, Hakim ən-Nisaburi, Beyhaqi, Əbu Nuaym əl-Isfahani və Qazi Iyaz kimi böyük hədis alimlərinin əsərlərində də qeyd edilmişdir.[31] Bu hədislərdən bəziləri belədir:

> *...Abdullah ibn Məsud (r.a.) belə buyurmuşdur: "Biz Minada Peyğəmbərlə (s) birlikdə olarkən Ay iki yerə bölündü. Peyğəmbər (s): "Şahid olun!" buyurdu. Və Aydan bir hissə Hira dağı tərəfə endi".*
>
> *Əbud Duha Müslim ibn Subayh da Məsruqa, o da Abdullah ibn Məsuda istinadən: "Ay Məkkədə iki yerə bölündü" deyə söyləmişdir...*
>
> *Abdullah ibn Abbasdan (r.a.): "Rəsulullahın (s) zamanında Ay iki yerə bölündü" - deyərək hadisəni danışmışdır.*
>
> *...İbrahim ən-Nəhai Əbu Mamərdə nəql edib ki, Abdullah ibn Məsud (r.a.) "Ay iki yerə ayrıldı" demişdir.*[32]

Buxari və Müslim İbni Məsuda istinadən (r.a.) belə nəql etmişlər:

> *"Rəsulullahın (s) dövründə Məkkədə Ay iki yerə bölündü. Allah Rəsulu belə buyurdu: "Baxın və şahid olun!"".*[33]

Ayın yarılması hadisəsinin Məkkədə baş verdiyi hədislərdə açıq şəkildə bildirilmişdir. Bundan başqa, məkkəlilərin bu möcüzənin baş verməsini Peyğəmbərimizdən (s) şəxsən istədikləri də hədislərdə göstərilmişdir:

Buxari və Müslim Ənəsdən (r.a.) bunu nəql ediblər: *"Dedi ki: "Məkkəlilər Allah Rəsulundan (s) bir möcüzə göstərməsini istədilər. Bundan sonra Ayın iki dəfə iki yerə bölündüyünü göstərdi"".*[34]

Verilən məlumatlara görə, Qureyşli müşriklərin istəyindən sonra Ayı iki yerə ayıran Hz.Muhəmmədə (s) inkarçılar yenə də iman etməmişdilər. "Qəmər" surəsinin 2-ci və 3-cü ayələrində bu həqiqətə belə diqqət çəkilir:

**“Əgər müşriklər bir möcüzə görsələr, üz döndərib: "Bu, uzun müddət davam edən bir sehrdir!" - deyərlər. Onlar təkzib etdilər və öz nəfslərinin istəklərinə uydular. Halbuki hər bir iş qərarlaşdırılmışdır!”** ***(“Qəmər” surəsi, 2-3).***

Ancaq belə böyük bir möcüzə qarşısında deməyə söz tapa bilməyən müşriklər bu dəfə də Peyğəmbərimizin (s) onları sehrlədiyini söyləyərək ona böhtan atmışdılar. Ayın iki yerə ayrıldığını öz gözləri ilə görəndən sonra onlar Peyğəmbərimizin (s) vicdanən haqq peyğəmbər olduğu qənaətinə gəlməkdənsə, təkəbbürləri, ehtiras və qürurları üzündən Allahın ayələrini qəbul etmədilər. Bu isə hansı möcüzəni görsələr də iman gətirməyənlərin və Quranın: **“...Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər”** ***(“Hicr” surəsi, 15)*** ayəsində bildirilən kafirlərin müştərək xüsusiyyətidir.

İslam alimləri də öz əsərlərində Ayın yarılması möcüzəsindən bəhs etmişlər. Alimlərdən biri əsərində bu hadisənin bir çox səhabədən də müfəssəl və ətraflı surətdə xəbər verildiyini və müşriklərin bu hadisə qarşısında nə qədər aciz duruma düşdüklərini belə bildirmişdir:

*“Rəsulullahın (s) mutəvatir (ən etibarlı) və ən böyük möcüzəsi Ayın yarılmasıdır. Bəli, Ayın iki yerə ayrılması möcüzəsi müxtəlif yollarla mutəvatir xəbər qismində İbni Məsud, İbni Abbas, İbni Ömər, İmam Əli, Ənəs, Huzeyfə kimi bir çox böyük səhabələrə istinadən dəfələrlə qeyd edilməklə yanaşı, Quranın şübhələnməyə yer qoymayan hökmü olan* ***“Saat (qiyamət saatı) yaxınlaşdı və Ay parçalandı”*** *ayəsi həmin böyük möcüzəni aləmə elan etmişdir. Həmin vaxt inadkar Qureyş müşrikləri bu ayənin verdiyi xəbəri inkar etməyiblər, bəlkə “sehrdir” deyiblər. Deməli, Ayın yarılması kafirlər tərəfindən də qəti qəbul olunmuşdur”.*[35]

Bəzi İslam alimləri Peyğəmbərimizin (s) möcüzələrinin bir hikmətinin də Əbu Cəhl kimi zalım bir insanla Əbu Bəkir kimi yüksək əxlaqlı bir insanın arasındakı fərqləri çox yaxşı şəkildə ortaya çıxarmaq olduğunu əsərində belə bildirmişdir:

*“Möcüzə peyğəmbərlik vəzifəsinin sübutudur və inkar edənləri razı salmaq üçündür, məcbur etmək üçün deyil. Elə isə peyğəmbərlik xəbərini eşidənlər üçün onları razı salacaq mahiyyətdə möcüzə göstərmək lazımdır. Başqa yerlərə göstərmək və ya məcbur etmək dərəcəsində meydana gətirmək, Allahın hikmətinə zidd olduğu kimi dünyaya gəlib vəzifə sahibi olmağın sirrinə də müxalifdir. Çünki “Ağıla qapı açmaq ixtiyarını əlindən almamaq” təklifinin sirrini zəruri edir.*

*Əgər oxşarı olmayan şeyi yaradan Hökm sahibi Ayın iki yerə ayrılmasını filosofların həvəslərinə görə bütün aləmə göstərmək üçün bir-iki saat eləcə buraxsaydı və bəşərin ümumi tarixinə keçsəydi, həmin vaxt göy üzündə meydana gələn hadisələr kimi ya peyğəmbərliyin sübutuna dəlil olmazdı və Hz.Muhəmmədin (s) peyğəmbərlik xüsusiyyəti qalmazdı, ya da o qədər açıq olacaqdı ki, insan ağlını məcbur edəcək, ağlın düşünmək qabiliyyətini əlindən alacaq, istəsə də, istəməsə də peyğəmbərliyi təsdiq edəcəkdi. Əbu Cəhl kimi kömür ruhlu, Əbu Bəkir Sıddıq kimi almaz ruhlu adamlar eyni səviyyədə qalacaq, imtahan sirri aradan qalxacaqdı...”*[36]

Kainatdakı bütün varlıqlar və cisimlər kimi Rəbbimizin qüdrətində olan Ay da bizə Allahın istədiyi şəkildə görünə bilər. Bir şeyin baş verməsi üçün Quranda bildirildiyi kimi Allahın “Ol!” deməsi kifayət edir. Ayədə belə buyurulur:

**“Bir şeyi yaratmaq istədiyi zaman Allahın buyruğu ona ancaq: "Ol!" - deməkdir. O da dərhal olar”** ***(“Yasin” surəsi, 82).***

Bütün bu bilgilər bir daha göstərir ki, Allah Öz müqəddəs elçisi olan Hz.Muhəmmədi (s) bütün insanlardan üstün edib, ona sonuncu haqq kitab olan Qurani-Kərimi vəhy edib, ona insanların ürəklərini yumşaldacaq və onların iman gətirməsinə vasitə olacaq möcüzələrlə böyük bir lütf və mərhəmət göstərib. Bəzi insanlar öz axirət həyatlarını xilas edəcək şəkildə imana qovuşub, bəziləri isə inkar etməkdə davam edərək sonsuz həyatlarında itkiyə və əzaba məruz qalanlardan olublar. Allah Peyğəmbərimizi (s) söylədiyi məsələlərdə həmişə haqlı çıxarıb.

# PEYĞƏMBƏRİMİZİN (S.A.V.) DUALARININ QƏBUL OLUNMASI

Kitab boyunca da üzərində dayandığımız kimi, Rəbbimiz Peyğəmbərimizə (s) bənzərsiz nemətlər bəxş edib. Peyğəmbərimizin (s) öz səhabələrinə göstərdiyi çoxlu möcüzələr var. Bu möcüzələrdən biri də sevimli Peyğəmbərimizin (s) dualarının qəbul olunmasıdır. Hədislərdə bu məsələ ilə bağlı bir çox xəbərlər verilir:

## Peyğəmbərimizin (s) yağış dualarının qəbul edilməsi

Peyğəmbərimiz Hz.Muhəmməd (s) bütün başqa peyğəmbərlər kimi Allaha bağlı olan, dərin iman sahibi olan, Allahdan şiddətlə qorxub çəkinən ixlaslı bir bəndədir. Rəbbimiz Peyğəmbərimizin (s) səmimi dualarını qəbul edib. Səhabələr və onun ətrafındakı insanlar bu səbəblə müxtəlif möcüzələrə şahid olublar. Məsələn, Peyğəmbərimizin (s) yağış və bərəkət üçün etdiyi duaların Rəbbimiz tərəfindən qəbul olunması hədislərdə ətraflı şəkildə xəbər verilib.

Buxari və Müslimin Ənəsdən (r.a.) nəql etdikləri hədis belədir:

*"Allah Rəsulunun (s) vaxtında bir quraqlıq yaşadıq. Rəsulullah (s) minbərdə olarkən bir bədəvi gəlib: "Ey Allahın Rəsulu, mallar məhv oldu, uşaqlar ac qaldı. Nə olar, bizim üçün Allaha dua et!" Bundan sonra Allah Rəsulu (s) əllərini qaldırdı. Göydə heç bir bulud görmürdük. Nəfsim əlində olana and olsun ki, əllərini aşağı salar-salmaz dərhal dağlar kimi buludlar göründü. Minbərdən enməmiş mübarək saqqalından suyun axdığının şahidi olduq. Həmin gün gözəl yağış yağdı. Ertəsi gün və ondan sonrakı gün də yağdı..."*[37]

Bu məsələ ilə bağlı başqa hədislərdə bunlar bildirilir:

*"Allah Rəsulu (s) səhər vaxtı məsciddə ayağa durub üç təkbir gətirdi və belə dua etdi: "Allahım! Bizə yağış yağdır! -üç dəfə- Allahım, ruzi kimi bizə yağ, süd, piy və ət ver!"*

*Göydə heç bir bulud görmürdük. Birdən külək əsdi, buludları qovub gətirdi. Buludlar toplaşandan sonra yağış yağdı. Bazardakı adamlar (sevincdən) qışqırdılar. Allah Rəsulu (s) hələ ayaq üstə idi. Yollar sel kimi yağış suyu ilə doldu. Həmin il bu qədər süd, yağ və ət görməmişdim".*[38]

*Cümə günü bir nəfər minbərə baxan qapıdan məscidə daxil oldu. Rəsulullah (s) ayaq üstə idi və xütbə oxuyurdu. Həmin adam Allah Rəsuluna (s) belə dedi:*

*- Ey Allahın Rəsulu, mallarımız məhv oldu. Yollar quraqlıqdan parça-parça oldu. Allaha dua et, bizə yağış yağdırıb köməyimizə çatsın!*

*Bundan sonra Allah Rəsulu (s) mübarək əllərini qaldırıb belə dua etdi: "Allahım, bizə yağış ver! Allahım, bizə yağış göndər!"*

*Ənəs (r.a.) belə dedi: "Xeyr, Allaha and olsun, göydə nə bulud, nə də hər hansı bir şey görürdük. Ev, həyət və Sel (Mədinədə bir dağın adıdır) arasında da heç nə yox idi. Bundan sonra qalxan kimi bir bulud gəldi, göyün ortasına çatanda yayıldı və sonra yağış başladı".*[39]

*Əbu Nuaym Aişədən (r.a.) rəvayət edərək belə demişdir:*

*"İnsanlar Allah Rəsuluna (s) quraqlıqdan şikayət etdilər. Rəsulullah (s) ayağa durub namazgaha çıxdı. Minbərin üstündə oturub əllərini qaldırdı. Allah bir bulud yaratdı, göy gurladı, şimşək çaxdı, sonra da gözəl yağış yağdı..."*[40]

# Peyğəmbərimizin (s) duasını qazanıb cavan qalan səhabələr

Quranın **"Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o, sizi çox istəyir, möminlərə şəfqətlidir, mərhəmətlidir!"** ***("Tövbə" surəsi, 128)*** ayəsində də bildirildiyi kimi, Peyğəmbərimiz (s) möminləri çox istəyirdi. Hədislərdə də Peyğəmbərimizin (s) möminlərin sağlamlığı, əmin-amanlığı, imanları ilə bağlı xeyli tövsiyələr etdiyi, onlara şəfqət və mərhəmətlə yaxınlaşdığı bildirilir. Peyğəmbərimiz (s) möminlərə olan bu sevgisinin və şəfqətinin nəticələrindən biri kimi səhabələri üçün bir çox məsələlərdə Allaha dua edib. Allah Peyğəmbərimizin (s) möminlər üçün etdiyi dualarla bağlı Quranda belə buyurur:

**"...Onlardan ötrü dua et, çünki sənin duan onlar üçün bir arxayınçılıqdır. Allah eşidəndir, biləndir"** ***("Tövbə" surəsi, 103).***

Ayədə də bildirildiyi kimi, Peyğəmbərimizin (s) duası möminlər üçün bir rahatlığa və arxayınçılığa səbəb olmaqdadır. Həmçinin hədislərdə də Peyğəmbərimizin (s) səhabələrin uzun bir ömür yaşamaları üçün dua etdiyi və bu duaların qəbul edildiyi xəbər verilir. Hədislərdə Peyğəmbərimizin (s) dualarından uzun müddət sonra çox sağlam şəkildə yaşayan bir çox səhabənin adı qeyd edilir. Bu hədislərdən biri belədir:

İbni Əbi Şeybə "Müsnəd"ində, Əbu Nuaym və İbni Əsakir Əmr b. əl-Hamikdən nəql edərək belə deyib:

*O, Allah Rəsuluna (s) süd içirtdi.*

*Rəsulullah (s) ona belə dua etdi:*

*"Allahım, onu cavanlıqdan faydalandır!"*[41]

Digər mənbələrdə isə Peyğəmbərimizin (s) duasının bəzi səhabələrin gəncliyinə necə səbəb olduğu belə bildirilir:

*Peyğəmbərimizin (s) ömürlərinin uzadılması üçün dua etdiyi səhabələrin yüz il yaşadıqları da bildirilir.*[42]

*Hz.Peyğəmbər (s) başqa bir səhabənin başını sığallayaraq: "Allahım, bunu gözəlləşdir və gözəlliyini davamlı et!" deyə dua edib və həmin səhabənin üzü ölənə kimi çox gənc və gözəl qalıb.*[43]

# Peyğəmbərimizin (s) bərəkət üçün etdiyi duaların qəbul olunması

Peyğəmbərimiz (s) səhabələrinin hər problemi ilə maraqlanıb, hər sıxıntılarında onlara kömək edib. Peyğəmbərimizin (s) duaları Allahın izni ilə bütün səhabələr üçün böyük şəfa və bərəkət vəsiləsi olub. Hədislərdə bu bərəkətlə bağlı çoxlu sayda misallar verilib. Rəvayət edilən hədislərdən bəziləri belədir:

*Buxari və Müslim Ənəsdən (r.a.) nəql edərək belə deyiblər: Peyğəmbərimiz (s) mənim haqqımda dua edərək belə buyurdu: "Allahım, onun malını və övladlarını çoxalt, ona ruzi kimi verdiklərini bərəkətli et".*

*Ənəs (r.a.) deyir ki, "Allaha and olsun ki, malım çoxdur. Çoxlu sayda da övladım oldu".*[44]

*Buxari və Müslim Ənəsdən (r.a.) nəql edərək belə qeyd ediblər:*

*Allah Rəsulu (s) Əbdürrəhman ibn Əvfa buyurdu: "Allah səni bərəkətli etsin!" Bunu İbni Səd və Beyhaqi də başqa mənbədən nəql edərək həmin sözlərə bunu da əlavə ediblər: "Əbdürrhman dedi ki, "O qədər varlandım ki, hansı daşı qaldırsam, altından mütləq qızıl və ya gümüş tapacağımı bilirdim"".*[45]

*Allah Rəsulu (s) Urvə əl-Barik üçün dua etmişdi. O, ticarətdə elə bir səviyyəyə gəldi ki, bir torpaq alsa, onda da qazanacağına inanırdı.*[46]

*Əbu Ukayl babası Abdullah ibn Hişamla buğda almaq üçün bazara çıxanda və İbni-Zübeyr və İbni Ömərlə rastlaşanda belə deyərdilər:*

*"Gəl, bizimlə şərik ol! Çünki Allah Rəsulu (s) sənə bərəkətlə dua etdi". O da bundan sonra onları öz buğdasına şərik edərdi. Yenə də bərəkətinə görə dəvənin yükü azalmazdı. Evinə onunla qayıdardı.*[47]

# ALLAHIN PEYĞƏMBƏRİMİZİ (S.A.V.) MÖCÜZƏVİ ŞƏKİLDƏ QORUMASI

İnsanların hidayətinə səbəb olan Allahın elçiləri son dərəcə həssas bir vicdana malikdirlər. Onlar insanlara yaxşılığı əmr edib pisliklərdən çəkindirən, üzərlərinə düşən bu şərəfli vəzifəni məsuliyyətlə yerinə yetirən çox dəyərli insanlardır. Allahın elçiləri əlləri çatan bütün insanların axirətlərinin xilas olması və onların hidayətə gəlməsinə səbəb olmaq üçün çalışırlar. Onları içində olduqları qəflət yuxusundan oyandırmaq və Allahın razı olacağı ümid edilən bir əxlaqa çatdırmaq istəyiblər. Bunun əvəzində peyğəmbərlər bu şərəfli mübarizələri əsnasında bəzən iman gətirməyənlərin, münafiqlərin, müşriklərin təhdidlərinə, böhtanlarına, sözdə və əməldə gerçəkləşən hücumlarına məruz qalıblar. Ancaq onlar bu şərtlər altında da təbliğ vəzifələrinə səbirlə, gözəlliklə, yaxşılıq və təvazökarlıqla davam ediblər.

Peyğəmbərimiz (s) də bütün peyğəmbərlər kimi insanlara təbliğ etdiyi həqiqətlərə görə hər cür əziyyətlərə, böhtanlara məruz qalıb, məsxərəyə qoyulub, bir-birindən fərqlənən bir çox böhtanlarla ittiham edilib və uzun illər iman gətirməyənlərin təzyiqi və ölüm təhdidi altında yaşayıb. Peyğəmbərimizə (s) itaət edən saleh möminlər də uzun müddət içində yaşadıqları cəmiyyət tərəfindən boykot və rədd olunub. Əlbəttə, çətinlik kimi görünən bu hadisələr Peyğəmbərimizin (s) və onunla birlikdə olan saleh möminlərin dünyada və axirətdə gözəl həyata qovuşmalarına səbəb olan şərəfli hadisələrdir. Səmimi şəkildə iman gətirənlər və Rəbbimizə təvəkkül edənlər bunlardan və buna oxşar digər çətinliklərdən dolayı heç vaxt ümidsizliyə qapılmır, əksinə, bu çətinlikləri və sıxıntıları Allaha yaxınlaşmağa və Onun razılığını qazanmağa bir yol olaraq görürlər.

Peyğəmbərimiz (s) təbliğ vəzifəsinə başlamamışdan əvvəl də hələ gənc yaşlarından etibarən “əl-Əmin adlandırılıb, etibarlı olması ilə tanınmış bir insan olub. Əvvəl də qeyd etdiyimiz kimi, içində yaşadığı cəmiyyətdə insanlar ona hər şeyi əmanət edəcək qədər etibar göstərmişlər, bir çox məsələlərin həllində onu özlərinə hakim seçmişdilər. Onun əxlaqını, ədalətini, dürüstlüyünü həmişə tərifləmişlər. Peyğəmbərimiz (s) hər işi həmişə ən gözəl şəkildə yerinə yetirən, çox ağıllı və qabağı görən, bəsirət sahibi olan mübarək bir insan olduğuna görə onun bütün bu xüsusiyyətləri hər kəsin diqqətini dərhal cəlb edib. Ancaq Peyğəmbərimiz (s) ətrafındakıları Allaha iman gətirməyə və bütlərə sitayiş etməkdən əl çəkməyə çağırmağa başlayanda, onun üstün əxlaqına şahid olmalarına baxmayaraq iman gətirməyənlərin ən böyük hədəfinə çevriliblər.

Peyğəmbərimiz (s) kimi Allahın başqa seçkin elçiləri də peyğəmbərlik vəzifələrini yerinə yetirməyə başlayana qədər öz xalqları arasında sevilən və hörmət edilən insanlar olub. Ancaq elçilik vəzifələri ilə şərəfləndirilmələrindən sonra Allahın varlığını və axirət gününü inkar edənlər, yaxud da dünyəvi qayğılara görə din əxlaqına tabe olmayanlar onlara qarşı cəbhə açmışlar. Bu məsələ Quranda belə xəbər verilir:

> **“Onlar dedilər: <u>"Ey Saleh! Sən bundan əvvəl içərimizdə (böyüyümüz, ağsaqqalımız olmağa) ümid edilən bir adam idin. İ</u>ndi atalarımızın ibadət etdiyinə ibadət etməyi bizə qadağanmı edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin barədə şəkk-şübhə içindəyik"“ *(“Hud” surəsi, 62).***
>
> **“Onlar dedilər: "Ey Şüeyb! Atalarımızın tapındığı bütləri tərk etməyimizi, mallarımızla istədiyimiz kimi hərəkət etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? <u>Sən doğrudan da həlim xasiyyətlisən, çox ağıllısan!"“</u> *(“Hud” surəsi, 87).***

**“(Hökmdar həmin qadınları çağırtdırıb) soruşdu: "Yusifi tovlayıb yoldan çıxartmaq istəməkdə məqsədiniz nə idi? Onlar: "Allah eləməsin! Biz onun barəsində pis bir şey bilmirik!" - deyə cavab verdilər. Vəzirin övrəti dedi: "Artıq indi həqiqət bəlli oldu. Yusifi tovlayıb yoldan çıxartmaq istəyən mən idim. O, şübhəsiz, doğru danışanlardandır!"“** ***(“Yusuf” surəsi, 51).***

Peyğəmbərimizin (s) haqqa və doğru olana dəvətinin əvəzində tayfasının müqavimət etirazı da Allahın: **“Onlar belə dedilər: "Ey özünə Kitab nazil edilən kəs! Axı sən divanəsən! Əgər sən doğru danışanlardansansa, mələkləri bizə gətirsənə!"“** ***(“Hicr” surəsi, 6-7)*** ayələrində də bildirdiyi kimi, bu mübarək insana heç bir əsası olmayan böhtanlar atmaqdan ibarət olub. Peyğəmbərimizin (s) bu ayələrdə xəbər verilən böhtanlardan başqa da çoxlu sayda iftiralara məruz qalması Quran ayələrində bildirilir. Peyğəmbərimiz (s) belə bir şəraitdə də iman gətirməyənlərlə fikri mübarizəsinə və Quran əxlaqını insanlara çatdırmağa davam etmişdir. Lakin onun təbliğ etdiyi həqiqətlər xalqın iman gətirməyən hissəsində və müşriklərdə kin və nifrət yaratmışdı. Allahın Quranda **“aləmlərə rəhmət”** kimi zikr etdiyi ***(“Ənbiya” surəsi, 107)*** Peyğəmbərimizi (s) insanlar, - onların çox az hissəsi istisna olmaqla, - təqdir etməmişlər. Həmçinin bir müddət sonra Peyğəmbərimiz (s) yerini dəyişərək Məkkədən Mədinəyə hicrət etmək məcburiyyətində qalmışdı.

Peyğəmbərimiz (s) çox təhlükəli olan müşrik bir qövmün arasında bir tərəfdən dini təbliğ etmiş, bir yandan iman gətirərək ona tabe olanları maarifləndirmiş, digər tərəfdən də iman gətirməyənlərlə çətin bir mübarizə aparmışdır. Bu mübarizə bəzi hallarda müharibələrə çevrilmişdi. Dövrünün müşrikləri ilə yanaşı, inkarçılıqda israr edən bəzi yəhudilər də Peyğəmbərimizə (s) qarşı düşmənçilik etmişlər. Hz.Muhəmməd (s) onlarla da maraqlanmışdı. Yəhudilər kimi, bəzi xristianlar da Peyğəmbərimizi (s) hədəf götürüb, ona xeyli problemlər yaratmış, qurduqları hiylələrlə ona ziyan vurmağa çalışmışlar.

Peyğəmbərimiz Hz.Muhəmməd (s) bu qədər geniş bir sahədə mübarizə apararkən bir tərəfdən də münafiqlər ona gizli şəkildə zərər vurmağa çalışırdılar. Münafiqlər inkarçılarla əlbir olaraq onlara xəbər aparır, gizli şəkildə Peyğəmbərimizin (s) əleyhinə müxtəlif işlər görürdülər. İnkarçılar və müşriklər kimi onların da əsas hədəfi Peyğəmbərimiz (s) idi. Onlar Peyğəmbərimiz Hz.Muhəmmədə (s) paxıllıq edir, ona kin və nifrət bəsləyirdilər. İçlərindəki bu həsədə və bu kinə baxmayaraq Peyğəmbərimizə (s) yaxınlaşaraq onun söhbətlərində iştirak etmiş və gizli işlərlə məşğul olmuşlar.

Münafiqlər kimi, Peyğəmbərimizin (s) təbliğinə qulaq asanların arasında iman gətirməyənlər də vardı. Bu insanlar da başqaları kimi Allahın müqəddəs elçisinə əziyyət vermək üçün çoxlu tələ və hiylələrə əl atırdılar. Allah bir ayədə öz xain fikirləri ilə Peyğəmbərimizə (s) əziyyət vermək istəyən bu adamlar barədə belə xəbər vermişdir:

**“Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman az qala səni gözləri ilə yeyələr. Onlar: "O, divanədir!" - deyirlər”** ***(“Qələm” surəsi, 51).***

Bura kimi bəhs edilənlərdən də göründüyü kimi, Peyğəmbərimiz (s) həm iman gətirməyənlərin ona qarşı yönələn ölüm təhdidləri altında, həm də münafiqlərin arasında olmasına baxmayaraq insanlara din əxlaqını təbliğ etmiş, onların hidayətə qovuşmasına vəsilə olmağa çalışmışdır. İman gətirməyənlərin başbilənləri və aparıcı simaları isə Allahın bu mübarək elçisini öldürmək üçün çoxlu məkrli planlar hazırlayıb, hiylələr qurmuşdular.

Rəbbimizin ən böyük və vacib möcüzələrindən biri də Peyğəmbərimizin (s) əleyhinə hazırlanan bu qədər məkrli plana və hiyləyə rəğmən sevimli Peyğəmbərimizin (s) heç bir zərərə məruz qalmadan öz mübarizəsinə davam etməsidir.

Bir Quran ayəsində Rəbbimiz sevimli Peyğəmbərimizə (s) “onu insanlardan qoruyacağını” vəd edib:

**“...Allah səni insanlardan qoruyacaq. Həqiqətən Allah kafir camaatı düz yola yönəltməz!”** ***(“Maidə” surəsi, 67).***

Rəbbimizin bu vədi bir çox möcüzəvi hadisədə ortaya çıxıb, inkarçıların tanınmış adamları, müşriklər və münafiqlər, Peyğəmbərimizə (s) qarşı haqsız kin və nifrət içində olanlardan bircə nəfər də möcüzəvi tərzdə ona ziyan verə bilməyib. Hazırladıqları məkrli planlar, qurduqları tələlər hər dəfə puça çıxıb. Həm də bir çox döyüşdə müşriklər və inkarçılar Peyğəmbərimizlə (s) qabaq-qabağa gəlmələrinə baxmayaraq Rəbbimiz həmişə məhz onu qoruyub və Peyğəmbərimiz (s) təbliğ vəzifəsini axıra kimi davam etdirib. Ona əziyyət verməyə çalışanlar məqsədlərinə heç vaxt çata bilməyib, əksinə, özləri rəzil-rüsvay olarkən Peyğəmbərimizin (s) fiziki gücü, sağlamlığı, sevinci, nuru və gözəlliyi hər ötən gün daha da çoxalıb. Allah Peyğəmbərimizi (s) Öz mərhəməti ilə qoruyub, ona həm fiziki, həm də mənəvi cəhətdən böyük güc və əzəmət verib. Əlbəttə, bu, Peyğəmbərimiz (s) üzərində təcəlla edən Allah möcüzələrindən biridir. Qurduqları hiyləgər planlar inkarçıların və münafiqlərin öz əleyhinə çevrilərkən Peyğəmbərimiz (s) Allahın mərhəməti və mühafizəsi altında heç bir zərərə məruz qalmadan öz mübarizəsini davam etdirib. Mahiyyət baxımından böyük möcüzə demək olan bu həqiqət Quranda da bildirildiyi kimi, Peyğəmbərimizdən (s) rəvayət edilən hədislərdə də yer almışdır.

# İman gətirməyənlərin Peyğəmbərimizi (s) öldürə bilməməsi

Peyğəmbərimizin (s) insanları haqqa və doğru olana dəvət etməsi haqsızlıqlardan və zülmlərdən mənfəət əldə edən, məqam və mövqelərini itirməkdən qorxan bir qrup adamın Peyğəmbərimiz (s) və onun yanındakı möminlər əleyhinə müxtəlif tələlər qurmasına səbəb olmuşdu. Çünki Peyğəmbərimizin (s) söylədiyi həqiqətlər onların malik olduğu dünyəvi mənfəətlərin böyük əksəriyyətinin bir anda öz dəyərini itirməsinə gətirib çıxarırdı. Təkəbbürlü olduqları üçün də həmin günə kimi sitayiş etdikləri bütlərə bağlı qalmaqda inadla davam edir, inandıqları batil dəyərlərdən əl çəkmək istəmirdilər. Bunun əvəzində onlar Peyğəmbərimizi (s) ya öz dinindən əl çəkməyə məcbur etmək ya da öldürmək məsələsində öz aralarında müzakirə aparırdılar. İman gətirməyənlərin və müşriklərin qurduğu bu planlar barədə bir Quran ayəsində belə deyilir:

> **“Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da çıxardıb sürgün etmək üçün sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır!”** ***(“Ənfal” surəsi, 30).***

Ayədə də buyrulduğu kimi, Rəbbimiz tədbir tökənlərin ən xeyirlisidir və sevimli Peyğəmbərimizi (s) onların bütün hiylələrindən qoruyaraq təmizə çıxarmışdır. Allahın **“...onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir”** ***(“Ali-İmran” surəsi, 120)*** ayəsinin bir hökmü olaraq möcüzəvi şəkildə Peyğəmbərimizə (s.ə.v) də heç bir zərər vura bilməmişdilər.

Allah Peyğəmbərimizə (s) heç kimin maddi və mənəvi cəhətdən heç nə ilə əsla zərər verə bilməyəcəyini başqa ayələrdə belə vəd edib:

> **“Əgər sənə Allahın lütfü (mərhəməti) olmasa idi, əlbəttə, onların bir dəstəsi səni düz yoldan azdırmaq niyyətində olacaqdı. Halbuki onlar özlərindən qeyrisini azdıra bilməz və sənə də heç bir zərər verə bilməzlər. Çünki Allah sənə Quranı və hikməti nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür!”** ***(“Nisa” surəsi, 113).***

> **“Onlar yalana qulaq asanlar və haram yeyənlərdir. Əgər yanına gəlsələr, aralarında hökm et və ya onlardan üz çevir. Əgər onlardan üz döndərsən, sənə heç bir zərər verə bilməzlər. Əgər aralarında hökm etsən, ədalətlə hökm et. Allah ədalət sahiblərini sevər!”** ***(“Maidə” surəsi, 42).***

Hədislərdə Peyğəmbərimizə (s) Quran əxlaqını təbliğ etməkdən əl çəkməsi üçün müşriklərin müxtəlif yollara əl atdıqları xəbər verilir. Bunlardan biri də məqam, mal-mülk, sərvət təklif edərək Peyğəmbərimizi (s) cahilcəsinə dünyəvi mənfəətlərlə mübarizəsindən əl çəkdirməyə çalışmalarıdır. Bir Quran ayəsində belə bildirilir:

**“Onlar istərdilər ki, sən onlara yumşaqlıq göstərəsən, onlar da sənə yumşaqlıq göstərsinlər!”** ***(“Qələm” surəsi, 9).***

Maddi və mənəvi hər növ təklifə baxmayaraq Peyğəmbərimiz (s) Allahın ayələrini insanlara çatdırmaq və başa salmaq məsələsində çox böyük qətiyyət, möhkəm bir xarakter nümayiş etdirmiş, ona qarşı yönələn təhdidlərə heç vaxt fikir verməmişdir. İbni Əbi Şeybə *“Müsnəd“ində* məkkəli müşriklərdən biri olan Utbə ibn Rabiənin Peyğəmbərimizə (s) ünvanlanan çirkin təkliflərini belə bldirir:

*“...Nəyə görə ata-babalarımızın azdığını deyirsən? Əgər rəhbərlik istəyirsənsə, bayraqlarımızı sənə verək və səni özümüzə başçı seçək. Əgər mal-mülk və pul istəyirsənsə, sənə və səndən sonrakı nəslinə bəs edəcək qədər sərvət yığaq”.*[48]

Peyğəmbərimiz (s) Allahın razılığını hər şeydən üstün tutmuş, Allahın mərhəmətini və cənnətini əsl mükafat kimi görmüş, çox güclü imana malik bir müsəlman olmuşdur. Heç bir dünyəvi təklif, məqam, vəzifə, pul heç vaxt ona təsir etməmişdir. Allah bu cür müqəddəs elçisi üçün dünyada da çoxlu var-dövlət və fəthlər nəsib etmişdi, Allahın axirət həyatında hazırladığı mükafat isə əlbəttə ki, daha böyük olacaqdır. Peyğəmbərimizi (s) haqq mübarizəsindən əl çəkməyə məcbur etmək üçün müşriklərin rəhbərləri müxtəlif tələlər qurub hazırlamışdılar. Lakin onlar heç bir məqsədə nail ola bilməyəndən sonra Peyğəmbərimizi (s) sürgün etmək, həbs etmək və axırda da öldürmək üçün xain planlar qurmağa başladılar. Buna görə də öz aralarında vaxtaşırı Peyğəmbərimizin (s) vəziyyətini müzakirə edirdilər. Bu tarixi həqiqət İslam mənbələrində belə qeyd edilib:

*İbni İshaqın ifadəsinə görə, Qureyş qəbiləsi yığışaraq Rəsulullah (s) haqqında məsələni həll etmək üçün bir-birinə belə dedilər: “Bu adamın vəziyyətinin necə bir həddə gəldiyini görürsünüz”. Bundan sonra qızğın müzakirələr başladı. Aralarından biri: “Onu bir yerə salıb həbs edək, heç kimlə görüşməyinə də imkan verməyək və ölənə kimi oradan çıxarmayaq. Ölməməsini təmin edəcək miqdarda da yeyib-içmək verək...”*

*Lakin bu fikrə etiraz etdilər. Belə bir hadisə iğtişaşlara gətirib çıxara bilərdi. Bu dəfə başqasının “Onu həbs etməyək, Məkkədən çıxaraq...” təklifi də müsbət qəbul edilmədi. Çünki “Muhəmməd (s) ərəblərin hər hansı bir əşirətinə gedər, gözəl sözləri ilə onları özünə cəlb edər, onları öz arxasınca aparar və bizdən intiqam alar...” deyildi. Bundan sonra Əbu Cəhl belə dedi: “Muhəmmədi (s) öldürməkdən başqa həll yolu yoxdur”.*[49]

Müşriklər və iman gətirməyənlər bu xain planları tətbiq etməyə imkan verəcək maddi və mənəvi imkanlara malik olmalarına baxmayaraq bu istəklərinə heç vaxt çata bilməyiblər. Çünki Peyğəmbərimiz (s) Uca Allahın himayəsi altında hərəkət edən mübarək bir insandır. Hədislərdə Peyğəmbərimizi (s) öldürmək üçün gənc, güclü və silahlı adamların seçilib təşkil edildiyi bildirilir. Bu adamlarla yanaşı Peyğəmbərimizi (s) qılıncla öldürməyə gələn çoxlu sayda könüllü də vardı. Hədislərdə bu adamların bir yerdə, eyni anda Hz.Muhəmmədə (s) hücum edərək onu öldürmələrinin planlaşdırıldığı qeyd edilir. Bütün bunlara baxmayaraq Peyğəmbərimizi (s) öldürməyin mümkün olmaması, Allahın iman gətirməyənlərin və müşriklərin tələ və hiylələrini hər dəfə boşa çıxarması Peyğəmbərimizin (s) yaşadığı çox böyük möcüzələrdəndir.

Çox cəsur və igid bir adam olan Peyğəmbərimiz (s) qanlı döyüşlərdə də şəxsən iştirak edib, düşmənləri ilə qabaq-qabağa gəlib. Döyüşlərdə ön cəbhədə olmasına baxmayaraq onu öldürmək yenə də mümkün olmayıb və o, Allahdan bir möcüzə kimi heç bir zərərə məruz qalmadan geri qayıdıb. İnkarçılar döyüşdən kənarda bəzən əllərinə başqa fürsətlər keçsə də, yenə bu mübarək insanı öldürə bilməyiblər. Peyğəmbərimizin (s) vəzifəsini başa çatdırmadan, həm də çox böyük təhlükələrlə üzləşməsinə rəğmən ölməməsi əlbəttə, çox böyük bir möcüzədir.

Bu möcüzə ilə bağlı olaraq İbni Hənbəl Təbarani və Əbu Nuaym Cadədən (r.a.) bunu nəql ediblər:

*Peyğəmbəri (s) gördüm. Yanına bir nəfər gətirilib. “Bu adam sizi öldürmək istədi” deyildi. Bundan sonra Allah Rəsulu (s) belə buyurdu: “Qorxma, qorxma! İstəsən də Allah məni sənə öldürtməzdi...”*[50]

Allahın onu qoruduğunu bilən və Ona təvəkkül edən Peyğəmbərimizin (s) döyüş meydanlarındakı qorxmazlığı və cəsarəti bütün möminlərin nümunə götürdüyü bir xüsusiyyətidir. Peyğəmbərimiz (s) Allahdan başqa heç kimdən qorxmayan, çox cəsur, çox üstün əxlaqa malik səbirli bir insan olmuşdur. O, öz fədakarlığı ilə də bütün möminlər üçün ən gözəl nümunədir. Onun fədakar və cəfakeş davranışının ən gözəl nümunələrindən biri döyüşdə möminləri münasib yerlərə yerləşdirmək üçün sübh tezdən qalxması və evindən çıxması idi:

> **"Sən müharibədən ötrü möminlərə əlverişli mövqelər hazırlamaq üçün sübh vaxtı öz ailəndən ayrılıb getmişdin. Şübhəsiz ki, Allah eşidəndir, biləndir!"** ***("Ali-İmran" surəsi, 121).***

Peyğəmbərimiz (s) şəxsən özü inkarçıların, müşriklərin və münafiqlərin hədəfində ikən və həyatı təhlükə altında olduğu halda möminlərin əmin-amanlıqda olmasına çox böyük əhəmiyyət verib. Müsəlmanları həmişə təşviq edərək, onların şövqlərinin artmasına vəsilə yenə o olmuşdur.

Mütləq gücün sahibi olan Allah Quranda: **"...Göylərdəki və yerdəki ordular Allahın ixtiyarındadır. Allah biləndir, hikmət sahibidir!"** ***("Fəth" surəsi, 4)*** ayəsində xəbər verdiyi kimi, O, yer üzündəki bütün insanları da, orduları da Öz qüdrəti altında saxlayandır. İman gətirməyənlər Allahın sonsuz gücünü lazımınca qiymətləndirmədikləri üçün Peyğəmbərimizə (s) əl uzatmağa cürət göstəriblər. Bunun müqabilində Allah iman gətirməyənlərin Allah Rəsuluna (s) qarşı qurduqları hiylələri aradan qaldırmaq üçün Quranda **"İnanmayanlar hiyləyə əl atdılar. Allah da onların hiyləsinə əvəz verdi. Allah (bütün) hiyləgərlərdən tədbirlidir"** ***("Ali-İmran" surəsi, 54)*** ayəsilə xəbər verildiyi kimi, ən qüsursuz sistemi qurub. İman gətirməyənlərin özləri də yaxşılığına və gözəl əxlaqına şəxsən şahid olduqları Allahın elçisi Hz.Muhəmmədə (s) qarşı gizli planlar qurarkən bunu Allahın onları eşitdiyindən və gördüyündən xəbərsiz ediblər. Beləliklə, münafiqlər və aparıcı inkarçılar əslində özlərinin ən böyük tələyə düşəcəklərini dərk edə bilməmişdilər:

> **"Onlar hiylə qurdular. Onların hiyləsi Allah dərgahında məlumdur. Onların hiyləsi ilə dağlar yerindən oynayan deyildir!"** ***("İbrahim" surəsi, 46).***

Hədislərdə Peyğəmbərimizin (s) ən böyük düşmənlərindən biri olan Əbu Cəhlin Allahın elçisini öldürmək üçün həmişə fürsət axtardığı xəbər verilir. İmam Buxari bununla bağlı İbni Abbasdan bu məlumatı nəql edir:

> *Əbu Cəhl: "Əgər Muhəmmədi Kəbədə namaz qılarkən görsəm, onun boynunu əzəcəyəm!", - dedi. Bundan sonra Allahın Rəsulu (s) belə buyurdu: "Əgər belə bir hərəkət etsəydi, mələklər gəlib hamının gözü qarşısında onu tutacaqdılar".*[51]

İbni İshaq, Beyhaqi və Əbu Nuaym da İbni Abbasdan bu məlumatı nəql ediblər:

> *"Rəsulullah (s) səcdəyə gedəndə Əbu Cəhl böyük bir daş götürüb ona tərəf getdi. Daşı atmaq məqsədilə yaxınlaşanda qorxudan rəngi qaçmış, əli daşa yapışmış halda geri qayıtdı. Qorxusundan əlindəki daşı başqa yerə tulladı. Qureyşlilər bu vəziyyəti görüb "Nə oldu, nə baş verdi, danış görək", - dedilər. Əbu Cəhl onlara belə cavab verdi: "Ona yaxınlaşanda böyük bir dəvə gördüm. Ömrümdə başı və boynu bu qədər böyük olan başqa bir dəvə görməmişdim. Əgər daşı atmağa çalışsaydım, dəvə məni azı dişləriylə parça-parça edərdi. Bundan sonra Allah Rəsulu (s) belə buyurdu: "Onun gördüyü Cəbrail idi. Mənə yaxınlaşsaydı, Cəbrail onu tutub başqa bir tərəfə fırladacaqdı"".*[52]

Allahın inayəti və himayəsi altında olan mübarək bəndəsi Peyğəmbərimiz (s) əleyhinə bir çox tələlərin hazırlanmasına və bu tələlərlə üz-üzə qalmasına baxmayaraq hər dəfə Allahın vədinin eynilə gerçəkləşdiyini görüb, çətin kimi görünən hadisələri Rəbbimizin yaratdığına və Onun hər hadisəni ən xeyirli şəkildə nəticələndirəcəyinə iman gətirib. Özü heç bir ziyana məruz qalmadan təbliğat aparmaq vəzifəsinə və mübarizəsinə davam edib, Rəbbimizə həmişə etibar edib, Ona arxalanıb. Peyğəmbərimizin (s) dərin təvəkkülünün nəticəsində də Allah onu həmişə hər şeyə müvəffəq və güclü edib.

# Allahın Peyğəmbərimizi (s) qorumaq üçün mağarada hazırladığı möcüzələr

İslam mənbələrində və tarixi sənədlərdə qeyd edilən məlumatlara görə, Rəsulullah (s) peyğəmbərliyinin 14-cü ilində səfər ayının 27-si gecəsi evini tərk etdi və Hz.Əbu Bəkirin evinə getdi. Daha sonra Hz.Əbu Bəkirlə birlikdə Məkkəni tərk etdilər. Peyğəmbərimiz (s) müşriklərin onu ilk axtaracaqları yerin şimala tərəf davam edən əsl Mədinə yolu olacağını bilirdi. Buna görə də tamamilə əks istiqamətdə yol seçdi. Bu yol Məkkənin cənubundakı Yəmən yolu idi. Bu yolla təxminən 5 mil (6 km) gedərək "Sevr" adlandırılan dağa gəldilər. Dağ hündür olduğundan oraya çıxmaq təhlükəli, dırmaşmaq da çox çətin idi. Peyğəmbərimiz (s) yanındakı yoldaşı Hz.Əbu Bəkirlə birlikdə burada bir mağarada gizləndilər. Rəvayət edildiyinə görə, Sevr dağındakı bu mağara "Athal" adı ilə tanınırdı.[53]

Bu vaxt Qureyşlilər Allah Rəsulunu (s) tapmaq üçün bütün yolları kəsdilər və silahlı adamlarla yollara nəzarəti gücləndirdilər. Süvarilər, piyadalar və izaxtaranlar bölgəni ətraflı şəkildə axtarmağa başladılar. Dağlara, vadilərə və yoxuşlara yayıldılar. Peyğəmbərimizi (s) axtaran izləyicilər mağaranın ağzına kimi gəlib çıxdılar. Peyğəmbərimiz Hz.Muhəmməd (s) həmin anda Allaha təvəkkül edirdi. Rəbbimiz Quranda bunları bildirir:

> **"Əgər siz ona (peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!" - dediyi zaman göstərmişdi. O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı..."** ***("Tövbə" surəsi, 40).***

Peyğəmbərimiz (s) Allahın ayəsində də bildirdiyi kimi, Allaha könüldən təslim olmuşdur və taleyinə də təvəkkül içindədir. Rəbbimiz də Peyğəmbərimizin (s) gözəl əxlaqının və təvəkkülünün əvəzində onu Öz yardımı ilə dəstəkləmiş, onun bədəninə sağlıq, güc, ürəyinə də rahatlıq və güvən hissi vermişdi.

Bəzi insanlar belə böyük bir çətinliklə səciyyələnən vəziyyəti çox səthi şəkildə və həmin anın həyəcanını hiss etmədən dəyərləndirə bilərlər. Çünki özü təhlükənin hədəfi olmayan bir insan bu ovqatı anlaya və duya bilməz. Məsələn, bir adam inkarçı düşmənləri onu axtararkən bir mağarada həyatı təhlükə altında olan Peyğəmbərimizin (s) diqqətini və sayıqlığını yaşamadan dərk edə bilməz. Bütün iman gətirənlərin bu şərtlər barədə çox ətraflı şəkildə düşünməsi, Peyğəmbərimizin (s) üstün fədakarlığını, səbrini və iradəsini lazımi qədər təqdir edə bilməsi çox mühümdür. Lakin Peyğəmbərimiz (s) həyatı boyunca bir çox hadisələrdə olduğu kimi bunda da Allahın istəyi ilə möcüzəvi şəkildə xilas olub. Rəvayətlərə görə, müşriklər təqib nəticəsində gedib çıxdıqları mağaranın girişində hörümçəyin tor qurduğunu və göyərçinin də yuva qurub yumurta qoyduğunu görəndə içəridə heç kimin olmadığını düşünərək geri qayıdıblar.

Həqiqətən də bu şərtlər nəzərə alınanda mağaranın girişindəki hörümçək torunun dağılmaması içəridə heç kimin olmadığına bir işarə kimi qəbul edilə bilər. Çünki mağaraya girilsəydi, bu tor mütləq dağılacaq və hörümçək də həmin yerdə tor qurmayacaqdı. Digər tərəfdən, göyərçinin orada olmasına da eyni mövqedən yanaşmaq lazımdır. Əlbəttə ki, bu vəziyyət hər şeyə hakim və qadir olan Allahın bir möcüzəsidir. Hörümçəyə mağaranın girişində tor qurduran, göyərçini orada rahat şəkildə yerləşdirən qüvvə Allahdır. Peyğəmbərimizə (s) və mağarada birlikdə olduğu yoldaşına heç bir xətər dəyməməsi, Allahın görünməyən əsgərlərlə ona dəstək verməsi, ürəyinə rahatlıq və əminlik hissi verməsi əlbəttə ki, böyük möcüzələrdəndir.

Təfsirlərdə Hz.Muhəmmədin (s) ona verilən əsgərlərin mələklər ordusu olduğu bildirilir.[54] Həmçinin "Tövbə" surəsinin 40-cı ayəsinin axırında Allah **"...O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!"**, - buyuraraq bu həqiqəti bizə bildirir. Bu ayədə bildirilən möcüzəvi hadisələr "Cəlaleyin" təfsirində belə şərh edilib:

*Əgər siz ona, yəni Hz.Peyğəmbərə (s) kömək etməsəniz, vaxtilə Allah ona kömək etmişdi. Küfr edənlər onu Məkkədən çıxardıqları vaxt, yəni müşriklər Darunnədvədə yığışıb öldürülməsini, yaxud həbsini və ya sürgün edilməsini istəyəndə onu Məkkədən çıxmaq məcburiyyətində qoyduqları vaxt ikinin ikincisi idi. Yəni iki nəfərdən biri idi. Digəri də Hz.Əbu Bəkir idi. Burada ifadə edilməsinə çalışılan məna budur: Bu çətin vəziyyətdə Rəsuluna (s) kömək əlini uzadan Allah başqa vəziyyətlərdə də onuköməksiz buraxmaz. Həmin vaxt onlar Sevr dağındakı mağarada ikən Peyğəmbər (s) müşriklərin ayaqlarını görüb əndişələnən və Ona (s):* ***"Onlardan biri ayaqlarının altına baxsa, bizi dərhal görəcək", - deyən yoldaşına, yəni Hz.Əbu Bəkirə "Kədərlənmə! Çünki Allah Öz yardımı ilə bizimlə bərabərdir" deyirdi. Nəhayət, Allah bir fikirə görə, Hz.Peyğəmbərin (s), digər bir fikirə görə də Hz.Əbu Bəkirin üstünə rahatlıq və əmin-amanlığını göndərdi. Onu, yəni Hz.Peyğəmbəri (s) görmədiyimiz əsgərlərlə, yəni mağarada və döyüş meydanlarında bir mələklər ordusu ilə gücləndirdi. Beləliklə, küfr edənlərin kəlməsini, yəni şirk mübarizəsini ən alçaq, yəni ən məğlub, Allahın kəlməsini, yəni kəlmeyi-şəhadəti isə ən yüksək, yəni üstün və qalib etdi. Allah mülkündə güclüdür.*** *Bütün işlərində hikmət sahibidir.*[55]

Rəbbimiz Peyğəmbərimizə (s) çoxlu sayda möcüzəvi hadisə ilə kömək edib, ona mələklərlə dəstək, qəlbinə rahatlıq verib və iman gətirməyənlərin -o qədər çox sayda, hər tərəfdən əhatə etmələrinə baxmayaraq- ona zərər yetirməsinə mane olub. Bağışlayan, qoruyan, nəzarət edən Allah kömək edənlərin ən xeyirlisi və bütün gücün yeganə sahibidir.

Peyğəmbərimiz (s) də hər işində Allahın köməyi ilə uğur qazanıb. Allah Peyğəmbərimizə (s) olan köməyini ayələrdə belə xəbər verib:

**"Əgər onlar səni aldatmaq istəsələr, sənə təkcə Allah kifayətdir. O Allah ki, səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi"** ***("Ənfal" surəsi, 62).***

**"...Əgər ona qarşı bir-birinizə kömək etsəniz, bilin ki, onun dostu və yardımçıları Allah, Cəbrail, əməlisaleh möminlərdir. Bunlardan sonra da mələklər onun yardımçısıdır"** ***("Təhrim" surəsi, 4).***

**"...Allah Ona (dininə) yardım edənlərə şübhəsiz ki, yardım edər. Həqiqətən Allah yenilməz qüvvət, qüdrət sahibidir!"** ***("Həcc" surəsi, 40).***

**"Allah sənə yenilməz qələbə verəcəkdir!"** ***("Fəth" surəsi, 3).***

**"Sevdiyiniz başqa bir nemət də - Allah dərgahından kömək və yaxın qələbə gözləyir. Möminlərə müjdə ver!"** ***("Səff" surəsi, 13).***

Peyğəmbərimizin (s) üstünlüyünü lazımınca başa düşməyən inkarçılar əslində hər şeyin tək hakimi olan Allahı lazım olduğu kimi təqdir edə bilməmişlər. Allahın köməyində və himayəsi altında olan Peyğəmbərimizi (s) məğlub edə biləcəklərini düşünmələri onlar üçün əlbəttə, böyük qəflət olmuşdur. Çünki onlar sonu əvvəlcədən bilinən, özlərinin ağır məğlubiyyəti ilə nəticələnəcək bir mübarizəyə girmişdilər. Allah bir ayədə belə buyurur:

**"Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən Allah yenilməz qüdrət, qüvvət sahibidir!"** ***("Mucadələ" surəsi, 21).***

Allah başqa bir ayəsində isə Peyğəmbərimizə (s) heç kimin xətər yetirə bilməyəcəyini, Allahın, Cəbrailin, mələklərin və saleh möminlərin onun dostu, köməkçisi, dəstəkçisi olduğunu belə xəbər verir:

**"Əgər siz Allaha tövbə etsəniz, çox yaxşı olar. Çünki qəlbləriniz əyriliyə meyl etdi. Əgər ona qarşı bir-birinizə kömək etsəniz, bilin ki, onun dostu və yardımçıları Allah, Cəbrail, əməlisaleh möminlərdir. Bunlardan sonra da mələklər onun yardımçısıdır"** ***("Təhrim" surəsi, 4).***

# Rəbbimizin Peyğəmbərimizi (s) mələklərlə qoruyub dəstəkləməsi

Quran əxlaqı müsəlmanların döyüşdən və hər cür iğtişaşdan çəkinmələrini, narazılıqları müzakirələr və fikir mübadiləsi yolu ilə aradan qaldırmalarını, mülayim olmalarını zəruri edir. Qurana görə, müharibə məcburiyyət qarşısında qalanda əl atılan və mütləq müəyyən insani və əxlaqi şərtlər çərçivəsində yerinə yetirilən "arzuolunmaz məcburiyyət"dir. Möminlər baş verən problemlərdə həmişə sülhü və anlaşmanı seçməklə yalnız qarşı tərəfin hücumuna məruz qalarlarsa, özlərini müdafiə etmək üçün döyüşməyə borcludurlar.

Bir ayədə yer üzündə müharibə törədənlərin pozğunlar olduğu, Allahın isə pozğunları sevmədiyi bildirilir:

> **"...Onlar müharibə alovu yandırdıqca Allah onu söndürər. Onlar yer üzündə fitnə-fəsad törətməyə çalışarlar. Allah isə fitnə-fəsad törədənləri sevməz!"** ***("Maidə" surəsi, 64).***

Peyğəmbərimiz Hz.Muhəmmədin (s) həyatına nəzər salanda müharibənin ancaq məcburiyyət qarşısında qalanda və müdafiə məqsədilə müraciət edilən bir yol olduğunu görə bilərik.

Quranın Peyğəmbərimizə (s) vəhyi düz 23 il davam etdi. Bunun ilk 13 ilində müsəlmanlar Məkkədəki bütpərəst sistemin içində azlıq kimi yaşadılar və çox böyük təzyiqlərə məruz qaldılar. Bir çox müsəlmanlara fiziki işgəncələr verildi, bəziləri öldürüldü, əksəriyyətinin evi və var-dövləti əlindən alındı, onlar həmişə təhqir və təhdidlərlə qarşılaşdılar. Buna baxmayaraq, müsəlmanlar qarşıdurma və savaşa əl atmadan yaşamağa davam etdilər və bütpərəstləri həmişə barışa çağırdılar. Axırda bütpərəstlərin təzyiqləri dözülməz həddə çatanda müsəlmanlar daha azad və dostanə bir şəraitin mövcud olduğu Yəsrib (sonradan Mədinə adlandırıldı) şəhərinə hicrət edərək burada öz üsul- idarələrini qurdular.

Ancaq müharibənin labüd yol olduğu hallarda da Rəbbimiz Peyğəmbərimizi (s) müxtəlif möcüzələri ilə dəstəklədi. Bu möcüzələrdən biri də Rəbbimizin Öz mələklərini Peyğəmbərimizin (s) və saleh möminlərin köməyinə göndərməsidir.

Müsəlmanların gücsüz vəziyyətdə görünməsinə baxmayaraq Rəbbimizin onlara necə qələbə və müvəffəqiyyət nəsib etdiyi, bunun möminlərin şükr etməsi lazım olan nemət olduğu bir Quran ayəsində belə xəbər verilir:

> **"Həqiqətən siz Bədirdə zəif olduğunuz halda Allah sizə yardım etdi. Ona şükr edən olmaq üçün Allahdan qorxun!"** ***("Ali-İmran" surəsi, 123).***

Saleh müsəlmanlar müşriklərdən sayca çox az olmalarına baxmayaraq çox böyük cəsarət və qətiyyətlə Peyğəmbərimizin (s) ardınca döyüşə girib və Allahın dəstəyi ilə möcüzəvi şəkildə böyük zəfərlər qazanıblar. Quran ayələrində Allahın möminləri mələklərlə dəstəklədiyi və Peyğəmbərimizin (s) döyüşdə möminləri mələklərin köməyi ilə müjdələdiyi belə xəbər verilir:

> **"O zaman sən möminlərə deyirdin: "Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi?"**
>
> **Bəli, əgər səbir edib Allahdan qorxsanız, onlar qəzəblə üstünüzə gəldikləri zaman Rəbbiniz artıq beş min nişan qoyulmuş mələklə sizə yardım edər.**
>
> **Allah bunu sizin üçün məhz müjdə və qəlbləriniz rahat olsun deyə etdi. Kömək ancaq yenilməz qüdrət, hikmət sahibi olan Allahdandır ki, O, bununla kafirlərin bir hissəsini məhv etsin və ya onları məğlubiyyətə uğratsın. Belə ki, onlar naümid geri dönsünlər"** ***("Ali-İmran" surəsi, 124-127).***

Allah, ayələrdə də buyurduğu kimi, mələklərin köməyini insanlara bir müjdə və ürəklərə rahatlıq vəsiləsi kimi göndərib. Yoxsa şübhəsiz ki, Allahın heç bir səbəbə ehtiyacı yoxdur. Allah dilədiyi təqdirdə iman gətirməyənlərin

üzərinə göndərdiyi tək bir əzabla onları darmadağın edər. İstədiyi anda kafirləri və onların ordularını bir dəqiqə, bircə saniyə ərzində torpağa gömər. Həmçinin Quranda bir çox inkarçı qövmün heç gözləmədikləri bir anda ya tək bir səs, ya bir qasırğa, ya da başqa bir fəlakətlə qəfildən həlak olduqları, ya da altı üstünə çevriləcək şəkildə yerin altında qaldıqları bildirilib. Əlbəttə, Allah bütün bunlara gücü çatandır. Rəbbimizin belə şanlı və möcüzəvi qələbələr verməsi isə Peyğəmbərimiz (s) və onun yanındakı möminlər üçün böyük bir müjdə olub. Müharibədə baş verən möcüzələr və müsəlmanların cəsarəti təfsir alimləri tərəfindən təsvir edilib. Böyük alim Ömər Nəsuhi Bilmən müsəlmanların döyüşləri əsnasında meydana gələn möcüzələri və saleh möminlərin cəsarətini belə bildirir:

*İslam ordusu Qureyş müşrikləri ilə döyüşü nəzərə alaraq Bədir yerinə istiqamətləndi. Rəsulullah (s) baş verəcək döyüşdə düşmənlərindən öldürüləcək şəxslərin öldürüldükləri yerləri səhabələrinə göstərdi. Sonra da buyrulduğu kimi də oldu. Bu, bir möcüzə idi.*

*Nəhayət, Qureyş ordusu da gəlib Bədirin içməli su olan yerlərini zəbt etdi. Lakin ertəsi gün yağış yağdı, səhabələr bol suya qovuşdular, bu sıxıntıları da aradan qaldırıldı. Sonra döyüşə atıldılar. Düşmənlər müsəlmanlardan üç dəfə çox idi. Amma yenə də qorxurdular. Döyüş başladı. Müsəlmanlar cihadın, şəhidliyin mənəvi qiymətini bildikləri üçün qorxusuz, sevinc içində cihada başladılar. Bu əsnada Həzrəti Ömərin azad etdiyi Mihca şəhid oldu. Rəsulullah (s) "Mihca şəhidlərin əfəndisidir", - buyurdu.*[56]

*Allah Rəsulu (s) "Ey Rəbbim! Mənə vəd etdiyin qələbəni ehsan et!" deyə dua etdi və bir müddət sonra yüngülvari mürgülədi. Və qısa bir müddətdən sonra üzündə təbəssüm ayıldı. Yanında olan Həzrəti Əbu Bəkirə "Müjdə, Ey Əbu Bəkir! Budur, Cəbrail və əksər mələklər köməyə gəldilər", - deyə buyurdu. Sonra da zirehini geyindi və çadırından çıxdı. Sayı çox olan düşmən ordusuna bəzi urbanlıların da qatılacağı eşidilmişdi. Bəzi müsəlmanlar bundan sonra təşvişə düşmüşdülər. Bundan sonra Uca Allahın dərgahından mələklər vasitəsilə müsəlmanlara kömək ediləcəyi müjdəsi verildi. Rəvayətə görə, bu əsnada möhkəm külək əsdi və göz-gözü görmədi. Bu vəziyyət Həzrəti Cəbraillə mələklərin savaş meydanına girməsinə bir işarə idi. Mələklər ağ atlarda, ağ, sarı insanlar surətində görünüb və Bədir müharibəsində şəxsən iştirak ediblər.*

*Bu Bədir döyüşündə müsəlmanlara əvvəlcə min, sonra iki min, bundan sonra yenə də iki min mələk köməyə gəlib ki, bunların da cəmi ayədə də qeyd edildiyi kimi, beş min olub.*[57]

Allahın mələkləri Peyğəmbərimizin (s) və onun yanındakı insanların köməyinə çatdırması başqa ayələrdə belə xəbər verilir:

**"Siz Rəbbinizdən kömək diləyirdiniz. O: "Mən sizin imdadınıza bir-birinin ardınca gələn min mələklə çataram!" - deyə duanızı qəbul buyurmuşdu.**

**Allah bu köməyi sizə yalnız sizin üçün bir müjdə və ürəkləriniz sakit olsun deyə etmişdi. Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət, hikmət sahibidir!**

**O vaxt Öz tərəfindən arxayınlıq əlaməti olaraq Allah sizi xəfif bir mürgülətmiş, sizi təmizləmək, şeytanın vəsvəsəsini sizdən çıxartmaq, ürəklərinizi doldurmaq və ayaqlarınızın altını möhkəm etmək üçün göydən üstünüzə yağış yağdırmışdı"** ***("Ənfal" surəsi, 9-11).***

İmam Sabuninin təfsirində isə mələklərin köməyi bu cür tərif edilir:

*Allah "dalbadal gələn min mələklə sizə kömək edəcəyəm" deyərək onun duasını qəbul etdiyini bildirdi. Təfsirçilər belə deyir: Hədisdə bildirildiyinə görə, Cəbrail beş yüz mələk göndərdi və onlarla ordunun sağ cinahında döyüşdü. Mikayıl da bey yüz mələk göndərdi. Onlar da ordunun sol cinahında döyüşdü. Mələklərin Bədirdən başqa hər hansı bir müharibədə döyüşdüyü müəyyən edilməyib. Başqa döyüşlərdə mələklər müsəlmanların sayını çox göstərmək üçün enərdilər, amma döyüşməzdilər.*

*Allahın mələklərlə sizə kömək etməsi ancaq qələbəni müjdələmək üçündür. Bir də bu qələbə ilə ruhlarınız sakitlik tapsın deyə kömək etdi. Əslində qələbə ancaq Uca Allahın dərgahındandır. Onun köməyinə etibar edin. Öz gücünüzə və silahınıza güvənməyin. Şübhəsiz ki, Allah qalibdir, məğlub edilə bilməz. Hikməti nəyi zəruri edirsə, onu edər.*

*Yadınıza salın ki, Allah Özündən bir əminlik olaraq sizin yuxunuzu gətirirdi. Bu, Rəsulullahın (s) bir möcüzəsidir. Çünki qorxu anında hamını yuxu basmışdı. Hz.Əli belə deyir: Bədir günü bizdə Mikdaddan başqa at yox idi. Rəsulullahdan (s) başqa hamının mürgülədiyini gördüm. İbni Kəsir belə deyir: Möminlərin ürəklərinin Allahın yardımı ilə sakitləşib rahat olması üçün döyüşün ən şiddətli anında yuxulayan kimi olmuşdular. Üstünüzə göydən yağış yağdırırdı. Bu da Allahın saydığı başqa bir nemətdir. Hadisə belədir: Bədir müharibəsində müsəlmanlar susuz qaldılar. Bundan sonra Allah onların üzərinə elə bir yağış göndərdi ki, vadilərdən su axdı.*[58]

Allahın Peyğəmbərimizin (s) yanında mübarizələrdə iştirak edən möminlərin ürəklərini bir-birinə yaxınlaşdırması da başqa bir möcüzədir. Müxtəlif qövmlərdən, şəhərlərdən, tayfalardan, hətta bir-birinə düşmən kəsilmiş qəbilələrdən olan insanların eyni məqsəd uğrunda, Allahın razılığını qazanmaq üçün birlikdə hərəkət etmələri Allahın istəyi ilə həyata keçmişdi. Allah bir çox ayədə Peyğəmbərimizi (s) Öz yardımı və səmimi möminlərin dəstəyi ilə müjdələyib:

**"Əgər onlar səni aldatmaq istəsələr, sənə təkcə Allah kifayətdir. O, səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi.**

**Və onların ürəklərini birləşdirdi. Əgər sən yer üzündə nə varsa hamısını xərcləsəydin belə yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi, çünki O, yenilməz qüvvət, hikmət sahibidir.**

**Ey Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə təkcə Allah bəs edər"** ***("Ənfal" surəsi, 62-64).***

Allahın kömək etdiyi Peyğəmbərimiz (s) və möminlər nə qədər zəif və ağır vəziyyətdə olsalar da uğur qazanıblar, sayca çox olan imansızların əsgərləri üzərində qələbə çalıblar. Məkkəli müşriklər geniş texniki imkanlara və çoxlu əsgərə malik olmalarına baxmayaraq ilk baxışda mütləq qalib gəlmələri lazım olduğu halda Allahın bir möcüzəsi olaraq darmadağın ediliblər.

Allah möminlərə döyüşlərdə daha bir möcüzə yaşadıb, səbir edən bir adamın on nəfəri məğlub edəcəyini müjdələyib:

**"Ey Peyğəmbər! Möminləri döyüşə həvəsləndir. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar anlamayan bir tayfadır!**

**İndi Allah yükünüzü yüngülləşdirdi. Çünki O, sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə, min kişi olsa, iki min nəfərə Allahın iznilə qələbə çalar. Allah səbir edənlərlədir!"** ***("Ənfal" surəsi, 65-66).***

Allah başqa ayədə də Peyğəmbərimizə (s) və möminlərə kömək məqsədilə görünməyən ordularını göndərdiyini və onların vasitəsilə inkarçı müşriklərə əzab verdiyini xəbər verir:

**"Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınlıq nazil etdi, görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!"** ***("Tövbə" surəsi, 26).***

Allah Peyğəmbərimizə (s) və möminlərə möcüzələrlə kömək edərkən inanan insan etdikləri zülm və əziyyətlərə görə müşriklərə də görünməmiş bir cəza verib. Müşriklər heç gözləmədikləri bir şəkildə müsəlmanlara məğlub olublar.

Döyüş anında baş verənlər Ibn Kəsirin təfsirində belə bildirilir:

*Əbu Hureyrədən rəvayət edildiyinə görə, Allah Rəsulu (s): "Qorxu ilə mənə kömək edildi və mənə cəvamiul-kərim (bütün kərim olan şeylər) verildi", - buyurub. Buna görə də Uca Allah: "Sonra da Allah Öz Peyğəmbərinə və*

*möminlərə arxayınlıq nazil etdi, görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!", - buyurmuşdur.*[59]

Başqa bir təfsirdə isə iman gətirənlər səbir etdikləri təqdirdə iman gətirməyənlərin hiyləgər tələlərinin və məkrli planlarının puça çıxacağı belə açıqlanıb:

*Uca Allah bizdən olmayanların sirdaş edilməsini qadağan edəndən və bunun səbəblərini bildirəndən sonra biz mömin bəndələrinə müttəqi olub səbir etdiyimiz təqdirdə kafirlərin hiylə və məkrli planlarını puç edəcəyini vəd edir və biri Uhud günündə, digəri də Bədir günündə olmaqla mömin bəndələrini dost etdiyi iki vəziyyəti bizə nümunə göstərir. Bu iki gündə Uca Allah möminlərin səbirlərinə və təqvalarına görə onların düşmənlərinin hiylələrini və planlarını alt-üst etmişdi. Uca Allahın möminləri dost etdiyinə, düşmənlərinin də hiylə və tələlərini -səbir edib təqva sahibi olmaları halında- puça çıxarmasına iki misal kimi bu iki hadisənin verilməsinin dəlili bundan əvvəlki ayədə səbir və təqvanın zikr edilməsidir: "Səbir etsəniz və çəkinsəniz, onların hiyləsi sizə heç bir zərər verə bilməz".*[60]

# İnkarçıların az görünən orduları

Allahın bir möcüzəsi olaraq döyüşlərdə qalib gələnlər say etibarilə üstün və çox olanlar yox, möminlər olub. Peyğəmbərimiz (s) yanındakı möminlərlə birgə Allahın verdiyi ağıl, fərasət, uzaqgörənlik, gözəl əxlaq kimi nemətlərlə həmişə inkarçılar üzərində qələbə əldə ediblər. Bundan başqa, Allah bəzən möminləri iman gətirməyənlərin nəzərində say və güc etibarilə çox göstərdiyini, bunun da inkarçılarda vahiməyə və qorxuya səbəb olduğunu bildirib. Allah bir ayədə Peyğəmbərimizin (s) dövründə baş verən bu möcüzəni belə bildirmişdir:

**"İki dəstənin qarşı-qarşıya durmasında sizin üçün ibrət var. Bunlardan biri Allah yolunda vuruşanlar, digəri isə kafirlər idi. Onlardan ikiqat artıq olduqlarını öz gözləri ilə görürdülər. Əlbəttə, Allah istədiyinə Öz köməyi ilə qüvvət verər. Şübhəsiz ki, bu, bəsirət sahiblərindən ötrü bir ibrət dərsidir" *("Ali-İmran" surəsi, 13).***

"Ali-İmran" surəsindəki bu ayə "Cəlaleyin" təfsirində belə izah edilir:

*"Şübhəsiz ki, döyüşmək üçün Bədirdə qarşı-qarşıya gələn iki firqədə bir ibrət var. Bir qrup Allah yolunda, Ona itaət edərək döyüşürdü. Onlar Hz.Peyğəmbər (s) və yoldaşları olub 313 nəfər idilər və onlarla birlikdə iki at, altı zireh, səkkiz qılınc vardı. Əksəriyyəti də piyada idi. Digəri isə kafirlər idi.* ***Kafirlər 1000 nəfərə yaxın idi-müsəlmanların onlardan iki dəfə çox olduqlarını görürdülər. Allah müsəlmanlara onların sayının az olmasına baxmayaraq kömək etdi.*** *Uca Allah isə kömək etmək istədiyi şəxsə kömək edir. Şübhə yoxdur ki, bu zikr edilən şeydə bəsirət sahibi olan insanlar üçün bir ibrət var. Bunlardan da ibrət almayacaqsınız, iman gətirməyəcəksiniz?"*[61]

İbni Kəsirin təfsirində isə eyni ayə belə izah edilir:

*"Onlar digərlərinin onlardan ikiqat çox olduqlarını gözləri ilə görürdülər" ayəsi haqqında bəzi alimlər -Ibn Cəririn qeyd etdiyinə görə- deyirlər ki: Bədir günü müşriklər müsəlmanların say etibarilə onlardan ikiqat çox olduğunu görürdülər. Allah bunu müsəlmanların müşriklər üzərində qələbə qazanmasına səbəb edib. Şübhəsiz ki, burada tək bir yöndən şübhə var. Belə ki, müşriklər həmin gün döyüşdən əvvəl müsəlmanların sayını dəqiqləşdirmək üçün Ömər ibn Sədi göndərmişdilər. O da qayıdanda müsəlmanların sayının təxminən 300 nəfər olduğunu söyləmişdi. Həqiqətən də müsəlmanlar 310 nəfərdən ibarət idi. Amma müharibə başlayanda Allah müsəlmanlara 1000 mələyi köməkçi göndərmişdi.*[62]

Quranın bir çox ayəsində Allahın qorxub çəkinən bəndələrinə ən çətin və sıxıntılı kimi görünən vəziyyətlərdə Öz köməyini çatdırdığı, heç bir çarənin qalmadığı anlarda da mütləq bir çıxış yolu göstərəcəyi müjdələnib:

**"...Kim Allahdan qorxsa, Allah ona bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir..."** ***("Talaq" surəsi, 2-3).***

Allah Quranda iman gətirməyənlərin gözündə möminləri, möminlərin də bəzən gözlərində iman gətirməyənləri sayca olduğundan az gördüklərini bildirib. Bu da Quranda Allahın möminlərə yardımı və möcüzələrindən biri olaraq bildirilir. Allahdan bir möcüzə kimi döyüş əsnasında iki ordunun bir-birini sayca az görməsində bir çox hikmətlər var. Müsəlmanların özlərindən çox olan müşrik ordusunu olduğundan az görməsi onlar üçün böyük güc və ilham mənbəyi olub. İman gətirməyənlərin isə sayca onlardan daha az olan müsəlman ordusunu daha az görmələri onları tənbəlliyə sürükləyər, onlarda, hər necə olsa, qalib gələcəkləri fikrini yarada bilər. Şübhəsiz ki, bu, Allahın açıq bir möcüzəsidir. Səbəblər çərçivəsində heç bir ordunun sayı olduğundan daha az görünməz. Bir ordu yüz min əsgərdən ibarətdirsə, bu, hər yerdən eyni cür görünər. Çoxsaylı bir ordu aşağıdan da, qarşıdan da baxılsa çox görünəcəkdir. Dolayısı ilə ordunun sayının az görünməsi fövqəladə bir vəziyyətdir. Bu hadisədəki möcüzə Allahın Peyğəmbərimizə (s) və müsəlmanlara köməyinin təzahürlərindən biridir. Allah "Ənfal" surəsindəki ayələrdə Peyğəmbərimizə (s) və möminlərə göstərdiyi köməyi belə xəbər verir:

**"O zaman Allah röyanda sənə onları az göstərirdi. Əgər onları sənə çox göstərsəydi, mütləq qorxar və döyüş barəsində bir-birinizlə çənə-boğaz olardınız. Lakin Allah sizi salamat qurtardı. O, həqiqətən ürəklərdə olanları biləndir!**

**Üz-üzə gəldiyiniz zaman Allah olacaq işi yerinə yetirmək məqsədilə onları sizin gözünüzdə az göstərir, sizi də onların gözündə azaldırdı. Bütün işlər axırda Allaha qayıdacaqdır"** ***("Ənfal" surəsi, 43-44).***

Rəbbimizin möminlərə bu köməyi Sabuninin təfsirində belə bildirilir:

*Ey möminlər cəmiyyəti! Döyüşdə rastlaşdığınız dövrü xatırlayın. O vaxt onlara qarşı cəsarətiniz çoxalsın deyə Allah düşmənlərinizi gözünüzdə az göstərdi. Sizi də onların gözünə az göstərdi ki, döyüşə hazırlaşmasınlar. Bu görüntü yuxuda deyil, ayıqlıqda idi. İbn Məsud belə deyir: Bədir döyüşündə düşmən bizim gözümüzə o dərəcədə az göründü ki, mən bir adama: "Nə deyirsən, onlar yüzə yaxın varmı?", - deyə soruşdum. Bu, döyüş başlamamışdan əvvəl idi. Döyüş başlayanda Allah möminləri kafirlərin gözünə çox göstərdi. Kafirlər çaşıb qaldılar və qorxuya düşdülər. Gücdən düşdülər və əvvəlcədən nəzərdə tutmadıqları şeyləri gördülər. Bu, Allahın həmin döyüşdəki böyük möcüzələrindən idi. Allah bunu belə etdi. Kafirlərə qarşı savaşda möminlərə cəsarət verdi. Möminlərə qarşı da kafirlərə cəsarət verdi ki, döyüş olsun və Allah da Öz ordusuna kömək etsin, batili və batil ordunu darmadağın etsin, üstün olan Allahın kəlməsi, alçaq olan da kafirlərin sözü olsun. Bütün işlər Allaha qayıdır. Allah həmin işləri istədiyi kimi edir. Onun verdiyi hökmü heç kim poza bilməz. O, hikmət sahibidir və Ucadır.*[63]

İbn Kəsir isə "Ənfal" surəsindəki ayəni belə təfsir edir:

*...Uca Allah hər iki qrupu bir-birinə qarşı təhrik edib və həvəsləri artsın deyə birini digərinin gözündə az göstərib. Bu, onlar üz-üzə gəldikləri anda olub. Döyüş qızışıb Uca Allah inananları min mələklə dəstəkləyəndə kafirlər dəstəsi iman gətirənlərin onlardan iki dəfə çox olduğunu görüncə çaşıb qaldılar. Uca Allah bu məsələdə belə buyurur: "İki dəstənin qarşı-qarşıya durmasında sizin üçün ibrət var. Bunlardan biri Allah yolunda vuruşanlar, digəri isə kafirlər idi. Onlardan ikiqat artıq olduqlarını öz gözləri ilə görürdülər. Əlbəttə, Allah istədiyinə Öz köməyi ilə qüvvət verər. Şübhəsiz ki, bu, bəsirət sahiblərindən ötrü bir ibrət dərsidir." ("Ali-İmran" surəsi, 13).*[64]

Peyğəmbərimizin (s) dövründə müsəlmanların yaşadığı möcüzələrdən biri də insanların toplum halında onlara qarşı durmağından qorxub çəkinməmələri olmuşdur. Ayədə inkarçıların zərər vermək məqsədilə bir çox güclü adamları toplayaraq azlıqda olan müsəlmanları təzyiq altına almağa çalışdıqlarına işarə edilir. Belə çətin vəziyyətlərdə möminlər könüldən Allaha üz tutaraq Ona təvəkkül ediblər. Beləliklə, onlar Allahın himayəsi və dəstəyi sayəsində heç bir zərər görmədən böyük nemətlərlə qayıdıblar, bolluq və bərəkətə qovuşublar.

Allah Quranda möminlərin içində olduğu bu möcüzəni belə bildirir:

**“O kəslər ki, xalq onlara: "Camaat sizə qarşı toplanmışdır, onlardan qorxun!" - dedikdə onların imanını daha da artırdı və onlar: "Allah bizə bəs edər. O, nə gözəl vəkildir!" - deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və Allahın razılığını qazanmış oldular. Həqiqətən Allah böyük mərhəmət sahibidir” *(“Ali-İmran” surəsi, 173-174)*.**

Allaha tam surətdə etibar edən və həmişə Ona təslim olan Peyğəmbərimiz (s) və onunla birlikdə olan möminlər həmişə Quran əxlaqına uyğun yaşamışlar, hər işdə Allahın razılığını qazanmağı qarşılarına məqsəd qoymuşlar. Bunun əvəzində də onlar Allahdan gələn əmin-amanlıq və rahatlıq hissinə qovuşmuş, ən çətin şərtlər daxilində də böyük sərvət və qənimətlər əldə edərək gözəl bir həyat yaşamışlar.

# PEYĞƏMBƏRİMİZƏ (S.Ə.V.) VERİLƏN QEYB XƏBƏRLƏRİ

Qeybi ancaq üstün gücə malik olan Allah bilir. Keçmiş və gələcək olan hər hadisənin bilgisi bütün təfərrüatı ilə Allahın dərgahındadır. Bu həqiqət Quranda belə xəbər verilir:

> **"Qeybin açarları Onun yanındadır. Onları ancaq O bilir. Allah suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, Allah onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın!"** ***("Ənam" surəsi, 59).***

Zamanı yaradan və insanlara bu qavrayışı öyrədən Allahdır. Allahın Uca Zatı zamandan kənardır. Dünyadakı canlı və ya cansız varlıqlara aid bütün məlumatlar keçmişləri və gələcəkləri ilə birgə Rəbbimizin yanında mövcuddur. Kainatda və bütün başqa aləmlərdə baş verən hər bir hadisə Allahın elmi daxilində və Onun nəzarətindədir. O, gizli olanın gizlinini də bilir. Peyğəmbərimiz (s) də qeybə ancaq Rəbbimizin istədiyi qədər yiyələnə bilib, əlbəttə, bu da onun möcüzələrindən biri olub. Allah Quranda elçilərindən seçdiklərinə Öz dərgahında olan qeyb bilgisindən verdiyini belə bildirir:

> **"Qeybi bilən ancaq Odur və Öz qeybini heç kəsə əyan etməz. Bəyənib seçdiyi peyğəmbərdən başqa! Çünki Allah onların önündə və arxasında gözətçilər qoyar"** ***("Cinn" surəsi, 26-27).***

Peyğəmbərimiz Hz.Muhəmməd (s) də Allahın ona qeybdən xəbərlər verdiyi, Rəbbimizin yanında çox seçilmiş bir elçidir. Quranda bildirildiyi kimi, bu cür elçilərdən biri də Hz.Yusifdur. Hz.Yusif zindanda ikən Allahın varlığının dəlillərini iki yoldaşına belə söyləmişdir:

> **"Dedi: "Yeyəcəyiniz təam gəlməmişdən əvvəl mən onun mənasını sizə xəbər verərəm. Bu, Rəbbimin mənə öyrətdiyi elmlərdəndir. Mən Allaha inanmayan və axirəti də inkar eləyən bir tayfanın dinini tərk etdim!"** ***("Yusuf" surəsi, 37).***

Bu, Allahın Hz.Yusifə verdiyi bir elm və möcüzədir. Allah Hz.Yusifə yuxuları izah edə bilmək, yuxu yozmaq elmini də vermişdi. Hz.Yusif -Allahın istəyi ilə- gələcəkdə olacaq bəzi hadisələri əvvəlcədən bilib. Hz.Yusifə verilən elmin bir oxşarı başqa peyğəmbərlərə də verilib. Quranda Hz.İsanın da Rəbbimizin köməyi və izni ilə bu elmə yiyələndiyi xəbər verilib. Ayədə belə buyrulur:

> **"Və onu İsrail övladına peyğəmbər göndərəcək. O, İsrail oğullarına deyəcək: "Mən, həqiqətən, Rəbbinizdən sizə möcüzə ilə gəlmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın iznilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri dirildərəm. <u>Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm.</u> Əgər inanmışsınızsa, bunda sizin üçün bir dəlil vardır"** ***("Ali-İmran" surəsi, 49).***

Ayədə də qeyd edildiyi kimi, Hz.İsa da insanların nələr yediklərini, yaxud da nələri yığıb gizlətdiklərini bilməyə imkan verən bir elmlə nemətləndirilmişdi. Hz.İsanın özündən sonra gələcək və adı "Əhməd" olan bir peyğəmbəri müjdələməsi də Quranda xəbər verilir (bax: "Səff" surəsi, 6). Rəbbimiz Peyğəmbərimizə (s) də qeybə dair bir çox xəbərlər vermişdi. Peyğəmbərimiz (s) həm keçmişdə baş verən və heç kimin bilmədiyi hadisələri, həm də gələcəkdə baş verəcək bir çox olayları Allahın ona bildirməsi ilə öyrənmişdi. Bir ayədə Allah bu həqiqəti belə xəbər verir:

> **“Bu, sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Onlar hiylə quraraq əlbir iş gördükləri zaman sən ki onların yanında deyildin!”** ***(“Yusuf” surəsi, 102).***

Peyğəmbərimiz (s) qeyb məlumatlarını öz qabiliyyəti ilə və özünəxas özəlliklə əldə etməmişdi. O, yalnız Allahın istədiyi qədər qeybdən ona verdiyi xəbərləri ətrafındakılara təbliğ etmişdi. Hər şeyi bilən Allahın Öz elçisinə verdiyi məlumatlar isə keçmişdə baş vermiş, yaxud da gələcəkdə mütləq baş verəcək hadisələrə işarə edir. Bu da Peyğəmbərimizin (s) bildirdiyi bu məlumatların hər birinin möcüzə mahiyyətində olduğunu göstərir. Ancaq Allahın bildirməsi ilə bəlli ola biləcək xəbərləri Peyğəmbərimiz (s) həyatı boyunca dəfələrlə insanlara çatdırıb. Hz.Muhəmmədin (s) həm keçmişlə, həm içində yaşadığı dövrlə, həm də gələcəklə bağlı xəbərlərə vaqif olması, Rəbbimizdən qeyblə bağlı bilgilər alması da peyğəmbərliyinin dəlillərindəndir. Allahın ona verdiyi bir çox elmlə birlikdə Peyğəmbərimizin (s) göstərdiyi təvazökarlıq və itaət isə Quranda belə bildirilir:

> **“De: "Mən Allahın istədiyindən başqa özümə nə bir xeyir, nə də bir zərər verə bilərəm. Əgər qeybi bilsəydim, sözsüz ki, daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən iman gətirən bir tayfanı ancaq qorxudan və müjdələyənəm!"“** ***(“Əraf” surəsi, 188).***

Allahın müqəddəs peyğəmbəri Hz.Muhəmməd (s) həm Quran ayələri ilə, həm də özəl olaraq ona gələn vəhy nəticəsində keçmişlə, yaşadığı dövrlə və gələcəklə bağlı bilgilər almış, Allahın istəyi ilə bir çox məsələlərdə heç kimin bilməyəcəyi qeyb bilgisinə malik olmuşdu. Çətin anlarda bu elm sayəsində müsəlmanları qələbə ilə müjdələmişdir. Bundan başqa da çoxlu müjdələr verərək onların şövqünü artırmışdır. Peyğəmbərimizin (s) müsəlmanlara əvvəlcədən müjdəsini verdiyi bu hadisələr bir möcüzə olaraq, ardıcıllıqla gerçəkləşmişdir.

Peyğəmbərimizin (s) 1400 il əvvəl xəbər verdiyi və içində yaşadığımız dövrdə də baş vermiş bir çox hadisələr var. “Kütubi-Sittə” hədisçiləri Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbni Macə və bir çox digər hədisçi Peyğəmbərimizdən (s) nəql edilən hədislərdəki qeyb xəbərlərinin doğru olması məsələsində həmfikirdirlər. Həmçinin Peyğəmbərimizin (s) xəbər verdiyi qeyb bilgilərinin hər biri həyata keçib və gerçəkləşməkdə də davam edir, insanlar isə bu möcüzələrə şahid olurlar.

# Peyğəmbərimizin (s) möcüzəsi: qeyb bilgisi

İman gətirməyənlər Peyğəmbərimizin (s) ona vəhy edilən Quranı insanlara təbliğ etməyə başlamasından etibarən bu müqəddəs insanı düz danışmamaqda ittiham ediblər. Onun verdiyi hər məlumata şübhə ilə yanaşıblar. Ona inanmaq istəməyiblər. Halbuki Peyğəmbərimizin (s) dürüst və etibarlı insan olması onun üzündən və yaşadığı həyat tərzindən asanlıqla duyulurdu. Həyatı boyunca hər kəsin bir ağızdan “əl-Əmin” (etibarlı) adlandırdığı və bu cür çağırılan bir insan olmasına baxmayaraq kafirlər onun dəvət etdiyi haqq yola tabe olmamaq üçün yalanlarına davam etmişlər.

Peyğəmbərimizə (s) bir-birindən pis və amansız böhtanlar atan inkarçılar bir insanın həyatı boyunca hər an düz danışmamasının qeyri-mümkün olduğunu nəzərdən qaçırıblar. Bir adamın ömrünün axırına kimi fasiləsiz şəkildə doğru danışmaması və buna uyğun yaşaması mümkün deyil. Bundan başqa, Peyğəmbərimiz (s) gecə-gündüz ibadət edən, çox böyük fədakarlıqlar göstərən, çox səbirli, üstün əxlaqlı, aləmlərə mərhəmət olan bir insan olmuşdur. Ətrafındakı insanlardan daha az yatan, böyük cəsarətlə hər döyüşə gedən, ön sıralarda savaşan Peyğəmbərimiz (s) ölüm təhdidi altında olarkən də insanlara haqq olan həqiqətləri çatdırmağa davam etmişdir.

Quran əxlaqını özündə ən gözəl şəkildə yaşadan və möminlərə nümunə olan həmişə Peyğəmbərimiz (s) olmuşdur. Allah Rəsulu (s) insanlara sədəqəni başa salmış, özü hər şeyini sədəqə kimi paylamış, canını və malını Allahın razılığını qazanmaq üçün ortaya qoymuşdur. Səbri, fədakarlığı, həqiqi sevgi və dostluğu insanlara anlatmaqla bu gözəl əxlaq xüsusiyyətlərini mümkün ola biləcək ən ideal formada özündə yaşatmışdır. Yenə insanlara mərhəmətli olmağı,

bağışlamağı tövsiyə etmiş, həyatı boyunca bunların da ən ardıcıl təbliğatçısı və müdafiəçisi olmuşdur. İman gətirməyənlərin belə bir müqəddəs peyğəmbərə böhtan atarkən bunlar barədə fikirləşməsi lazım idi.

Bir yalanı ömür boyu büruzə vermədən davam etdirmək insan təbiətinin gücünün çatacağı bir şey deyil. Bir-biri ilə harmoniya içində minlərlə ayə ilə ziddiyyət təşkil etməyəcək şəkildə yaşamaq və bütün ömrü boyunca bu ayələrə bağlı olaraq yalan danışmaq da bir insan üçün əsla mümkün deyil. Həmçinin yalan danışan adam bunları niyə davamlı şəkildə ömrünün axırına kimi etsin? İnsanların axirətlərinə, hidayətlərinə səbəb ola bilmək üçün öz həyatını nəyə görə təhlükəyə atsın? Bundan başqa, yalan danışan bir adamın dediyi hər şeyin belə böyük bir hikmət daşıması mümkündürmü? Yenə hər dediyinin ədəbi yöndən də mükəmməl olub, özündə bəzi rəqəmli şifrələri ehtiva etməsi və 23 il boyunca dediklərinin hamısının bir-biri ilə ədəbi, riyazi, elmi uyğunluğu, hər birinin hikmətli olub insanın vicdanən cavabını axtardığı bütün suallara cavab verməsi, özündə sosial həyata dair hökmlərin ehtiva etməsi və qüsursuz olması mümkündürmü? Həmçinin düz danışmayan adamın bir gün mütləq bir-birinə uyğun gəlməyən ziddiyyətli fikirlər söyləməsi qaçılmazdır. Halbuki Peyğəmbərimizin (s) hər dediyi düz çıxmış, bunlara müsəlmanlardan və inkarçılardan da bir çox insanlar şahid olmuşlar.

Şübhəsiz ki, bütün peyğəmbərlərə verilən möcüzələrin hər biri çox əhəmiyyətlidir. Lakin Peyğəmbərimizin (s) bəzi möcüzələrinə böyük kütlələrin şahid olması onu bu cəhəti ilə başqa peyğəmbərlərdən fərqləndirir. Məsələn, Hz.İsa ölən bir insanı dirildəndə və ya bir xəstəni sağaldanda yalnız orada olanlar bu möcüzələrə şahid ola bilərdi. Və ya Hz.Musanın möcüzələrinə də yalnız Firon, onun xalqı və İsrail oğulları şahid ola bilərdi (Ən doğrusunu Allah bilir). Peyğəmbərimiz (s) isə müharibə olacağını, bundan sonra qələbə əldə ediləcəyini söyləyəndə buna və sonra da bəhs edilən döyüşə şahid olanlar bütün tayfa idi. Bu möcüzələrə on minlərlə, hətta yüz minlərlə insan şahid olmuşdur.

# Bizansın qələbəsi

Quranda gələcək haqqında verilən xəbərlərdən biri "Rum" surəsinin əvvəlindəki ayələrdə yer alır. Bu ayələrdə Bizans imperatorluğunun bir məğlubiyyətə məruz qaldığı, amma çox qısa bir müddətdən sonra onun yenidən qalib gələcəyi belə bildirilib:

> **"Əlif, Lam, Mim! <u>Rumlular (bizanslılar) məğlub oldular. Dünyanın ən aşağı yerində. Lakin onlar məğlubiyyətlərindən sonra qalib gələcəklər.</u> Üç-doqquz il arasında... Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər"** ***("Rum" surəsi, 1-4).***

Bu ayələr xristian rumların 613-614-cü illərdə bütpərəst iranlılara çox ağır şəkildə məğlub olmasından təxminən 7 il sonra - 620-ci illərdə göndərilmişdi.

Ayələrdə Bizansın çox yaxın vaxtlarda qalib gələcəyi xəbər verilirdi. Halbuki həmin vaxt Bizans o qədər itki vermişdi ki, onun yenidən qalib gəlməsi hələ bir tərəfə dursun, özünün hətta ayaq üstə qalması imkan xaricində olan məsələ kimi görünürdü. İranlılar bizanslıları 613-ci ildə Antakyada məğlub edərək qələbələrini Şam, Kilikiya, Tarsus, Ermənistan və Qüdsü ələ keçirməklə davam etdirmişdilər. Xüsusilə 614-cü ildə Qüdsün əldən çıxması, Müqəddəs Məzar Kilsəsinin dağıdılması bizanslılara ağır zərbə olmuşdu.[65]

O dövrdə təkcə iranlılar deyil, həm də avarlar, slavyanlar və lombardlar Bizans imperatorluğu üçün böyük təhlükə idi. Avarlar İstanbul qapılarına qədər gedib çıxmışdılar. Bizans kralı Herakl ordunun xərcini ödəyə bilmək üçün kilsələrdəki qızıl və gümüş bəzək əşyalarını əridib pula çevirməyi əmr etmişdi. Hətta bunlar da kifayət etmədiyindən pul əldə etmək üçün bürünc heykəllər də əridilmişdi. Valilərin əksəriyyəti Herakla qarşı üsyan qaldırmış, imperatorluq parçalanmaq həddinə gəlib çatmışdı. Əvvəllər Bizans torpağı olan Mesopotamiya, Kilikiya, Suriya, Fələstin, Misir və Ermənistan bütpərəst iranlıların işğalı altına düşmüşdü.[66]

Qısası, hamı Bizansın məhv olmasını gözləyirdi. Lakin bu dövrdə "Rum" surəsinin ilk ayələri vəhy edildi və Bizansın uzağı 9 il ərzində iranlılara təkrarən qalib gələcəyi xəbər verildi. Bu qalibiyyət o qədər uzaq, o qədər qeyri-mümkün görünürdü ki, ərəb müşrikləri də Quranda xəbər verilən bu zəfərin heç vaxt baş verməyəcəyini fikirləşirdilər. Ancaq Quranın bütün xəbərləri kimi bu da şübhəsiz ki, baş verdi. 622-ci ildə Herakl Ermənistanı işğal edib iranlıları məğlub edərək müxtəlif qələbələr qazandı.[67] 627-ci ilin dekabr ayında Bağdadın yaxınlığında, Dəclə çayının 50 km şərqində yerləşən Ninova xarabalıqlarından azca aralıda Bizans və Sasani imperatorluqları arasında böyük müharibə oldu. Bu dəfə rumlular iranlıları məğlub etdilər. Bir neçə aydan sonra isə iranlılar işğal etdikləri yerlərin Bizansa qaytarılması barədə bağlanmış müqaviləyə qol çəkmək məcburiyyətində qaldılar.[68]

Rumluların qələbəsi 630-cu ildə imperator Heraklın Sasani hökmdarı II Xosrovu məğlub edərək Qüdsü geri qaytarması və Məzar Kilsəsinin yenidən xristianların nəzarəti altına keçməsi ilə nəticələndi.[69]

Beləliklə, Allahın Quranda bildirdiyi və Peyğəmbərimizin (s) insanlara təbliğ etdiyi "rumluların qalibiyyəti" ayədəki “üç-doqquz il arasında” ifadəsi ilə diqqət çəkilən vaxt aralığında və möcüzəvi bir şəkildə baş verdi.

Bu ayələrdə yer alan başqa bir möcüzə isə coğrafiya ilə bağlı olan və həmin dövrdə heç kimin bilə bilməyəcəyi bir həqiqətin xəbər verilməsidir.

"Rum" surəsinin 3-cü ayəsində rumluların **"dünyanın ən aşağı yerində"** məğlub edildikləri bildirilir. Ərəb dilində "ədna əl-ard" olan bu ifadə Quranın bəzi tərcümələrində "ən yaxın bir yer" kimi də verilir. Ancaq bu tərcümə əsl ifadənin tam əvəzi deyil, onun məcazi bir şərhidir. "Ədna" kəlməsi ərəb dilində "aşağı" demək olan "dəni" kəlməsindən törəyib və "ən aşağı" mənasını daşıyır. "Ard" isə "yer üzü, dünya" deməkdir. Dolayısı ilə "ədna əl-ard" ifadəsi "dünyanın ən aşağı yeri" mənasını verir.

Bəzi təfsirçilər sözügedən ərazinin ərəblərə yaxınlığını nəzərə alaraq kəlmənin "ən yaxın" mənasını qəbul ediblər. Ancaq kəlmənin əsl mənası Quranın göndərildiyi dövrdə heç kimin bilmədiyi və bilməsi də mümkün olmayan çox mühüm bir geoloji reallığa işarə edir. Çünki dünyanın ən aşağı yerini müəyyən etməyə çalışanda görəcəyik ki, bu nöqtə məhz rumluların 613-614-cü illərdə məğlub olduqları yerlərdən biri olan Ölü Dənizin (Dead Sea, Lut gölü) sahilləridir. Bu məğlubiyyətin ən ağır zərbəsi isə əvvəl də qeyd etdiyimiz kimi, xristianlığın rəmzi sayılan Ölü Dənizin yaxınlığındakı Qüdsün itirilməsidir.

Ölü Dəniz isə dəniz səviyyəsindən 399 metr aşağıda yerləşir və yer üzünün lən aşağı” bölgəsidir.[70]

Burada ayrıca diqqət yetirilməli olan digər mühüm məsələ Ölü Dənizin ölçülərinin və fiziki-coğrafi parametrlərinin, yəni onun dərinliyinin, dəniz səviyyəsindən aşağı-yuxarı olmasının yalnız müasir dövrdəki texniki vasitələrin köməyi ilə dəqiqləşdirilməsidir. Əvvəllər heç kim Ölü Dənizin dünyanın ən aşağı yeri olduğunu bilmirdi və bunu bilməsi də mümkün deyildi. Lakin bu bölgə Quranda **"dünyanın ən aşağı yeri"** kimi təqdim edilir. Bu məlumat Quranın Allahın sözü olmasının başqa bir dəlilidir və Allahın Peyğəmbərimiz Hz.Muhəmmədə (s) nəsib etdiyi çox böyük bir möcüzədir.

# Məkkənin fəthi

> **"And olsun ki, Uca Allah öz Peyğəmbərinin röyasının çin olduğunu təsdiq etdi. Əgər Allah istəsə, siz əmin-amanlıqla, saçlarınızı qırxdırmış, qısaltmış halda və qorxmadan Məscidül-hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan əlavə tezliklə bir qələbə də bəxş edəcəkdir"** ***("Fəth" surəsi, 27).***

Peyğəmbərimiz (s) Mədinədə gördüyü yuxusunda möminlərin əmin-amanlıqla Məscidül-hərama daxil olmalarını və Kəbəni təvaf etmələrini görmüş və möminləri bu xəbərlə müjdələmişdi. Çünki Məkkədən Mədinəyə hicrət edən möminlər o gündən bəri Məkkəyə gedə bilmirdilər.

Allah Peyğəmbərimizə (s) Öz dərgahından bir kömək və yardım olaraq "Fəth" surəsinin 27-ci ayəsini vəhy edib və onun röyasının həqiqət olduğunu, əgər Allah istəsə, möminlərin Məkkəyə daxil olacaqlarını bildirmişdir. Həqiqətən də bir müddət sonra, əvvəlcə Hudeybiyyə müqaviləsi, onun ardınca isə Məkkənin fəthi ilə müsəlmanlar, eynilə ayədə bildirildiyi kimi, əmin-amanlıqla Məscidül-hərama daxil olublar. Beləliklə, Allah Peyğəmbərimizə (s) ilham etdiyi müjdənin həqiqət olduğunu göstərmişdir.

Buxari Məkkənin fəth edilməsi haqqında İbni Abbasın belə dediyini rəvayət edir:

*İbni Abbas: **“Quranı (oxumağı və təbliğ etməyi yaxud hökmlərinə əməl etməyi) sənə vacib buyuran Allah qayıdacağın yerə səni yenə də qaytaracaqdır..." (“Qəsəs” surəsi, 85)** mənasındakı ayədə ifadə edilən qaytarılacaq yerin **Məkkə** olduğunu söyləyərdi”.*[71]

Ancaq burada diqqəti çəkən başqa bir mühüm cəhət də var. "Fəth" surəsinin 27-ci ayəsinə diqqət yetirsək, Məkkənin fəth edilməsindən əvvəl gerçəkləşəcək başqa bir fəthdən də bəhs edildiyi məlum olacaq. Həmçinin ayədə xəbər verildiyi kimi, müsəlmanlar əvvəlcə yəhudilərin əlində olan Xeybər qalasını fəth edib, sonra da Məkkəyə daxil olublar.[72] "Fəth" surəsinin 27-ci ayəsi məşhur “Cəlaleyin” təfsirində belə izah edilir:



*And olsun ki, Allah Peyğəmbərinə(s) həmin yuxunu doğru göstərdi. Rəsulullah (s) Hudeybiyyə müqaviləsi bağlanan il səfərə çıxmamışdan əvvəl yuxusunda özünün də, səhabələrinin də əmin-amanlıq içində, saçlarını kəsdirərək Məkkəyə girdiklərini görmüş və bunu da səhabələrinə xəbər vermişdi. Onlar da sevinmişdilər. Yanındakı səhabələrlə birlikdə çıxdılar. Kafirlər Hudeybiyyə adlanan yerdə qarşılarına çıxıb onları Məkkəyə getməyə qoymayanda bu, müsəlmanlara çox ağır gəldi. Bəzi münafiqlər isə şübhələnməyə başladılar. Bu ayə həmin vaxt nazil oldu. “And olsun ki, Uca Allah öz Peyğəmbərinin röyasının çin olduğunu təsdiq etdi. Əgər Allah istəsə, siz əmin-amanlıqla, saçlarınızı qırxdırmış, qısaltmış halda və qorxmadan Məscidül-hərama daxil olacaqsınız. Allah sizin bilmədiklərinizi bilir. O, bundan əlavə tezliklə bir qələbə də bəxş edəcəkdir”. Bu da Xeybərin fəth edilməsi idi. Və yuxu ertəsi il reallaşdı.*[73]

Peyğəmbərimiz (s) hicrətin 8-ci ilində Məkkəyə daxil olaraq bu şəhəri fəth edib. Peyğəmbərimiz (s) möminlərə bu müjdələri verəndə mövcud vəziyyət heç də istənilən səviyyədə deyildi. Hətta mövcud şərait deyilənlərin tam əksini göstərirdi, müşriklər möminləri Məkkəyə girməyə əsla qoymayacaqlarında israr edirdilər. Bu isə qəlbində xəstəlik olanların Peyğəmbərimizin (s) dediklərinə şübhə ilə yanaşmasına səbəb olmuşdu. Ancaq Peyğəmbərimiz (s) Allaha etibar edərək və insanların nə deyəcəyinə əhəmiyyət verməyərək Allahın ona bildirdiyinə iman gətirmiş və bunu insanlara açıqlamışdır. Rəbbimizin Peyğəmbərimizə (s) verdiyi bu qeyb xəbərinin həyata keçməsi isə milyonlarla insanın şahid olduğu çox böyük bir möcüzədir.

# Peyğəmbərimizin (s) verdiyi başqa qeyb xəbərləri

## Misirin fəth edilməsi

*“Siz Misiri fəth edəcəksiniz. Ora (pula) “kirat” deyilən yerdir. Həmin yerin xalqına xeyir tövsiyə edin. Onların bir zimmilik, bir də rəhim haqqı var”.*[74]

Peyğəmbərimiz (s) bu hədislərində Misirin fəth ediləcəyini müjdələyir. Allah Rəsulu (s) bu müjdəni verəndə Misir romalıların hakimiyyəti altında idi. Heç müsəlmanların da çox böyük gücləri yox idi. Ancaq Peyğəmbərimizin (s) bu sözləri öz təsdiqini tapdı. Onun vəfatından bir müddət sonra, Hz.Ömərin (r.a.) xəlifəliyi dövründə, 641-ci ildə Amr ibn Asın rəhbərliyi altında hərəkət edən müsəlman ordusu Misiri fəth etdi.[75] Bu hadisə Peyğəmbərimizin (s) söylədiyi və deyildiyi şəkildə də baş verən qeyb xəbərlərindən biridir.

## <u>Roma və İran torpaqlarının fəthi</u>

> *"Kisranın ölümündən sonra başqa Kisra olmayacaq. Qeysər də öləndən sonra başqa Qeysər yoxdur. Nəfsim əlində olan Allaha and olsun ki, siz hər ikisinin də xəzinələrini Allah yolunda xərcləyəcəksiniz".*[76]

Hədisdə qeyd edilən "kisra" sözü keçmişdə İran hökmdarları üçün işlədilən bir isimdir. Qeysər sifətindən isə Roma imperatorları üçün istifadə edilirdi. Peyğəmbərimiz (s) hədislərində hər iki hökmdarın malik olduğu xəzinənin müsəlmanlara qalacağını müjdələyib.

Burada diqqəti cəlb etməli olan məsələ Peyğəmbərimizin (s) bu xəbəri müjdələdiyi dövrdə müsəlmanların hərbi, iqtisadi və siyasi cəhətdən bu cür böyük bir fəthi həyata keçirməyə hələ güclərinin olmaması idi. Həm də bu dövrdə İran və Bizans imperatorluqları da ən güclü dövlətlər idi. Dolayısı ilə Peyğəmbərimiz (s) bu iki fəthi xəbər verəndə siyasi və hərbi imkanlar buna uyğun səviyyədə deyildi. Ancaq Peyğəmbərimizin (s) xəbər verdiyi bu hadisələr deyilən şəkildə və tam dəqiqliyi ilə baş verdi. Hz.Ömərin dövründə İran fəth edildi və bu fəthlə də Kisraların səltənəti tarix səhnəsindən silindi.[77]

Qeysərin ölümü və onun xəzinələrinin müsəlmanlara qalması isə müsəlmanların Rəşidi xəlifələr dövründə Roma imperatorluğuna məxsus strateji mərkəzləri fəth etmələri ilə başlayıb. Hz.Əbu Bəkirin dövründən başlayaraq Qeysərin hakimiyyəti altında olan Iordaniya, Fələstin, Şam, Qüds, Suriya, Misir kimi mühüm mərkəzlərin hər biri fəth edilmişdi. İstanbulun 1453-cü ildə Osmanlı hökmdarı Fateh Sultan Mehmet tərəfindən fəth edilməsi və Roma imperatorluğunun dağılması ilə birlikdə Qeysər adı da tarixə qovuşdı.[78] Beləliklə, Peyğəmbərimizin (s) dövründə siyasi və iqtisadi cəhətdən imkan xaricində görünən bu mühüm fəthlər Allahın Hz.Muhəmmədə (s) bəxş etdiyi bir möcüzə olaraq baş vermişdir.

# Peyğəmbərimizin (s) İran Kisrasının ölümünü xəbər verməsi

Peyğəmbərimiz (s) həyatı boyunca bir çox hökmdar və rəhbərlərə elçilər və məktublar göndərərək təbliğini onlara da çatdırmış, onları haqq və doğru olana tabe olmağa dəvət etmişdir. Tarixi mənbələrdə qeyd edildiyi kimi, bəziləri Peyğəmbərimizin (s) bu dəvətini qəbul etmiş, digərləri isə inkar etməklə müşriklərlə, münafiqlərlə və başqa kafirlərlə işbirliyi qurmuşlar. Peyğəmbərimizin (s) İslama dəvət etdiyi hökmdarlardan biri də o dövrün İran Kisrası Pərviz İbni Hörmüz olmuşdur. Hz.Muhəmməd (s) Abdullah ibn Huzeyfəni ona elçi göndərmişdi. Ancaq İbni Hörmüz Peyğəmbərimizin (s) təbliğindən üz döndərmiş və müsləmanlara qarşı düşmən kimi davranmışdı. İbni Hörmüz Allah Rəsuluna (s) iki elçi göndərib müsəlmanların ona təslim olmalarını tələb etmişdi. Peyğəmbərimiz (s) isə əvvəlcə bu iki elçini İslama dəvət etmiş, sonra isə hər ikisinə səhərisi gün qərarını bildirəcəyini söyləmişdir.[79] Səhərisi gün Peyğəmbərimiz (s) elçilərə Allahın ona bildirdiyi bu xəbəri çatdırmışdır:

> ***"Uca Allah Kisranın oğlu Şirəveyhi onun başına bəla etdi. Şirəveyh onu bu ayda, filan gecədə və gecənin də bu vaxtında öldürdü".***[80]

Peyğəmbərimiz (s) onlara həmçinin belə demişdir:

*Bazana (Kisranın vasitəçi kimi elçi göndərməsini əmr etdiyi vali) deyin ki:* ***"Mənim dinim və hakimiyyətim Kisranın mülkünün və səltənətinin gedib çıxdığı yerə qədər çatacaqdır". Yenə ona deyin: "Əgər sən müsəlman olsan, hazırda idarə etdiyin yerləri sənə verəcəyəm, səni əbnalardan (Cənubi Ərəbistanda məskunlaşan iranlılar) ibarət olacaq xalqa hökmdar edəcəyəm".***[81]

Bundan sonra elçilər Yəmənə qayıdaraq Peyğəmbərimizin (s) təbliğini vali Bazana çatdırdılar. Eşitdiklərindən çox təsirlənən Bazan bunu *"Bu, hökmdar sözü deyil. Elə güman edirəm ki, bu şəxs dediyi kimi bir peyğəmbərdir"*[82] sözləri ilə ifadə etdi. Sonra da adamlarından onun necə bir şəxsiyyət olduğunu soruşdu. Peyğəmbərimizin (s) əzəmətindən çox təsirlənən elçilər: *"Biz ondan daha əzəmətli və heybətli, heç bir şeydən qorxmayaraq mühafizəsiz gəzən bir hökmdar görmədik. O, xalq arasında təvazökaranə və piyada gəzib-dolaşırdı"* dedilər.

Bazan bir müddət gözləyib Peyğəmbərimizin (s) Kisra haqqında dediklərinin düz çıxıb-çıxmayacağını görmək istədi. Beləliklə, Peyğəmbərimizin (s) Allahın elçisi olduğuna tam əmin olacağını bildirdi. Hədislərə və tarixi mənbələrə görə, aradan bir müddət ötəndən sonra Kisranın oğlu Şirəveyhdən Bazana belə bir məktub gəldi:

*"Mən Kisranı öldürdüm. Bu məktubum sənə gələndə mənim adımdan xalqın biətini al. Kisranın sənə yazdığı şəxs haqqında da yeni bir əmrim gələnə kimi gözlə və heç bir təşəbbüs göstərmə".*[83]

Bazan və adamları Kisranın öldürüldüyü günü hesablayandan sonra bu olayın Peyğəmbərimizin (s) bildirdiyi vaxtda gerçəkləşdiyini gördülər.[84] Bazan bu böyük möcüzəni görəndən sonra iman gətirdi və müsəlman oldu. Bundan sonra Yəməndə məskunlaşan əbnalar da müsəlman oldu.[85] Bazan Peyğəmbərimizə (s) İran valilərindən iman gətirən ilk insan oldu.[86]

# Peyğəmbərimizin (s) heç kimin bilmədiyi hadisələri bilməsi

Allahın Quranda bildirdiyi möcüzə mahiyyətli bir hadisə də Peyğəmbərimizin (s) xanımlarından bəzilərinə söylədiyi bir sirr ilə bağlıdır. Peyğəmbərimiz (s) zövcələrindən bəzilərinə gizli bir söz demişdi. Lakin aralarından biri bu sirri saxlamayıb başqasına xəbər verəndə Allah onun bu hərəkətini Öz Rəsuluna (s) çatdırmışdı. Peyğəmbərimiz (s) sirr saxlamayan xanımına bunu bildiyini açıqlayanda xanımı ondan bunu kimdən öyrəndiyini soruşmuşdu. Peyğəmbərimiz (s) isə bunu ona Allahın xəbər verdiyini açıqlamışdı. Allah bu hadisəni Quranda belə bildirir:

**"Bir zaman Peyğəmbər öz zövcələrindən bəzilərinə gizli bir söz demişdi. Xanımlarından biri bu sözü xəbər verdikdə və Allah bunu ona əyan etdikdə (Peyğəmbər) bunun bir qismini bildirmiş, bir qismini bildirməkdən isə vaz keçmişdi. Peyğəmbər əhvalatı xanımına bildirdikdə o: "Bunu sənə kim xəbər verdi?" - deyə soruşmuş, o da: "Bunu mənə hər şeyi bilən, hər şeydən agah olan Allah xəbər verdi!" - deyə cavab vermişdi"** ***("Təhrim" surəsi, 3).***

Peyğəmbərimiz (s) Allahın ona bəxş etdiyi lütfü sayəsində elm sahibi olan bir insan idi. Allah ona kimsənin bilməsinin mümkün olmadığı xəbərləri bildirirdi. Xanımının səhvini ona bildirməsi də bu möcüzələrdən ancaq biridir. Digər tərəfdən, Allah bəzi Quran ayələrində də Peyğəmbərimizə (s) insanların gizli tərəfləri, fikirləri və əməlləri ilə bağlı onun bilməsinin mümkün olmadığı bir çox məlumatlar vermişdir. Bu məlumatlarla yanaşı, Peyğəmbərimizə (s) insanlarla necə davranacağını və onlara nələr deyəcəyini də bildirmişdir. Bu ayələrdən bəziləri belədir:

**"Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir mürgü göndərdi. O sizin bir qisminizi bürüdü. O biri qisminiz isə ancaq öz canlarının hayına qalaraq: "Bu işdə bizim üçün bir şey varmı?" - deyə Allaha qarşı haqsız yerə, cahiliyyətə xas olan düşüncələrə qapıldılar. Onlara de: "Əlbəttə, bütün işlər Allaha məxsusdur". Onlar sənə açıb bildirmədikləri şeyləri öz ürəklərində gizlədərək: "Əgər bu işdə bizim üçün bir şey olsaydı, elə buradaca öldürülməzdik", - deyirlər. De: "Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları yerlərə gedərdilər ki, Allah sizin ürəklərinizdə**

**olanları yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları təmizləsin. Allah ürəklərdə olanları biləndir!"“ *(“Ali-İmran” surəsi, 154).***

**“Onlar: "Itaət edirik!" - deyirlər, lakin sənin yanından çıxıb getdikləri zaman onların bir qismi dediyinin əksinə fikirləşir. Allah onların niyyətində olanları yazır. Sən onlardan üz çevir, Allaha təvəkkül et! Allahın (sənə) vəkil olması kifayət edər!” *(“Nisa” surəsi, 81).***

**“Səfərdən geri qalan bədəvi ərəblər sənə deyəcəklər: "Mal-dövlətimiz və ailələrimiz başımızı qatdı. Bizim bağışlanmağımızı dilə!" Onlar ürəklərində olmayanı dilləri ilə deyirlər. Onlara de: "Əgər Allah sizə bir zərər yaxud bir xeyir vermək istəsə, bu işdə Allaha bir şeylə kim mane ola bilər?!" Bəli, Allah sizin nə etdiyinizdən xəbərdardır!” *(“Fəth” surəsi, 11).***

**“Zərər vurmaq, küfr etmək, möminlər arasına təfriqə salmaq məqsədilə əvvəllər Allaha və Onun Peyğəmbərinə qarşı müharibə edən kimsədən göz-qulaq olmaq üçün məscid düzəldən və: "Biz yaxşılıqdan başqa bir şey istəmədik", -deyə and içənlərin həqiqətən yalançı olmaları barədə Allah Özü şahidlik edəcəkdir!**

**Orada heç vaxt namaz qılma. İlk gündən binası təqva üzərində qurulmuş məscid namaz qılmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları sevər!” *(“Tövbə” surəsi, 107-108).***

Ayələrdə Allahın Peyğəmbərimizə (s) vəhy etdiyi çoxlu sayda qeyb xəbəri bildirilir. Münafiqlərin yalanları, hiylələri, niyyətləri, qəlblərində gizlətdikləri fikirləri Allahın bir möcüzəsi kimi Peyğəmbərimizə (s) xəbər verilmişdir. Peyğəmbərimizin (s) Allahın istədiyi təqdirdə özlərini olduqlarından fərqli göstərən münafiqləri də üzlərindən tanıya bilməsi, şübhəsiz ki, böyük möcüzə idi. Heç kim bir çox ibadətləri yerinə yetirən, müsəlmanların davranışlarını və sözlərini eynilə təqlid edən, özünü müsəlman kimi tanıdan, hətta Peyğəmbərimizlə (s) birlikdə döyüşə gedən bir adamın əslində ikiüzlü bir din düşməni olduğunu başa düşə bilməzdi. Peyğəmbərimizin (s) isə Allahın bildirməsi ilə bu adamları tanıdığına dair bir çox hədislər səhabələrdən rəvayət edilmişdir. Allah Peyğəmbərimizin (s) malik olduğu bu elmi Quranda belə bildirir:

**“Əgər biz istəsəydik, onları mütləq sənə göstərər, sən də onları mütləq üzlərindən tanıyardın. Sən onsuz da onları danışıq tərzlərindən mütləq tanıyacaqsan. Allah sizin əməllərinizi bilir!” *(“Muhəmməd” surəsi, 30).***

# Peyğəmbərimizin (s) sual verilməmişdən əvvəl onu cavablandırması

Quranda Hz.İsanın Allahın icazəsi ilə insanların “yediklərini və yığıb gizlətdiklərini” xəbər verdiyi (“Ali-İmran” surəsi, 49), Hz.Yusifin isə lbir yemək gəlməmişdən əvvəl onu xəbər verəcəyi” (“Yusuf” surəsi, 37) bildirilmişdir. Bu möcüzələr Allahın Öz peyğəmbərlərinə olan bir lütfü və nemətidir. Hədislərdə xəbər verildiyinə görə, Peyğəmbərimiz (s) də Allahın ona verdiyi bir möcüzə kimi ondan bir şey soruşulmamışdan əvvəl bu suala cavab vermiş və insanların ürəyindən keçirdiklərini bilmişdir. Məsələn, hədislərdə bildirildiyinə görə, Peyğəmbərimiz (s) nə vaxt və hansı yerlərin fəth ediləcəyini səhabələrə xəbər verirdi.[87] Yenə hədislərdən öyrəndiyimizə görə, Peyğəmbərimiz (s) evə gələcək adamları onlar gəlməmişdən əvvəl, otağa daxil olacaq adamları da girməmişdən əvvəl bilirdi. Bir adam göndərildiyi yerdən gec gələndə onun gecikməyinin səbəblərini həmin adama dərhal bildirirdi.[88] Peyğəmbərimiz (s) həmçinin münafiq zehniyyətli insanları, müsəlmanlara pislik etmək istəyən insanları, içindən pis fikirlər keçirənləri dərhal tanıyırdı.[89]

Hədislərdə bu möcüzələrlə bağlı yüzlərlə misal verilir. Bir hədisdə Peyğəmbərimiz (s) Əbu Süfyanın ürəyindən keçirdiklərinə belə bir cavab vermiş və Əbu Süfyan da bu vəziyyət qarşısında bu mübarək insanın peyğəmbərliyinə şahidlik etdiyini söyləmişdir:

*Əbu Süfyan məscidin bir tərəfində oturmuşdu. Bir gün Rəsulullah (s) paltarına bürünərək evindən çıxdı. Əbu Süfyan oturduğu yerdə: "Qəribədir, bu, nə ilə bizi məğlub etdi" deyə ürəyindən keçirdi. Allah Rəsulu (s) Əbu Süfyanın yanına gəlib əliylə onun kürəyinə vurdu və: "Səni Allahla məğlub etdim", - dedi. Əbu Süfyan: "Sənin Allahın Rəsulu olduğuna şahidlik edirəm", - dedi.*[90]

Peyğəmbərimizin (s) insanların ürəyindən keçənləri bilib buna uyğun cavablar verməsinə daha bir misal isə Vabısa ilə bağlı olan hədisdir:

*Rəsulullahın (s) yanına getdim. Niyyətim yaxşılıq və günahla bağlı ondan hər şeyi soruşmaq idi. Onu müsəlmanlar əhatələmişdi. Elə hey suallar verir və cavab verməyini istəyirdilər. Onları yara-yara qabağa keçmək istədim.*

*- "Allah Rəsulundan uzaq dayan, ey Vabısa", - dedilər. Onlara belə dedim:*

*- "İmkan verin, mən ona əməllicə yaxınlaşım. Yaxın olmaq istədiyim insanların ən sevimlisi odur!"*

*- "Buraxın Vabısa gəlsin", - deyə buyurdu. İki və ya üç dəfə də mənə xitabən:*

*- "Yaxınlaş, ey Vabısa", - dedi. Nəhayət, yaxınlaşıb qarşısında oturdum. Mənə belə buyurdu:*

*- "Ey Vabısa, sənə mən xəbər verim, yoxsa sən məndən soruşursan"?*

*- "Sən mənə xəbər ver", dedim.*

*Belə buyurdu:*

*- "Yaxşılıq və günah haqqında soruşmaq üçün gəldin, elə deyilmi?"*

*- "Bəli", - dedim. Bundan sonra barmaqlarının uclarını birləşdirib sinəmə vuraraq belə buyurdu:*

*- "Ey Vabısa, ürəyinlə məsləhətləş, özünlə danış! - insanlar sənin barəndə bir qərar versələr də, verməsələr də yaxşılıq öz ürəyinin yatdığı şeydir, günah isə ürəyi narahat edən, sinədə gəzib dolaşan şeydir".*[91]

Hədisdə də bildirildiyi kimi, Rəbbimizin bir neməti olaraq Peyğəmbərimizin (s) hələ sual verilməmişdən əvvəl ondan soruşulacaq sualları bilməsi və buna uyğun cavablar verməsi idi. Peyğəmbərimizin (s) qarşısındakı adamın niyyətini, fikirlərini başa düşdüyünə dair başqa bir misal isə Əbud Dərdanın müsəlman olması ilə bağlı hədisdir:

*Əbud Dərda bir bütə sitayiş edirdi. Abdullah ibn Rəvaha ilə Əbu Sələmə gedib həmin bütü sındırdılar. Əbud Dərda gəlib bütü bu vəziyyətdə görəndə özünü belə deməkdən saxlaya bilmədi: "Yazıq, özünü də müdafiə edə bilmədinmi?"*

*Sonra Peyğəmbərin (s) yanına gəldi. İbni Rəvaha yolda onu gördü və belə dedi: "Budur, Əbud Dərda bizi axtarmaq üçün gəlib". Allah Rəsulu (s) da belə buyurdu: "Xeyr, müsəlman olmaq üçün gəlir. Rəbbim Əbud Dərdanın müsəlman olacağını vəd etdi".*[92]

Yuxarıda qeyd etdiyimiz bütün misallar Peyğəmbərimiz Hz.Muhəmmədin (s) bizə Allahın izni və istəyi ilə bir çox möcüzələr göstərdiyini sübut edir. Peyğəmbərimiz (s) özünün üstün əxlaqı, Allah qorxusu, dərin imanı, təvəkkülü və səmimiyyəti ilə müsəlmanlara çox gözəl bir nümunə olub, möcüzələri ilə də iman gətirənlərin şövqünün və duyğularının daha da güclənməsində bir səbəb olmuşdur.

# Peyğəmbərimiz (s) vəfatını səhabələrə xəbər vermişdi

Peyğəmbərimiz Hz.Muhəmmədin (s) qeyblə bağlı verdiyi xəbərlərin hər biri zaman ötdükcə gerçəyə çevrilmiş və öz təsdiqini tapmışdır. Həqiqətə çevrilən hər qeyb xəbəri bu mübarək insanın bir möcüzəsidir. Bu xəbərlərdən biri də Peyğəmbərimizin (s) öz vəfatını xəbər verməsidir. Peyğəmbərimiz (s) hədislərində səhabələr arasından əvvəlcə özünün vəfat edəcəyini xəbər vermişdir.

*Allah Rəsulu (s) bizə baxıb belə dedi:*

*"Ən axırda mənim öləcəyimi iddia edirsiniz. Diqqət edin! Mən hamınızdan əvvəl öləcəyəm. Siz məndən sonra öləcəksiniz. Həm də bir-birinizi öldürərək camaatlar halında məni izləyəcəksiniz".*[93]

Peyğəmbərimiz (s) bir gün birinə ölüyə dua edirmiş kimi dua etdi. Sonra dönüb minbərə çıxdı və belə buyurdu:

- *"Şübhəsiz -axirətə- sizdən əvvəl gedəcəyəm. Mən sizə şahidlik edəcəyəm. Vallahi, hazırda hovuzumu sanki görürəm. Yer üzünün bütün açarları mənə verildi. Vallahi, məndən sonra yolunuzu azıb şirkə düşməyinizdən qorxmuram -çünki azmazsınız! Amma -dünya malı üçün- bir-birinizlə yarışmağınızdan qorxuram!"*[94]

Peyğəmbərimiz (s) başqa hədislərində ona vəfat edəcəyinin vəhy olunduğunu bildirmişdir:

*"Allah Rəsulu (s) gecə vaxtı məni oyadıb belə buyurdu: "Ey Əbi Müveyhibə! Baqi əhli üçün Allahdan bağışlanmalarını istəmək əmri aldım". Bundan sonra onunla birlikdə çıxdım. Baqi qəbristanlığına getdik. Orada əllərini qaldırıb qəbir əhlinin bağışlanmasını istədi. Sonra belə buyurdu: "Sizin yaşadıqlarınız sonrakılarla müqayisədə çox yüngüldür. Fitnələr onlara qaranlıq gecənin hissələri kimi gələcək. Axırı əvvəlindən daha pis olacaq. Ey Əbu Müveyhibə, mənə yer üzünün xəzinələri və orada əbədi qalmaq imkanı verildi. Sonra da cənnət verildi. Bunlarla Allaha qovuşmaq arasında seçim etmək üçün sərbəst buraxıldım. Mən də Allaha qovuşmağı üstün tutdum". Sonra oradan ayrıldı".*[95]

Peyğəmbərimiz (s) özünün vəfatı ilə bağlı bir çox səhih və müfəssəl xəbərlər verib. Bu hədislərin hər birinin Peyğəmbərimizin (s) söylədiyi şəkildə də həyata keçməsi Allahın böyük bir möcüzəsidir. Bu vəziyyət möminlərin də imanını dəfələrlə artırmış, Allahın izni ilə onların imanda daha da zənginləşib dərinləşməsinə səbəb olmuşdur. Hədislərdə Peyğəmbərimiz (s) hansı gün vəfat edəcəyini də xəbər vermişdir:

*"...Mən bazar ertəsi günü anadan oldum. Vəhy bazar ertəsi günü gəldi. Bazar ertəsi günü hicrət etdim və eyni gündə də öləcəyəm".*[96]

İbni Hənbəl və Beyhaqi İbni Abbasdan nəql edərək belə söyləmişdir:

*"Peyğəmbərimiz (s) bazar ertəsi günü anadan oldu. Bazar ertəsi günü peyğəmbər oldu. Məkkədən mühacir kimi bazar ertəsi günü çıxdı. Mədinəyə bazar ertəsi günü daxil oldu, Məkkə bazar ertəsi günü fəth edildi və bazar ertəsi günü vəfat etdi".*[97]

Peyğəmbərimiz (s) bəzi hədislərində də vəfat edəcəyi yeri bildirib:

*"Hicrət edəcəyim yer -öldüyüm zaman basdırılıb- yatacağım yer Mədinədir".*[98]

*"Mədinə hicrət edəcəyim yerdir. Orada öləcəyəm və orada diriləcəyəm".*[99]

Peyğəmbərimizin (s) bildirdiklərinin olduğu kimi də gerçəkləşməsi Allahın böyük bir möcüzəsidir.

# Peyğəmbərimiz (s) səhabələrinin şəhid olacaqlarını xəbər vermişdir

Peyğəmbərimiz (s) Allahın bir möcüzəsi olaraq, özünün vəfatı kimi, səhabələrin öləcəyini də xeyli əvvəl xəbər vermişdir. Bu hədislərdə bir çox səhabənin ölümləri ilə bağlı məlumatlar bildirilir. Bəzi səhabələrə şəhid olacaqları, və harada öləcəkləri də xəbər verilmişdi. Peyğəmbərimizin (s) bu qeyb xəbərlərinin onun söylədiyi şəkildə də gerçəkləşməsinə şahid olan möminlər üçün bu, çox böyük müjdə olmuşdur. Bu hədislərin hər biri Allahın seçib aləmlərə üstün etdiyi Peyğəmbərimizə (s) Rəbbimizin nəsib etdiyi möcüzədir.

## Peyğəmbərimiz (s) Hz.Ömərin şəhid olacağını xəbər vermişdir

Əbu Yalə səhih bir sənədlə Səhl ibn Səddən bunları nəql etmişdir:

*"Üstündə Allah Rəsulu (s), Əbu Bəkir, Ömər və Osmanın olduğu Uhud dağı tərpəndi və Rəsulullah (s) belə buyurdu:*

*Tərpənmə, sabit və sakit ol, ey Uhud! Üstündə bir peyğəmbər, bir Sıddıq və iki şəhid var!"*[100]

*Təbərani İbni Ömərdən (r.a.) bunları rəvayət etmişdir:*

*Allah Rəsulu (s) bir bağçada idi. Əbu Bəkir ora girmək üçün icazə istəyəndə belə buyurdu: "Ona icazə verin, onu cənnətlə müjdələyin!" Sonra Ömər icazə istədi. Bundan sonra belə buyurdu: "Ona da icazə verin, onu cənnətlə və şəhidliklə müjdələyin!" Sonra Osman icazə istədi. Rəsulullah (s) belə buyurdu: "Ona icazə verin. Həm cənnətlə, həm də şəhidliklə müjdələyin".*[101]

## Peyğəmbərimiz (s) Hz.Osmanın şəhid olacağını xəbər vermişdir

Əbu Yalə möminlərin anası Həfsadan nəql edərək belə demişdir:

*"Allah Rəsulu (s) Osmana xəbər göndərib onu yanına çağırtdırdı. Və ona belə buyurdu:*

*"Öldürülüb şəhid olacaqsan! Səbir et, Allah sənə səbir versin.*

*Allahın sənə on il altı ay geyindirəcəyi -xəlifəlik- köynəyini qətiyyən çıxarma!" Dönüb gedərkən Allah Rəsulu (s) arxasınca belə buyurdu: "Allah sənə səbir versin. Oruclu olduğun halda şəhid edilib öləcəksən. Orucunu mənimlə açacaqsan".*[102]

*Təbərani "əl-Əvsat" əsərində və Beyhaqi Zeyd ibn Ərkamdan nəql edərək belə deyiblər:*

*"Allah Rəsulu (s) məni göndərərkən belə buyurdu:*

*"İndi Əbu Bəkirin yanına get, onu evində paltarını geyinmiş bir vəziyyətdə görəcəksən. Onu cənnətlə müjdələ! Sonra Ömərin yanına get. Onu da Səniyyə təpəsində, bir uzunqulağa minmiş halda görəcəksən. Onu da cənnətlə müjdələ! Sonra Osmanın yanına get! Onu da bazarda alış-veriş edərkən tapacaqsan. Onu çətin bir imtahandan keçəndən sonra cənnət qazanacağı ilə müjdələ!" Gedib hər üçünü Allah Rəsulunun (s) buyurduğu şəkildə tapdım.*[103]

*Allah Rəsulunun (s) belə buyurduğunu eşitdim:*

*"Yanımda mələklərdən biri olarkən Osman yanıma gəlmişdi. Mələk belə dedi:*

*"Budur, xalqının öldürəcəyi bir şəhid. Ondan hətta biz də həya edirik."*[104]

## Peyğəmbərimiz (s) Hz.Əlinin şəhid olacağını xəbər vermişdir

*Hakim "səhihdir" deyərək Hz.Əlinin bunları nəql etdiyini bildirmişdir:*

*Allah Rəsulu (s) Əliyə yanaqlarını göstərərək belə buyurdu:*

*"Buradan və buradan zərbə alacaqsan. Qanın saqqalını bulayana kimi axacaq".*[105]

*Rəsulullah (s) Əliyə belə buyurdu: "İnsanların ən pisi -başını göstərərək- buradan vuracaq, -saqqalını göstərərək- bu da qana bulanacaq".*[106]

*Peyğəmbərlə (s) Əlinin yanına girdik. Xəstə idi. Əbu Bəkir və Ömər də orada idi. Biri yanındakına belə dedi: "Deyəsən, öləcək".*

*Allah Rəsulu (s) də belə buyurdu: "O, qətiyyən öz əcəli ilə ölməyəcək. Öldürüləcək və içi qəzəblə dolmayana kimi də öldürülməyəcək".*[107]

## Peyğəmbərimiz (s) Hz.Hüseynin şəhid olacağını xəbər vermişdir

*Allah Rəsulu (s) bir gün yatırdı. Əlində bir ovuc qırmızı rəngdə torpaq var idi.*

*"Ey Allahın Rəsulu, bu torpaq nədir?" - deyə soruşdum.*

*Buyurdu ki, "Cəbrail -Hüseyni nəzərdə tutaraq- onun İraq torpaqlarında öldürüləcəyini söylədi. Bu torpaq həmin yerin torpağıdır".*[108]

*"Hüseyni nəzərdə tutaraq- bu oğlum Kərbəla adlandırılan yerdə öldürüləcək. Onu orada görən ona kömək etsin!" Bundan sonra Ənəs ibn əl-Haris Kərbəlaya getdi. Hüseynlə birlikdə həmin yerdə öldürüldü.*[109]

Peyğəmbərimizin (s) Hz.Ömər, Hz.Osman, Hz.Əli və Hz.Hüseynin şəhid olacaqları ilə bağlı dedikləri həyata keçib. Peyğəmbərimizdən (s) sonra İslam dininin yayılmasında öz üzərinə çox böyük bir məsuliyyət götürən bu səmimi müsəlmanlar şəhid olublar. Bu mübarək müsəlmanların şəhadəti ilə Peyğəmbərimizin (s) verdiyi qeyb xəbərlərinin bir hissəsi də gerçəkləşib. Bunların hər biri Allahın Öz mübarək elçisi Hz.Muhəmmədə (s) nəsib etdiyi bir möcüzəsidir.

## Peyğəmbərimizin (s) axırzaman əlamətləri haqqında bildirdikləri

Axırzaman qiyamətdən əvvəl dünyada yaşanacaq bir dövrdür. Peyğəmbərimizin (s) axırzamanda baş verəcək hadisələrlə bağlı verdiyi bir çox xəbərlər günümüzə kimi gəlib çatıb. Bu hadisələrin hazırda yaşadığımız dövrdə bir-birinin ardınca gerçəkləşməsi Peyğəmbərimizin (s) möcüzələrindən biridir. Hz.Muhəmməd (s) özünün yaşadığı dövrdən 1400 il sonra da baş verəcək hadisələri sanki həmin dövrü görübmüş kimi müfəssəl şəkildə anladıb. Peyğəmbərimizin (s) gerçəkləşəcəyini bildirdiyi axırzaman əlamətlərindən bəziləri aşağıda xülasə edilib:

## İran-İraq müharibəsi

Axırzamanda baş verəcək mühüm bir müharibə hədisdə belə xəbər verilir:

*"Şəvval ayında üsyan, zilqədə ayında hərbi danışıqlar, zilhiccədə isə müharibə baş verəcək".*[110]

Hədisdə bildirilən şəvval, zilqədə və zilhiccə ayları İran-İraq müharibəsinin inkişaf mərhələləri ilə eyni tarixlərə uyğun gəlir:

*Şəvval ayında üsyan...*

İran şahına qarşı olan ilk üsyan məlum olduğu kimi, hədisdə bildirilən 1398-ci ildə şəvval ayının 5-də (1976-cı il sentyabrın 8-də) baş verib.

*Zilqədə ayında hərbi danışıqlar, zilhiccədə isə müharibə baş verəcək...*

Hicri təqvimlə 1400-cü ilin zilhiccə ayında (1980-ci ilin oktyabrında) İran-İraq müharibəsi özünün tam mənasında başlamışdı.

Başqa bir hədisdə bu müharibənin təfərrüatları belə bildirilir:

> *"Faris tərəfindən gələcək bir qövmdür ki, belə deyəcəklər: "Ey ərəblər! Siz çox təəssübkeşlik etdiniz. Siz bunların haqqını lazım olduğu kimi tanımasanız, sizinlə heç kim birlik qurmayacaq... Bir gün onlara və bir gün də sizə verilsin və qarşılıqlı vədlərə əməl olunsun..." Onlar Mutıka çıxacaqlar, müsəlmanlar oradan aşağı enəcəklər... Müşriklər o biri tərəfdəki (Rəqabə) deyilən qapqara bir çayın kənarında dayanacaqlar... Aralarında müharibə olacaq. Allah hər iki ordudan qələbəni əsirgəyəcək..." ("Qiyamətin əlamətləri", səh. 179).*

*- Faris tərəfindən gələcək: İran tərəfindən gələcək*

*- Faris: İran, iranlı, fars*

*- Yazıya enəcəklər: Düzənliyə enəcəklər (İraq düz-i)*

*- Mutık: Bölgədəki bir dağın adıdır*

*- Rəqabə: Neft quyularının çox olduğu bölgədir.*

> *"Ey ərəblər! Siz çox təəssübkeşlik etdiniz. Siz bunların haqqını lazım olduğu kimi tanımasanız, sizinlə heç kim birlik qurmayacaq..."*

Hədisin bu hissəsində hər iki tərəf arasında irqçilikdən qaynaqlanan bir anlaşılmazlığın olacağına diqqət çəkilə bilər. Bu anlaşılmazlıq səbəbilə "Yazı"ya (yəni İraq düzənliyinə) eniləcəyi və müharibənin başlayacağı anlaşılır.

*Allah hər iki ordunu qələbədən məhrum edəcək...*

Bu hədisin də işarə etdiyi kimi, İran-İraq müharibəsi 8 il davam etdi və minlərlə itki verilməsinə baxmayaraq heç bir nəticə əldə olunmadı. Tərəflərin heç biri mütləq üstünlük qazana bilmədi.

## Əfqanıstanın işğalı

*"Taliqan (Əfqanıstan) yazıq oldu. Şübhəsiz ki, Uca Allahın orada qızıl və gümüş olmayan xəzinələri var".*[111]

Hədisdə Əfqanıstanın axırzamanda işğal ediləcəyinə işarə var. Həqiqətən də rusların Əfqanıstanı işğal etməsi ili olan 1979-cu il hicrətin 1400-cü ilinə, başqa sözlə hicri XIV əsrin əvvəllərinə uyğun gəlir.

*Orada qızıl və gümüş olmayan xəzinələr var...*

Hədisin bu hissəsində Əfqanıstanın maddi sərvət və zənginliklərinə diqqət çəkilib. Bu gün Əfqanıstanda müxtəlif səbəblər üzündən istismar üçün açılmamış böyük neft yataqları, dəmir hövzələri və kömür mədənləri var.

*Fərat çayının suyunun kəsilməsi*

Fərat çayının suyunun kəsilib saxlanması da Peyğəmbərimizin (s) xəbər verdiyi axırzaman əlamətlərindəndir:

> *"Fərat çayının suyunun çəkilərək qızıl xəzinəsinin üstünün açılması vaxtı yaxınlaşır. Hər kim həmin vaxt orada olsa, həmin xəzinədən heç nə götürməsin".*[112]

Başqa hədislərdə də bu hadisənin incəlikləri ilə bağlı mühüm məlumatlar verilir:

Rəsulullah (s): *"Fərat çayı qızıl bir dağ üzərindən açılmayana kimi qiyamət qopmayacaqdır. İnsanlar onun üçün müharibə edəcək. Və hər yüz adamdan doxsan doqquzu öldürüləcək, onlardan hər biri "kaş xilas olan mən olaydım" deyəcəkdir",* - *buyurub.*[113]

> *Rəsulullah (s) belə buyurdu: "Yaxın vaxtlarda Fərat çayı qızıl xəzinəsini açığa çıxarar, kim buna hazır olarsa, ondan heç nə götürməsin".*[114]

Göründüyü kimi, axırzamanın mühüm bir əlaməti olan Fərat çayının suyunun kəsilməsi və qızıl xəzinəsinin ortaya çıxması bir çox böyük hədis kitablarında mövcuddur.

İndi yuxarıda təqdim etdiyimiz hədislərdə qeyd olunan bu məsələ ilə bağlı mühüm ifadələri bir-bir nəzərdən keçirək:

> *Rəsulullah (s) buyurdu ki, (1) "Fərat çayının suyu çəkilərək (2) qızıldan bir dağ meydana çıxmayana kimi qiyamət qopmaz... ("Riyazus Salihin", 3/332).*

*(1) Fərat çayının suyu çəkilərək...*

Suyutinin kitabında bu hədis "suyun dayandırılması" şəklində qeyd edilib. Həqiqətən də Kəban su anbarı Fərat çayının suyunun qarşısını saxlayaraq onu kəsib.

*(2) "Qızıl"dan bir dağ meydana çıxmayana kimi...*

Tikilən su anbarı sayəsində elektrik enerjisi istehsalı, yığılan suyun ərazidə istifadə edilməsi səbəbi ilə torpağın məhsuldarlığının artması və nəqliyyat məsələlərinin həlli kimi səbəblərə görə buradakı torpaqlar həqiqətən də "qızıl" kimi qiymətli olub.

Kəban su anbarı və Fərat çayı üzərində sonradan qurulan digər su anbarları betondan düzəldilən nəhəng dağları xatırladır. Bu su anbarlarından (hədisdəki bənzətməyə görə, dağdan) qızıl dəyərində sərvət tökülür. Dolayısı ilə bu su anbarları "qızıl bir dağ" mahiyyətini daşıyır (ən doğrusunu Allah bilir).

Peyğəmbərimizin (s) axırzamanda baş verəcək hadisələrlə bağlı xəbər verdiyi başqa məlumatlar da var. Bununla bağlı daha müfəssəl məlumatlar almaq üçün *("Hz. İsanın zühuru əlamətləri", "Axırzaman və Dəbbətül-Ərz", "Qiyamətin əlamətləri" adlı kitablarımıza müraciət edə bilərsiniz).* Bu əlamətlər aşağıdakı başlıqlar altında qeyd edilib:

- Ramazan ayında Ay və Günəş tutulmaları

- Quyruqlu ulduzun doğması

- Kəbə basqını və Kəbədə qan tökülməsi
- Şərq tərəfdən bir alovun görünməsi
- Günəşdən bir əlamətin ortaya çıxması
- Qətliamların və kütləvi qətillərin geniş yayılması
- Şam və Misir məliklərinin öldürülməsi
- Misirlilərin əsir götürülməsi
- Şəhərlərin yox olması
- Xaraba qalmış yerlərin abadlaşdırılması
- Dördüncü sülh və ərəb - İsrail sülhü
- İraqlıların mal-mülkünün qalmaması
- Bağdadın alovlarla yox edilməsi
- İraqa və Şama embarqo qoyulması
- İraqın yenidən qurulması
- Şamda (Dəməşqdə) fitnələr
- Şam, İraq və Ərəbistanda qarışıqlıqlar
- Müsəlmanlarla yəhudilərin döyüşməsi
- Günahsız uşaqların öldürülməsi
- Fitnələrin çoxalması
- Haramların halal sayılması
- Allahın açıq-aşkar inkar edilməsi
- Zəlzələlərin çoxalması
- Əxlaqi tənəzzül
- Yayılan xəstəliklər
- Səhraların yaşıllaşdırılması
- Saxta Məsihlərin ortaya çıxması

Yuxarıda yalnız bəzilərini maddələr halında qeyd etdiyimiz və Peyğəmbərimizin (s) bütün bu hədislərdə göstərdiyi əlamətlər özünü 1400 il içində müxtəlif dövrlərdə və dünyanın fərqli bölgələrində ayrı-ayrılıqda da göstərə bilər. Lakin hicri 1400-cü ildən etibarən onların hamısı eyni dövrdə, bir-birinin ardınca baş verib. Bu da Peyğəmbərimizin (s) başqa bir hədisindəki xəbərin gerçəkləşməsi deməkdir:

*“Qiyamətin əlamətləri bir-birinin ardınca meydana gəlir. Bir ipdəki muncuqların ardıcıllıqla qopması kimi...”*[115]

# NƏTİCƏ

Bəşər tarixi boyunca insanlar Allaha iman gətirmək üçün onlara göndərilən elçilərdən möcüzələr istəyiblər. Hz.Musadan, Hz.İsadan, Hz.Huddan, Hz.Muhəmməddən (s), qısası, bütün peyğəmbərlərdən həmişə eyni şeyi tələb ediblər, onlardan həmişə bir fövqəladəlik gözləyiblər. Allah da bəzi peyğəmbərlərinə möcüzələrlə nemətlər verib, onları Öz dərgahından etdiyi köməklə gücləndirib, təbliğlərini və fikri mübarizələrini asanlaşdırıb. Halbuki ağıl və vicdan sahibi olan insanlar Allaha inanmaq üçün möcüzə görməyə ehtiyac duymazlar. Çünki idrak sahibi olan bir insan üçün mövcud olan hər bir şey Allahın varlığının aydın bir dəlilidir.

Atomlardan qalaktikalara qədər kainatın hər bir hissəsi Allahın varlığının və yaratma qüdrətinin möhtəşəm dəlilləri ilə doludur. Təkidlə möcüzə görmək istəyən insanların əksəriyyətinin həqiqi niyyətləri isə Allah möcüzələrini göstərdiyi vaxt ortaya çıxıb. Elçilərin möcüzələrinə inanmaq əvəzinə onları əsassız iddialarla günahlandırmaları, məsələn, kahinlik, sehrbazlıq və ya təfriqə, ixtilaf salmaqda ittiham etmələri bunun bir əlamətidir. Həmçinin Allah iman gətirməyənlərin bu məsələdəki qeyri- səmimiliyini Quranda belə xəbər verir:

> **“Allaha ürəkdən and içdilər ki, əgər onlara bir ayə gəlsə, ona mütləq inanacaqlar. De: "Ayələr ançaq Allahın yanındadır. Siz nədən bilirsiniz ki, onlara ayə (möcüzə) gəldikdə yenə də iman gətirəcəklər?" Biz onların ürəklərini və gözlərini əvvəlcə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içində çaşqın bir vəziyyətdə qoyarıq. Əgər Biz mələkləri onlara göndərsəydik, ölülər onlarla danışsaydı və hər şeyi dəstə-dəstə toplayıb onların qarşısına qoysaydıq belə Allah istəmədikcə onlar iman gətirməzdilər. Lakin onların əksəriyyəti bunu bilməz”** ***(“Ənam” surəsi, 109-111).***

Allahın ayələrdə bildirdiyi kimi, peyğəmbərlərdən israrla möcüzə tələb edən iman gətirməyənlər bunu iman gətirmək üçün bir dəlil kimi deyil, peyğəmbərləri çətin vəziyyətdə qoymaq üçün və onları sınamaq üçün istəyirlər. Onlar öz məhdud ağılları ilə peyğəmbərləri yalançı çıxarmaq və beləliklə də öz inkarlarına bəhanə tapmaq məqsədi güdüblər. Həmçinin möcüzə görmədən iman gətirməyəcəklərini söyləyən inkarçılar möcüzə görəndə də iman gətirmir, bu dəfə də peyğəmbərlərin guya sehrbaz olduğu və onları sehrlədiyi böhtanını atırlar. Ayələrdə belə buyurulur:

> **“Bir möcüzə gördükdə də ona istehza edərlər. Və belə deyərlər: "Bu, ancaq açıq-aşkar bir sehrdir””** ***(“Səffat” surəsi, 14-15).***
>
> **“Əgər onlar bir möcüzə görsələr, üz döndərib: "Bu, uzun müddət davam edən bir sehrdir!" - deyərlər”** ***(“Qəmər” surəsi, 2).***

Əksər insanların imanının möcüzələrlə güclənməsi əlbəttə, Allahın böyük bir nemətidir. Ancaq ağıl və vicdan sahibi olan insanlar kainatdakı hər bir şeyin yaradılışındakı ecazkarlığı və fövqəladəliyi görərək Allaha iman gətirər və peyğəmbərlərdən də xüsusi bir möcüzə göstərməsini gözləməzlər. Əgər Rəbbimiz müxtəlif möcüzələr göstərirsə, bu, onların ilhamını, şövqlərini və əzmlərini gücləndirən bir nemət olur. İman gətirməyənlər isə tarix boyunca belə bir xəyal içində olduqları üçün böyük itkilərə məruz qalıblar. Onlar öz inkarlarına bir bəhanə tapa bilmək üçün peyğəmbərlərin təbliğ etdikləri həqiqətləri qulaqardına vurub və yalnız fövqəladəlik axtarışına girişiblər. Şübhəsiz, Rəbbimizin: **“Əgər istəsək, göydən onlara bir ayə (möcüzə) göndərərik, onlar da ona boyun əyib durarlar”** ***(“Şuəra” surəsi, 4)*** ayəsində də bildirdiyi kimi, Allah isətəsə, bu insanların hamısını bircə möcüzə ilə boyun əydirər. Lakin bütün bunlar dünyadakı imtahan şərtlərinə uyğun olaraq baş verir.

Sevimli Peyğəmbərimiz Hz.Muhəmmədin (s) möcüzələri də bütün müsəlmanlar üçün böyük bir müjdə, Allahdan bir yardım və böyük nemətdir. Bu möcüzələr iman gətirənlərin imanını daha da gücləndirəcək və Allahın Peyğəmbərimizə (s) göndərdiyi Uca Kitaba -Qurani-Kərimə daha böyük bir həvəslə bağlanmasına səbəb olacaq bir dəlildir.

# İQTİBASLAR


1. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s.241

2. Buhari, Bed'ü'l-Vahy, Enbiya 21, Tefsir, Alâk Ta'bir 1; Müslim, İman 252, (160); Tirmizi, Menakıb 13, (3636).

3. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 242

4. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 297

5. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 298

6. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 298

7. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 298

8. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 297

9. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 300

10. Sözler, s. 185

11. Yrd. Doç. Dr. Mehmed Kileci, Risale-i Nur'da Kuran Mucizesi, İz Yayıncılık, İstanbul, 1998, s. 60

12. Ahmet Cevdet Paşa, Muallim Mahir iz, Peygamber Efendimiz (sav), Hediye Kitaplar, s. 55-56

13. Said Nursi, Mektubat, s: 166-169

14. İmam-ı Gazali, İhya-ı Ulum'id-din, Tercüme eden: Ali Arslan, Arslan Yayınları, İstanbul, cilt: 5, s:564

15. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s:286)

16. Et-Tirmizi İmam Ebu İ'sa Muhammed, Şemail-i Şerife, 1. cilt, Hilal Yayınları, Ankara,1976, s. 18-19

17. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, 237

18. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, 238

19. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 237

20. İmam Gazali, İhya'u Ulum'id-din, 2. cilt, Çeviri: Dr. Sıtkı Gülle, Huzur Yayınevi, İstanbul 1998, s. 795-796

21. İmam-ı Gazali, İhya-ı Ulum'id-din, Tercüme eden: Ali Arslan, Arslan Yayınları, İst cilt: 5, s. 565

22. Celaleyn Tefsiri Tercümesi, Tercüme İbrahim Serdar, Yusuf Şensoy, Fatih Enes Yayınevi, İstanbul, 1997, 3. cilt, s. 1432-1433

23. Siret Ansiklopedisi, Hazırlayan: Afzalur Rahman- Londra Siret Vakfı Başkanı, s.162

24. Said Havva, El-Esas Fi't-Tefsir, Şamil Yayınevi, İst., 1991, 10. cilt, s. 332

25. Ömer Nasuhi Bilmen, Kur'an-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, 2. Cilt, s. 1101, 1102

26. İbn Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, Cilt 9, s. 4671

27. Müsned, İmam Ahmed, (1/309) el-Bezzar: Keşfu''l Estar 1146

28. Said Havva, El Esas Fi's Sünne, Hikmet Neşriyat, 1. cilt, s. 393

29. İbn Kesir, Hadislerle Kuran-ı Kerim Tefsiri, Cilt 9, s. 4615

30. Siret Ansiklopedisi, Hazırlayan: Afzalur Rahman- Londra Siret Vakfı Başkanı, Sf 164

31. İlyas Çelebi, İtikadi Açıdan Uzak ve Yakın Gelecekle İlgili Haberler, Kitabevi, İstanbul, Mayıs 1996, s:161

32. Sahih-i Buhari, Mütercim: Mehmed Sofuoğlu, Ötüken Yayınları, İstanbul 1987, Cilt 8, s. 3619-3620

33. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 313

34. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 313

35. Mektubat, 19. Mektup, s. 191

36. Mektubat, 19. Mektup, s. 221

37. Buhari, İstiska/6, 7; Müslim, İstiska/8; Nesa''i, İstiska/10; İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 835

38. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 837

39. İbn-i Kesir, Peygamberimiz (sav)'in Şemaili Mucizeleri, Çelik Yayınevi, s. 183

40. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 838

41. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 847

42. İbn-i Kesir, Peygamberimiz (sav)'in Şemaili Mucizeleri, Çelik Yayınevi, s. 325

43. İbn-i Kesir, Peygamberimiz (sav)'in Şemaili Mucizeleri, Çelik Yayınevi, s. 316, 327)

44. Buhari, Da''avat/18, 25, 47; İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 851

45. Buhari, da''avat/54; İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 854

46. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 854

47. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 856

48. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 287

49. Siret Ansiklopedisi, Üçüncü Cilt, Sf 104

50. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 316

51. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 317

52. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 317

53. Ömer Nasuhi Bilmen, Ku'ran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Bilmen Basım ve Yayınevi, İstanbul, 3. cilt, s. 1270

54. Şadi Eren, Kuran'da Gayb Bilgisi, Işık Yayınları, İzmir, 1995, s.183

55. Celaleyn Tefsiri Tercümesi, Tercüme: İbrahim Serdar, Yusuf Şensoy Fatih Enes Yayınevi, İstanbul, 1997, Cilt 2, s. 670

56. Ömer Nasuhi Bilmen, Ku'ran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Bilmen Basım ve Yayınevi, İstanbul, 1. Cilt, s. 450

57. Ömer Nasuhi Bilmen, Ku'ran-ı Kerim'in Türkçe Meali Alisi ve Tefsiri, Bilmen Basım ve Yayınevi, İstanbul, 1. Cilt, s. 451

58. Sabuni, Safvetüt Tefasir, Ensar Neşriyat, 2 cilt, s. 404

59. İbn Kesir, Hadislerle Kur'an-ı Kerim Tefsiri, Çağrı Yayınları, İstanbul, 1991, 7. Cilt, s. 3447

60. Said Havva, El-Esas Fi't-Tefsir, Şamil Yayınevi, İstanbul, 1991, 2. Cilt, s. 444

61. Celaleyn Tefsiri Tercümesi, Tercüme: İbrahim Serdar, Yusuf Şensoy, Fatih Enes Yayınevi, İstanbul, 1997, 1. Cilt, s.187

62. İbn Kesir, Hadislerle Kur'an-ı Kerim Tefsiri, Çağrı Yayınları, İstanbul, 1991, 3. Cilt, s.1187

63. Muhammed Ali Es-Sabuni, Safretü't Tefasir Tefsirlerin Özü, Ensar Neşriyat, İstanbul, 1992, Cilt 2, s. 427

64. İbn Kesir, Hadislerle Kur'an-ı Kerim Tefsiri, Çağrı Yayınları, İstanbul, 1991, 7. Cilt, s.3318

65. http://en.wikipedia.org/wiki/Heraclius

66. Warren Treadgold, A History of the Byzantine State and Society, Stanford University Press, 1997, ss. 287-299.

67. http://fstav.freeservers.com/emperors/heraclius.html

68. Warren Treadgold, A History of the Byzantine State and Society, Stanford University Press, 1997, ss. 287-299.

69. http://web.genie.it/utenti/i/inanna/livello2-i/mediterraneo-1-i.htm; http://impearls.blogspot.com/2003_12_07_impearls_archive.html; http://en.wikipedia.org/wiki/Heraclius

70. World Book Encyclopedia, 2003, Contributor: Bernard Reich, Ph.D., Professor of Political Science and International Affairs, George Washington University.

71. Buhârî, Tefsir, Kasas Suresi 2, Kütüb-i Sitte- 729

72. İmam Taberi, Taberi Tefsiri, Cilt 5, Ümit Yayıncılık, İstanbul, s. 2276

73. Celâleyn Tefsiri Tercümesi, Tercüme: İbrahim Serdar, Yusuf Şensoy, Faith Enes Yayınevi, İstanbul, 1997, 3. Cilt, s. 1843

74. Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte Muhtasarı Tercüme ve Şerhi, 15. cilt, Akçağ Yayınları, Ankara, s. 420

75. H.U. Rahman, İslam Tarihi Kronolojisi, Birleşik Yayıncılık, İstanbul 1995, s. 70-71

76. Prof. Dr. İbrahim Canan, Kütüb-i Sitte, Muhtasarı Tercüme ve Şerhi, 15. cilt, Akçağ Yayınları, Ankara, s. 416

77. http://www.mustakiim.de/İslam/İslam%20Tarihi/bilgi5.htm

78. http://www.mustakiim.de/İslam/İslam%20Tarihi/bilgi5.htm

79. İbn'i Sad, Tabakat, 1:260; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s. 223

80. Taberi, 1:260; Taberi, 3:91, İnsanü'l-Uyun, 3:292; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s. 223

81. Taberi, 3/91; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s.223-224

82. Taberi, 3/91; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s.224

83. Taberi, 3/91; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s.224

84. İbni Sa'd, Tabakat, 1:260; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s.225

85. Taberi, 3/91; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998, s.225

86. Cevdet Paşa, Kısas-ı Enbiya ve Tevanih-i Hülefa, 1:182; Salih Suruç, Kainatın Efendisi Peygamberimizin Hayatı, Yeni Asya Yayınları, İstanbul, 1998,s.225

87. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 696-700)

88. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 688-689

89. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 689-691

90. Haris; İbn Hacer Askalani, Metalib-u Aliye 4, Tevhid Yayınları, 1996, 3839, s. 17)

91. İbn-i Kesir, Peygamberimiz (sav)'in Şemaili, Mucizeleri, Çelik Yayınevi, s. 361

92. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 680

93. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1115

94. Buhari, Cenaiz/72, Menakıb/25; İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1119

95. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1118

96. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1120

97. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1120

98. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s.1120

99. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 1121

100. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 726

101. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 726

102. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 729

103. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 728

104. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 728

105. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 734

106. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 734

107. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 734

108. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 736

109. İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (sav) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 737

110. Kıyamet Alametleri, s. 166

111. Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, s. 59

112. Riyazü's Salihin, 3/332

113. Sahih-i Müslim, 11/320

114.Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, s. 28

115. G.Ahmed Ziyaüddin, Ramuz El Hadis, 1. cilt, Gonca Yayınevi, İstanbul, 1997, 277/6

# RESİM ALTI YAZILARI

s.114

Qüds

Qüds

Lut gölü

Lut gölü və ya başqa adı ilə Ölü dəniz kimi tanınan bölgə dünyanın dəniz səviyyəsindən ən aşağı yeridir. Bu, Qurani-Kərimdə əsrlərlə əvvəl bildirilən bir məlumatdır. İnsanlar bu məlumatı ancaq müasir texnologiyanın imkanlarından istifadə etməklə əldə edə biliblər.

Rumluların Quranda xəbər verilən qələbəsi 630-cu ildə imperator Heraklın İran hökmdarı II Xosrovu məğlub edərək Qüdsü qaytarması və Məzar Kilsəsinin təkrarən xristianların nəzarətinə keçməsi ilə bitdi.